# DÜŞÜNƏN İNSAN

№ 5 - Yanvar 2012 - 2 AZN

# İslam terroru lənətləyir



## TERRORİZMİN MƏNŞƏYİ: DARVİNİZM VƏ MATERİALİZM

- İlham Əliyev: "Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik"
- İnsan beyninin sirləri: beyinin müdafiə funksiyaları
- Axırzamanda İslami dəyərləri təbliğ etmək çox vacibdir
- Şəxsiyyətinizin gizli tərəfi: samimilik
- İslam birliyini istəməyənlər İslam dünyasında tökülən qandan məsuldurlar
- Daş dövrü yalanı
- Quran əsas istinad mənbəyidir
- İnsanlara tapınma dini
- 6 gündə yaradılış
- Musiqi: Allahın neməti

بسم الله الرحمن الرحيم

Bu jurnalın məqalələrinin hazırlanmasında
Harun Yəhyanın (Adnan Oktar)
əsərlərindən istifadə edilmişdir.

Aylıq abunə olmaq istəyənlər üçün
əlaqə nömrəsi:
012-434-93-01

الله
رسول
محمد

DÜŞÜNƏN İNSAN - Yanvar 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli “1400 Design”
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər



İman edən alimlər 3
Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 8
“Azlıq çoxluğa tabedir” məntiqi degenerasiyanın əsas mənbəyidir 12
Axırzamanda İslami dəyərləri təbliğ etmək çox vacibdir 18
Fosillər təkamülü təkzib edir 23
Daş dövrü yalanı 24
Peyğəmbərimizin (s.ə.v) bütün aləmlərə nümunə olan təvəkkülü 28
İslam dinində məcburiyyət yoxdur, hər bir insan ibadətində və inancında azaddır 32
Zülallar təsadüfən əmələ gələ bilməz 34



Hüquqi dövlət və hüququn aliliyi prinsipi 6



Quran əsas istinad mənbəyidir 16



İlham Əliyev: “Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik”. 10



Şəxsiyyətinizin gizli tərəfi: səmimilik 36



İnsan beyninin sirləri: beynin müdafiə funksiyaları 30

Şərq-Qərb mətbəəsində çap olunmuşdur

# içindəkilər




Quran əxlaqı 39

Musiqi : Allahın neməti 47

Bütün canlıları və əşya aləmini yaradan Allahdır 52

İnsanlara tapınma dini 54

Ultrasəs dalğaları ilə düşmənlərindən qorunan güvələr 56

6 gündə yaradılış 66

Allah qorxusu və cəhənnəm 68

Bir ayə bir açıqlama 71

Sümüklərdəki möhkəm qəfəs sistemi 80




İslam terroru lənətləyir 40

İslam birliyini istəməyənlər İslam dünyasında tökülən qandan məsuldurlar 48





Materialist düşüncə elmə necə zərər verir? 72

İslamla şərəflənən ilk qadın səhabə: hz. Xədicə 60

Böcəklərdəki üstün uçma sistemləri 76





Peyğəmbərlərimiz necə dua edərdilər? 64

# İMANLI ALİMLƏR



Lui Paster (1822-1895)

Tibb elmi tarixində əhəmiyyətli rol oynayan Paster mikrob nəzəriyyəsi ilə və qəti şəkildə təkamül nəzəriyyəsinə qarşı çıxması ilə məşhurdur. Apardığı tədqiqatlar onu bakteriyaları daha da dərindən araşdırmağa yönəltmişdir. Paster bu sahədəki tədqiqatları nəticəsində quduzluq, difteriya və digər xəstəliklərə qarşı mübarizə aparmaq üçün peyvənd üsulunu təkmilləşdirmiş, sterilizə etmə üsulunu kəşf etmişdir.

Allah inancı çox güclü olan Paster yaşadığı dövrdə Darvinin təkamül nəzəriyyəsinə qarşı çıxdığı üçün bir çox fikri hücuma məruz qalmışdır. Elmlə din arasındakı uyğunluğu müdafiə edən Pasterin bu mövzuda söylədikləri çox məşhurdur. Bu sözlərdən bəziləri belədir:

***"Təbiəti nə qədər çox araşdırsam, Yaradanın əsərləri qarşısında inancım bir o qədər artır".***

(Jeffrey L. Sheler and Joannie M. Schrof, The Creation, US News & World Report, Vol.111, No. 26, December 23, 1991 s.62)

Qalileo Qaliley teleskopla səmaya baxan ilk insandır. Qaliley həm Dünyanın kürə formasında olduğunu söyləmiş, həm də Aydakı qaranlıq bölgə, kraterlər və təpələri kəşf edən ilk insan olmuşdur. Elmə bəxş etdiyi bu böyük xidmətlərlə tarixdə əhəmiyyətli yeri olan Qaliley duyğu orqanlarının, danışıq qabiliyyətinin və təfəkkürün insanlara Allah tərəfindən verildiyinə və bunların ən yaxşı şəkildə istifadə edilməsinin vacib olduğuna inanırdı. O, təbiətin Yaradan tərəfindən dizayn edildiyini müdafiə edirdi. "Şübhəsiz ki, təbiət, imtina edə bilməyəcəyimiz, oxumalı olduğumuz Allahın digər kitabıdır", - deyən Qaliley Allahın kitabları ilə yaratdıqları arasında heç bir ziddiyyətin olmadığını və hər birinin Allah tərəfindən yaradıldığını söyləyirdi.

(Dan Graves, Scientists of Faith, s. 25)



Qalileo Qaliley (1564-1642)



# Elmi-Texnoloji xəbərlər



## Elmə məlum olan ən böyük qara dəliklər

Astronomlar bu günə qədər məlum olan qara dəliklərdən daha böyük iki dəlik kəşf etdilər.

"Nature" jurnalında dərc edilən məqalədə bildirilmişdir ki, Berkeleydəki Kaliforniya Universitetinin elm adamlarının müşahidə etdiyi iki qara dəliyin hər birinin kütləsi Günəşin kütləsindən təxminən 10 milyard dəfə çoxdur.

Nəhəng qara dəliklər iki müxtəlif qalaktikanın mərkəzində yerləşir. Bu günə qədər müşahidə edilən ən böyük qara dəlik Günəşin kütləsindən 6 milyard daha böyük kütləyə sahib idi.

## Elm adamları siçanların eqoist deyil, mərhəmətli olduğunu kəşf ediblər

Çikaqo Universitetində Peggi Masonun apardığı təcrübə nəticəsində məlum olub ki, siçanlar şokoladı yemək yerinə, tələyə düşmüş yoldaşlarını xilas edirlər.

Təcrübədəki 30 siçandan 23-nün qəfəsi açaraq tələyə düşən siçanı xilas etdiyi, üstəlik də bunu qəfəsə qoyulan şokoladı yemədən əvvəl etdikləri müşahidə edilib. Yəni eqoist kimi tanınan siçanlar əvvəl kömək ediblər, sonra da yeməklərini paylaşıblar.

Təcrübənin nəticələri "Science" jurnalında dərc edilib. Peggi Mason sosial empatiyanın yalnız insana və ya bəzi məməlilərə xas olmadığını da bildirib.



## Beyindəki genlər daim dəyişir



Elm adamları nevroloji xəstəlikləri müalicə etmək istiqamətində yeni bir kəşfə imza atdılar. Bu kəşf sayəsində məlum oldu ki, beyin hüceyrələrinin genetik quruluşu zənn edildiyi kimi sabit qalmır, əksinə, dəyişir.

İngiltərədəki Edinburq Universitetində aparılan araşdırmada beyinin DNT-sindəki bu dəyişiklikləri həyata keçirən gen kəşf edildi. Bu genlərə ən çox beyinin hüceyrə yeniləmə mərkəzində rast gəlinir.

Genlərin aktiv olduqları yerlərin dəqiq təyin olunması ilə beyin funksiyalarına pis təsir edən mutasiyaların qarşısının alınacağı güman edilir.

Araşdırmada ilk dəfə beyin hüceyrələrinin həm bir-birindən, həm də bədəndəki digər hüceyrələrdən genetik cəhətdən fərqli olduğu da təyin olundu. Elm adamları hal-hazırda bu tapıntılarla "Alzheimer" xəstəliyinin və nevroloji xəstəliklərin əlaqəsini araşdırırlar.

## Pişiyin beyni super kompyuterdən 83 dəfə daha sürətlidir

Miçiqan Universitetinin elm adamları kompyuter texnologiyasının inkişafı sahəsində daha bir addım atdılar. Onlar daha kompleks qərar verən, daha çox funksiyanı eyni anda yerinə yetirən, öyrənmək və xatırlamaq tutumuna sahib olan kompyuter istehsal etməyi düşünürlər.

İnsan beynindən daha sadə olan pişik beynini "nüsxələməyi" düşünən informasiya sistemlərinin mühəndisi Vei Lu qeyd edir ki: "Pişiklərin beyinləri kompleks olduğundan onları təqlid etmək olduqca çətindir".

Pişik beyninin funksiyalarını müasir dövrün ən kompleks kompyuterində istifadə edərək bəzi əməliyyatları icra etdiklərini bildirən elm adamları: "Bu kompyuterin 140 min mərkəzi əməliyyat modulu və xüsusi güc qaynağı olan möhtəşəm maşın olduğunu", - söylədilər. Elm adamları bu alətin bir pişik beynindən 83 dəfə daha yavaş işlədiyini də vurğuladılar.





# DÖVLƏTİN İQTİSADİ HƏYATDAKI MÜSTƏSNA ROLU

> • Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır!
> • Biz bazar iqtisadiyyatı yolu ilə cəsarətlə getməliyik!
> • Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.
>
> **Heydər Əliyev**



19-cu əsr çoxlu sayda mütəfəkkirin nəzəriyyələr yazdığı bir dövr idi. Liberalizm və marksizm kimi iki fərqli sosial nəzəriyyə bu dövrdə ortaya çıxdı. Hər iki nəzəriyyənin də ortaq xüsusiyyəti təcrübələrə deyil, mücərrəd fikirlərə əsaslanması idi. 20-ci əsrdə isə bu fikirlər tətbiq edilməyə başlandı və ortaya bəzi konkret təcrübələr çıxdı.

Marksizmin bu təcrübələrin nəticəsində süqut etdiyi məlumdur. Dövlətin əvvəl zorakılıq yolu ilə ələ keçirilməsini, sonra bütün iqtisadiyyatın dövlət nəzarətinə alınmasını və uzaq gələcəkdə də dövlətin tamamilə ləğv edilməsini müdafiə edən bu nəzəriyyənin həqiqətlərlə uyğunlaşmayan və çox səmərəsiz iqtisadi model ortaya qoyduğu aşkardır. Sovet İttifaqının mərkəzi planlamaya əsaslanan iqtisadi modelinin süqut etməsi dövlətin səhv iqtisadi siyasəti olduğunu və iqtisadiyyatın ancaq xüsusi sektorun rolu ilə məhsuldar hala gələcəyini ortaya qoymuşdur.

Ancaq o qədər diqqət çəkməyən başqa bir fakt isə ondan ibarətdir ki, 20-ci əsrdəki təcrübələrin



19-cu əsr liberalizmini də bəzi istiqamətlərdən haqsız çıxarması idi. 19-cu əsrdə yaşamış liberal iqtisadiyyat müdafiəçiləri 18-ci əsrdəki ingilis iqtisadçı Adam Smitin yolunu izləyərək "ən yaxşı dövlət, ən az müdaxilə edən dövlətdir" fikrini müdafiə edirdilər. Dövlətin iqtisadi həyata müdaxilə etməməsinin və bütün iqtisadiyyatın xüsusi sektorun nəzarətində olmasının lazım olduğunu müdafiə etmişdilər.

Dövlətin tamamilə kənarlaşdırıldığı bu iqtisadi model 19-cu əsrin sonlarından 20-ci əsrin birinci rübünə qədər başda ABŞ olmaqla, bir çox qərb ölkəsində qəbul edildi. Ancaq 1929-cu ildə başlayan və "Böyük böhran" kimi tanınan nəhəng iqtisadi böhran bu modelin yanlış olduğunu ortaya qoydu. Böyük böhran Nyu-York birjasında baş qaldıran və sonra da bütün dünyaya yayılan həyəcanla başlamışdı. Dünya iqtisadiyyatını illərlə zəiflədən bu böhran dünya ticarət dövriyyəsinin azalmasına, cəmiyyətlərin gəlir və rifah səviyyələrinin aşağı düşməsinə, milyonlarla insanın işsiz qalmasına səbəb oldu.

Böyük böhranın ortaya qoyduğu ən əhəmiyyətli nəticələrdən biri dövlətin iqtisadiyyatdan tamamilə uzaqlaşdırılmasının çox zərərli olduğu idi. Belə ki, Böyük böhrandan sonra inkişaf edən "Keynes modeli" iqtisadi sistemi dövlətin müəyyən ölçüdə iqtisadiyyata müdaxilə etməsinin, bəzən də sərmayələrlə iqtisadiyyatı istiqamətləndirməsinin lazım olduğunu qəbul etdi. Bir çox dövlət də Keynes modelini tətbiq etməklə Böyük böhranın vurduğu zərərləri ortadan qaldıra bildi.

Hal-hazırkı dövrdə etibarlı olan iqtisadi model xüsusi sektorun lokomotiv funksiyasını yerinə yetirdiyi, amma dövlətin idarəçiliyi və istiqamətləndirməsi ilə işləyən iqtisadi modeldir. Dövlətin başda infrastruktur sərmayələri olmaqla iqtisadiyyatın bəzi sahələrinə əl atması zəruridir. Bundan əlavə, xüsusi sektor üçün gəlir gətirməyən, amma cəmiyyətin ümumi rifahı baxımından lazım olan bəzi xidmətlərin yerinə yetirilməsi üçün də yenə dövlətin müdaxiləsi zəruridir (məsələn, poçt xidməti dünyanın heç bir ölkəsində qazanc gətirmir, amma cəmiyyətin faydası üçün dövlət tərəfindən icra edilir). Eyni şəkildə, bir ölkənin strateji təhlükəsizliyini maraqlandıran iqtisadi məsələlər də dövlət tərəfindən təşkil edilməlidir.

Xülasə olaraq, bir ölkənin rifahı üçün iqtisadiyyatın dövlət tərəfindən idarə edilməsi, qanunlarla tənzimlənməsi, bəzən də birbaşa dövlətin müdaxiləsi ilə istiqamətləndirilməsi zəruridir. Dövlət bunları edə bilmək üçün, əlbəttə, güclü olmalıdır.



# İSLAM DÜNYASINDA KEÇƏN AY

## 11 sentyabr hadisəsi amerikalıların İslamı qəbul etməsinə səbəb olur

Musiqi müəllimi olan Cohanna Seqariç 11 sentyabr hadisəsindən sonra İslam dini ilə maraqlandığı üçün araşdırmağa qərar vermiş və bir neçə ay sonra kəlmeyi-şəhadət gətirərək müsəlman olmuşdur.

Cohanna Seqariç "Hafinqton Post"a verdiyi açıqlamada belə deyir: "Mən orta yaşlıyam, Yutada anadan olmuşam, professional musiqi müəllimiyəm. Çox azad və müasirəm, indi İslamı qəbul edirəm".

Seqariçdən başqa, Ancela Kolins Telles də 11 sentyabr hadisəsindən sonra bəzi yerlərdə əmələ gələn anti-İslami fikirlərə görə, İslam dinini araşdırmağa və müsəlman olmağa qərar vermişdir. Telles ölkəsindəki bəzi insanların müsəlmanların terrorist və qadına təzyiq göstərən insanlar olduqlarını düşündüklərinə görə, müsəlmanları müdafiə etmək ehtiyacı hiss edərək İslamı araşdırmağa başlamışdır. Apardığı hərtərəfli araşdırma Tellesin İslamla şərəflənərək müsəlman olmasına səbəb olmuşdur.

Telles: "Bilirdim ki, Allahı tapmışam və istədiyim də elə bu idi", - deyir və sözlərinə belə davam edir: "Allahın varlığı ən gözəl şeydir və bu, mənim inancıma tamamilə uyğundur".

Kolins Telles indi həyat yoldaşı ilə birlikdə Braziliyada yaşayır. Həyat yoldaşı da onunla tanış olduqdan sonra İslamı qəbul edib.

Çikaqolu Kelli Kaufmann da eyni şəkildə müsəlmanların sülh əleyhdarı olduğu iddialarına görə, müsəlmanları müdafiə etmə ehtiyacı hiss etmiş və İslamı araşdıraraq müsəlman olmuşdur. Trişa Skuayers 11 sentyabr hadisəsindən sonra İslamı araşdıran və beləliklə, müsəlman olan başqa bir amerikalıdır.

Tədqiqatlara əsasən, hər il təxminən 20.000 amerikalı İslamı qəbul edir. Mütəxəssislər 11 sentyabr hadisələrindən sonra müsəlman olanların əksəriyyətini qadınlar təşkil etdiyini deyirlər.

Buna görə, Amerikada bir çox məscid yeni müsəlman olanların namaz, imanın əsasları və gözəl davranışlar kimi İslamın bir çox şərtləri ilə bağlı məlumatlanmalarına xidmət edir.

Uilminqtondakı İslam mərkəsinzdə yeni müsəlman olanlar üçün dərslər verən Vaqar Şarif olduğu məsciddə hər ay ən az dörd-beş nəfərin İslamı qəbul etdiyini açıqlayır.

## Yeni Zellandiyada gənc və dinamik müsəlman əhalinin sayı artır

Yeni Zellandiyanın getdikcə artan müsəlman əhalisi gənc və dinamikdir. Yeni Zellandiyada təxminən 17.000 müsəlman yaşayır. Bu müsəlmanların əksəriyyəti Ficidən gəlir. İslam dinini qəbul edən Yeni Zellandiyanın yerli əhalisinin sayı isə günbəgün artır.

Rəsmi statistik məlumata əsasən, Yeni Zellandiyada son 25 ildə müsəlman əhali demək olar ki, hər 5 ildə iki dəfə artır.

Yeni Zellandiya müsəlmanlarının təxminən 63%-i Oklenddə yaşayır, ancaq Vellinqton, Hamilton, Kristçörç və Dunedində də müsəlman cəmiyyətləri çoxdur. Ölkədə 9 məscid və İslam mərkəzi var və bunların 5-i Oklenddə yerləşir.



## Sunday Times: "Türkiyə Avropa Birliyinin süqutunu seyr edir"

İngilis "Sunday Times" qəzeti bölgədə gücə çevrilmiş Türkiyənin Avropa Birliyindən (AB) uzaqlaşdığını yazır. Qəzetin tanınmış nümayəndələrindən Metyu Kempbel yazdığı xəbərdə yaxın zamana qədər AB-nə üzv olmaq istəyən Türkiyənin bölgədə nüfuzunun artması ilə bu istəyinin günbəgün daha da azaldığını bildirir.

Qəzet Çinlə böyümə yarışına girən və cümhuriyyətin banisi Atatürkdən bəri ən güclü lideri ilə Türkiyənin təhlükəsiz limandan Avropa gəmisinin batmasını müşahidə etdiyini və bu gəmiyə minib-minməməyi düşündüyünü yazır.

"Times" Türkiyədə bir çox insanın Türkiyənin AB-nə deyil, AB-nin Türkiyəyə ehtiyacı olduğunu düşündüyünü bildirir.

## Almaniyanın bir əyalətində İslam din dərsi qəbul edildi

Şimali Reyn Vestfaliya (ŞRV) Əyalət Məclisində keçirilən səsvermədə "İslam din dərsi" qəbul edildi. 1.5 milyona yaxın müsəlmanın yaşadığı Şimali Reyn Vestfaliya əyaləti ölkə səviyyəsində İslam din dərsini sistemli dərs kimi qəbul edən ilk əyalət oldu. Dərs 2012-2013-cü tədris ilindən etibarən rəsmi tədris planına daxil ediləcək.Dərsdə eynilə yevangelik və katolik din dərslərində olduğu kimi, dini təhsil veriləcək. Əyalətdə təqribən 320 min müsəlman tələbə təhsil alır.

Qanuna əsasən, almanca tədris ediləcək dərs ancaq Almaniyada təhsil almış müəllimlər tərəfindən keçiləcək.

## Parisin Champ-Elisees prospektində Harun Yəhya elanları: "Allah var"

Cənab Adnan Oktarın (Harun Yəhya) Yaradılış Atlası kitablar seriyasını, fransız dilindəki əsərlərini və internet saytını təqdim edən afişalar Parisin mərkəzi küçələrində bir ay nümayiş etdiriləcək.

Bundan əvvəl İngiltərənin paytaxtı Londondakı avtobuslarda və Hollandiyanın Rotterdam şəhərindəki tramvaylarda verilən bu elanlarda "ALLAH VAR" cümləsi ilə bərabər Harun Yəhya əsərləri ilə bağlı Ipad, Iphone və Andreoid proqramlarının reklamı da vardı.

Xatırladaq ki, 2007-ci ildə Fransanın bütün qabaqcıl şəxslərinə göndərilən "Yaradılış Atlası" çox böyük əks-səda doğurmuş, qəzetlərdə günlərlə bu böyük əsərin təsirindən bəhs edilmişdi.

18-22 yanvar tarixində Harun Yəhyanın Paris və Rouendə yeni konfransları keçiriləcək. Konfransın mövzuları aşağıdakılardır:

***1. Ateizmin sonu, 2012: İnanc əsrinin başlanğıcı***
***2. Quran möcüzələri***
***3. Kainatın yaradılışı***
***4. Darvinizmin molekulyar səviyyədə süqutu***
***5. İslam sülh dinidir***

***Konfranslara giriş pulsuzdur.***



# İLHAM ƏLİYEV: "Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik"



Azərbaycan xalqı öz dini və tarixi ənənələrinə çox sadiqdir. Dinimiz, tariximiz, milli mənəvi dəyərlərimiz bizim üçün müstəsna əhəmiyyət kəsb edir. Son illər ərzində bizim tarixi, dini abidələrimiz təmir edilir, yenidən qurulur. Bizim üçün çox böyük əhəmiyyət daşıyan ziyarətgahlar, ibadət yerləri dövlət tərəfindən qorunur, təmir edilir.

Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı öz dini və mənəvi ənənələrinə sadiq olan xalqdır. Biz hesab edirik ki, bu sahədə işlər daha da sürətlə aparılmalıdır. Azərbaycanda din, vicdan azadlığı tam şəkildə təmin edilmişdir. Biz müqəddəs dinimizə - İslam dinimizə sadiq olan xalqıq. Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik. Bu məqsədlə Azərbaycan çox böyük işlər görür - həm Azərbaycan dindarları, həm Azərbaycan dövləti. Biz öz dinimizi həm təbliğ etməliyik, həm də əsassız hücumlardan qorumalıyıq.

Əfsuslar olsun ki, bəzi hallarda biz belə hallarla üzləşirik: İslam dininə qarşı ədalətsiz hücumlarla, islamofobiya meyilləri ilə rastlaşırıq, bəzi kütləvi informasiya vasitələrində İslam dininə qarşı böhtan kampaniyaları aparılır. Əlbəttə, biz bütün bu xoşagəlməz hallara dərhal reaksiya verməliyik və veririk, sübut edirik ki, İslam dini sülh dinidir, qardaşlıq dinidir, xeyirxahlıq dinidir, mərhəmət dinidir. Bizim dini bayramlarımız mərhəmət ideyalarını təcəssüm etdirir. Bizim dini ənənələrimiz ondan ibarətdir ki, kasıblara əl uzadılmalıdır, kömək göstərilməlidir. Bu, ümumbəşəri dəyərlərdir. Bu ümumbəşəri dəyərlərin hamısı İslam dinində təmsil edilir. Yəni İslam dini bütün gözəl ümumbəşəri dəyərləri ehtiva edir. Həqiqət bundan ibarətdir.

Ancaq, əfsuslar olsun ki, İslam dininə qarşı aparılan çirkin təbliğat kampaniyası hələ də davam edir. Biz həm bu yalan və böhtan üzərində qurulmuş kampaniyaları dağıtmalı, həm də öz təbliğat işimizi daha da güclü şəkildə aparmalıyıq, eyni zamanda, bizim, yəni İslam dünyasının birləşməsi bu kampaniyanı aparanlara ən gözəl cavab ola bilər.



# İLHAM ƏLİYEV: "Azərbaycan öz tərəfindən İslam həmrəyliyinin gücləndirilməsi üçün səylərini əsirgəmir".



Azərbaycan öz tərəfindən İslam həmrəyliyinin gücləndirilməsi üçün səylərini əsirgəmir. Biz İslam Əməkdaşlığı Təşkilatına üzv olduqdan sonra bütün bu müsbət meyillərin gücləndirilməsinə töhfəmizi vermişik. İki il bundan əvvəl Bakı İslam mədəniyyətinin paytaxtı elan edilmişdi. Bu, bizim üçün çox böyük şərəf, həm də çox böyük məsuliyyət idi və İslam dünyasının Azərbaycana göstərilən hörməti idi. Bu, İslam dünyasının Azərbaycanda İslam dininə olan hörmətinə verilən böyük qiymət idi. Onu da qeyd etməliyəm ki, bizim təşəbbüsümüzlə 2018-ci ildə Azərbaycanın digər qədim şəhəri Naxçıvan İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, yaxud da ki, milli zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır. Mən tam əminəm ki, öz dininə hörmət edən insan mütləq başqa dinlərə də hörmətlə yanaşmalıdır. Dinlərarası dialoq daha da gücləndirilməlidir. Bu məsələ ilə bağlı müxtəlif fikirlər, müxtəlif yanaşmalar vardır. Yəni biz istəyirik ki, dünyada müsbət meyillər, əməkdaşlıq, dostluq, qardaşlıq meyilləri güclənsin və burada din xadimlərinin çox böyük rolu vardır. Biz öz tərəfimizdən təşəbbüsləri bundan sonra da irəli sürəcəyik. Azərbaycan burada yaşayan bütün xalqların doğma vətənidir. Hər bir xalqın nümayəndəsi bizim dəyərli vətəndaşımızdır. Biz bütün dinlərin nümayəndələrinə böyük hörmətlə və rəğbətlə yanaşırıq.

Eyni zamanda, hər bir ölkənin uğurlu inkişafı üçün din-dövlət əlaqələri çox böyük əhəmiyyət daşıyır. Bu əlaqələr də Azərbaycanda çox yüksək səviyyədə həll olunur. Din-dövlət əlaqələrinin sağlam zəmində qurulması hər bir cəmiyyət üçün çox vacibdir. Azərbaycanda bu məsələlər yüksək səviyyədə təşkil edilir. Din-dövlət münasibətlərinin bu səviyyədə qurulmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Biz hamımız çalışmalıyıq ki, ölkəmizi daha da inkişaf etdirək, gücləndirək. Bizim çox gözəl perspektivlərimiz vardır. Biz bu il müstəqilliyimizin bərpasının 20 illik yubileyini böyük təntənə ilə və böyük uğurlarla qeyd etmişik. İyirmi il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Bütün başqa sahələrdəki uğurlarla və iqtisadi, sosial məsələlərin həlli ilə yanaşı, Azərbaycanda ictimai vəziyyətin çox müsbət səviyyədə olması bizim böyük sərvətimizdir. Bu sahədə nüfuzlu insanların sözləri böyük əhəmiyyət daşıyır.

(Cənab Prezident İlham Əliyevin Bakıdakı Əjdərbəy məscidinin əsaslı təmiri və yenidənqurmasından sonra açılışındakı nitqindən. 22 dekabr, 2011)



# "AZLIQ ÇOXLUĞA TABEDİR" MƏNTİQİ DEGENERASİYANIN ƏSAS MƏNBƏYİDİR

Əsrlər boyu cəmiyyətdə bəzi insanlar əksəriyyətin etdiyini doğru qəbul etmişdir. Bəzi insanları din əxlaqının tələblərini yerinə yetirməkdən çəkindirən ən böyük maneələrdən biri də budur. İnsanları yaşadıqları cəmiyyətin onlar haqqında nə deyəcəyindən, nə düşünəcəyindən asılı edən bu yanlış düşüncə tərzi din əxlaqına uyğun yaşamayan əksər insanlar tərəfindən həyat tərzi kimi mənimsənilmişdir. Nəticədə, bu insanların cəmiyyətdə əksəriyyət təşkil etməsi digər insanları da səhv istiqamətləndirmiş və onları bu kütlənin yaşadığı yanlış həyat tərzinin və qayda-qanunlarının doğru olduğuna inandırmışdır. Halbuki düşünmədən əksəriyyətlə ayaqlaşmaq şeytanın bir oyunudur və insanı dünyada və axirətdə itkiyə məruz qoyar. Quranda Allah müsəlmanlara belə əmr edir:

**Onların aralarında Allahın nazil etdiyi (Kitabla) hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi (hökmlərin) bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir. (Maidə surəsi, 49)**

Ayədən də məlum olduğu kimi, Allah insanlara haqsız çoxluğa və onların nəfslərinə uyğun qayda-qanunlarına tabe olmamağı əmr edir, Quran əxlaqına uyğun hərəkət etməyin həll yolu olduğunu bildirir. Ancaq insanların əksəriyyəti vicdanları qəbul etməsə də, özlərini çoxluğun həyat tərzi ilə ayaqlaşmağa məcbur hiss edir, bunu cəmiyyətin bir fərdi olmaq



üçün labüd hesab edirlər. Halbuki əksəriyyətin nə etdiyi, nəyə inandığı, nəyi müdafiə etdiyi bir insan üçün əsla etibarlı mənbə və dəyər ölçüsü deyil.

## Bəzi insanlar "çoxları edir" məntiqinə niyə sığınırlar?

İnsanların bir qismi, eynilə haqq dinin əmri kimi "madam ki, bu cəmiyyətdə yaşayırıq, cəmiyyətin həyat tərzinə və qoyduğu qaydalara tabe olmalıyıq" məntiqinə tabe olmağa özlərini məcbur hiss edirlər. Din əxlaqının həqiqi mənasını qavramamış bu insanlar dünyada Allahın əmrlərindən başqa insanların tabe olduğu bəzi qaydalar olduğuna, insanın da sosial varlıq olduğuna görə, bu qayda-qanunlara əməl etməli olduğuna inanırlar. (Qeyd etmək lazımdır ki, burada bir şəxsin, cəmiyyətin rahatlığı üçün lazımi bəzi qaydalara tabe olmasından bəhs edilir. Əgər əksəriyyət din əxlaqına uyğun yaşamırsa, bir insanın din əxlaqından uzaqlaşması, Quranda qadağan olunduğu halda, əksər insanlar içki içdiyinə, qumar oynadığına, saxtakarlıq etdiyinə görə, bunları etməyi təhlükəli görməməsi yanlışdır). Bu əxlaqa malik insanlar cəmiyyətin fərdlərini razı salmağı ən zəruri vəzifə hesab edirlər. Buna görə, cəmiyyətin "başqaları nə deyər, insanlar necə qiymət verər, nə düşünər, mənim haqqımda yaxşı desinlər, ağıllı, zəkalı desinlər, varlı desinlər, əliaçıq desinlər, mənim haqqımda belə düşünməsinlər, bunu deməsinlər, belə danışmasınlar" kimi fikirlərin içindən çıxa bilmirlər. Nəticədə isə din əxlaqına uyğun yaşamadıqları üçün əsla həqiqi xoşbəxtliyi və rahatlığı tapa bilmir və nə razı salmaq istədikləri insanları razı salır, nə də özləri razı qalırlar.

## Əksəriyyət haqsız ola bilər

Əksəriyyətin mənimsədiyi həyat tərzi, saxta qayda-qanunlar və hərəkətlər insanları doğruya yönəltməz. Əksinə, Allah Quranda əksəriyyətə tabe olmağın insanı azdıran təhlükə olduğunu belə xəbər verir:

**"Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan danışırlar". (Ənam surəsi, 116)**

Buna görə, əksəriyyətin Quran əxlaqına zidd həyat tərzini seçməsi, insanları ələ salması, zülm etməsi, ailələrinə, hətta dövlətlərinə qarşı çıxması, Allahın haram etdiyi hərəkətləri düşünmədən etməsi cəmiyyətdə yaşayan başqa insanlara təsir etməməlidir. Bundan əlavə, bu cür insanların əksəriyyət təşkil etməsi də onların etdiyi səhvlərə haqq qazandırmır. Məsələn, bir xalqın oda, günəşə və ya ulduzlara sitayiş etməsi başqasının da eyni inancı mənimsəməsi üçün əsas deyil.

Bir xalqın içində fırıldaqçılıq, zalımlıq, oğruluq və bunun kimi əxlaqsız davranışlara səs çıxarılmasa da, bir şəxs "çoxu bunu edir" məntiqi ilə eyni hərəkətləri etməyə məcbur deyil.



Bir xalqın içində ancaq varlılara hörmət edilməsi, gözəl əxlaqlı kasıb insanların maddi gücü olmadığına görə əzilməsi digər insanların da bu düşüncə tərzini dəstəkləməsinə əsas vermir.

Əksinə, bəzi insanların vicdanları qəbul etmədiyi halda, məhz əksəriyyətin qınamasından qorxaraq bu zalım məntiqi doğru qarşılaması böyük vicdansızlıq olar. Çünki insan cəmiyyət tərəfindən qınanmaqdan, təcrid edilməkdən və ya alçaldılmaqdan qorxaraq vicdanı ilə doğru olduğunu bildiyi şeyi etməkdən çəkinməsi ağıllı hərəkət deyil. Allah Quranda müsəlmanların mühüm xüsusiyyətinin insanların qınamasından qorxmaması olduğunu belə xəbər verir:

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (hər şeyi) əhatə edəndir, biləndir. (Maidə surəsi, 54)**

## “Əksəriyyətə tabe olmaq” məntiqi cəmiyyətə ancaq itki gətirər

Yuxarıdakı nümunələrdə qısa şəkildə bildirildiyi kimi, insanlar Allahın razı qaldığı həyat tərzindən fərqli həyatı mənimsəyiblərsə, əksəriyyətə tabe olmaq məntiqi onlara qazanc gətirməyəcək. Belə ki, əqli cəhətdən çökmüş və əxlaqi degenerasiyaya uğramış fərdlərdən ibarət cəmiyyət dünyada ciddi qarışıqlığın içinə sürüklənir. Mənfəətə əsaslanan çəkişmələr, düşmənçiliklər, qəzəb, nifrət, qısqanclıq kimi mənfi duyğu və düşüncələr insanlar arasında sürətlə yayılır. Dünya isə yaşamaq mümkün olmayan, narahatlıq və xaosun hakim olduğu yerə çevrilir. Bu, Allahın Ona şərik qoşanlara dünyada verdiyi qarşılıqdır. Axirətdə bu insanları daha pis son gözləyir. Bu son Quranda belə xəbər verilmişdir:

**Onlar yer üzündə (Allahdan) yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar (haqqı) eşidə bilmirdilər və görmürdülər. Onlar özlərini ziyana uğradarlar. Uydurduqları (bütlər) isə onlardan qeybə çəkilib gedər. Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır. (Hud surəsi, 20-22)**

## Müsəlmanlarn rəhbəri Qurani-kərim və Peyğəmbərimizin (s.ə.v.) sünnəsidir

Müsəlman əksəriyyətin səhv davrandığı mühitdə Allahın əmr etdiyi kimi vicdanla və Quran əxlaqına uyğun davranmalıdır. Buna görə, əksəriyyətin Quran əxlaqına uyğun olmayan həyat tərzini seçməsi, gündəlik həyatda buna uyğun qərar verib bu



cür düşünməsi cəmiyyətdə yaşayan digər şəxslərə təsir etməməlidir.

Müsəlmanlar harada olsalar da, nə etsələr də, qəlblərində və söhbətlərində daima Allaha olan imanlarını və bağlılıqlarını əsas götürürlər. Həyatlarının məqsədi Allahın rizasını, rəhmətini və cənnətini qazanmaq olduğu üçün hər an bu məqsədə uyğun hərəkət edirlər. Hər işdə Quranda bildirildiyi kimi, Allaha təslim olurlar. Bu əxlaqlarına görə, çoxluq içində Quran əxlaqına uyğun hərəkət edən yeganə insan olsalar da, bu onları əsla zəiflətməz. Əksinə, daha diqqətli davranar və Allahın razı olmadığı davranışlardan çəkinərlər. Allahın iznilə, heç bir şərait və mühit onları gözəl əxlaqdan, Allahı və axirəti düşündürməkdən uzaqlaşdırmaz. Rəbbimiz Quranda möminlərin bu xüsusiyyətini belə bildirmişdir:

**O kəslər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

## Hz. İbrahim insanların əksəriyyətinə tabe olmamış, bütün müsəlmanlara nümunə olmuşdur

Quranda hz. İbrahimin və onunla birlikdə olan möminlərin onları qınayan insanlardan çəkinməyən qətiyyətli davranışları nümunə göstərilir. **“Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi. (Nəhl surəsi, 120)”** ayəsilə təriflənən hz. İbrahim və yanındakı möminlər insanların əksəriyyətinin bütlərə sitayiş etdiyi cəmiyyətdə yaşayırdılar. Ancaq insanların onları qınamasına, hədə-qorxu gəlməsinə baxmayaraq, ancaq Allahdan qorxduqlarına görə, bu cəmiyyətin batil hərəkətlərinə kəskin reaksiya vermişdilər. Quranda bu belə xəbər verilir:

**İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: “Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik… (Mumtəhənə surəsi, 4)**

**O dedi: “Siz yonub düzəltdiklərinizəmi sitayiş edirsiniz? Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır”. Onlar dedilər: “Bundan ötrü bir bina tikin və onu orada odlayın!” Onlar (İbrahimə) hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik. (O dedi): “Mən Rəbbimə doğru gedirəm. O, məni doğru yola yönəldəcəkdir”. (Saffat surəsi, 95-99)**

Ancaq insanların bəziləri hz. İbrahim kimi qətiyyətli ola bilmir. Qəlbləri Allahdan uzaq olduğu üçün vicdanlarını da dinləmirlər. Vicdanlarının qarşısına “insanların əksəriyyəti edir, onlar edirsə, doğrusu budur” kimi səhv məntiqlə sədd çəkir və Allahdan qafil, insanların razılığını üstün tutan, onların qınamasından çəkinən həyat yaşayırlar.

**“Binasını Allah qorxusu və (Onun) rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz”. (Tövbə surəsi, 109)**

# Quran əsas istinad mənbəyidir

Allahın sözü olan Quran doğru ilə yanlışın, yaxşı ilə pisin nə olduğunu insanlara bildirən haqq kitabdır. Quranda insanların nə üçün və necə yaradıldığı, həyat tərzi, ibadət formaları, gözəl əxlaq haqqında məlumatlar, fiziki və mənəvi cəhətdən sağlam olmağın yolları, çətin anlarda və gözlənilməz hallarda görülməli tədbirlər, müxtəlif insan xarakterləri, iqtisadi, siyasi, sosial və hüquqi həyatın ən ideal forması, Allahın sözlərinə itaətsizlik etdikdə ortaya çıxan qarışıqlıq, ölüm anı haqqında məlumatlar, qiyamət günündə baş verəcək hadisələr, cənnət və cəhənnəmlə bağlı məlumatlar və başqa bir çox mövzu ətraflı şəkildə açıqlanmışdır. Yəni Quranda insan həyatının hər anında ehtiyacı olan məlumatların hamısı verilmişdir.

Allahın Quranda tərif etdiyi müsəlmanlıq anlayışında insanın dini hökmləri qeyd-şərtsiz qəbul etməsi, ancaq Allaha iman gətirməsi və Ondan başqa yol göstərici tanımaması, həyatının hər anında Allahın göstərdiyi və razı olduğu şəkildə yaşaması əsasdır. Bu cür iman və əxlaq anlayışına malik insan yaşadığı cəmiyyətin din adından irəli sürdüyü ziddiyyətli, batil inancların, əcdadlarından öyrəndiyi dini biliklərin ardınca korkoranə getməz. Həm Quranın Allah qatından haqq kitab olduğunu qəbul edib, həm də "atalarından qalma" Qurandankənar həyat fəlsəfəsinə tabe olmaz. Tək ölçü və yol kimi ancaq Quranı və Peyğəmbərimizin həyat tərzini mənimsəyər.

Belə ki, Quranda bir çox ayədə həqiqi müsəlmanların yaşadıqları cəmiyyətin batil dinlərindən ayrılıb şirk qoşmadan Allaha və Qurana tabe olduğundan bəhs edilir. Quranda "Kəhf" qissəsində yaşadıqları cəmiyyətin batil dinini qəbul etmədiklərinə görə qınanan və ölümlə hədələnərək mağaraya sığınan əməlisaleh müsəlmanlardan belə bəhs edilir:



**Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi.Biz də onların hidayətini artırdıq. Onlar (kafir hökmdarın qarşısında) durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa tanrıya ibadət etməyəcəyik. Əks halda, olduqca böyük bir (küfr) danışmış olarıq!"– deyərkən onların qəlbinə qüvvət verdik. "Bizim bu xalqımız Allahdan başqa tanrılar qəbul etdi. Bəs nə üçün onlar buna aid bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 13-16)**

Əlbəttə, cəmiyyətin batil dinindən ayrılmaq mənəvi cəhətdən batil din mənsublarından ayrılmaq deməkdir. Başqa sözlə, onların Qurandankənar ibadət formalarını, inanclarını, dəyər ölçülərini, əxlaq anlayışlarını, adət-ənənələrini, davranış normalarını, danışıq üslublarını mənimsəməmək, özlərinə Quranı əsas mənbə qəbul etməkdir.

Quranda da bildirildiyi kimi, xalis din ancaq Allahındır. Allah Ona qulluq edənlərə din olaraq İslamı seçib bəyənmiş və Quranı insanlara yolgöstərici rəhbər kimi nazil etmişdir. Yeganə doğru haqq yol Allahın yoludur. Allahın Quranda bildirdiyi yollardan başqa bütün yollar batildir və ancaq xurafata, bidətə və zənnə əsaslanır. Qurana üz tutanların necə düşünmələri, davranmaları, danışıq üslubları, ibadət formaları və fərz hökmləri açıq şəkildə bildirilmişdir.

Ona görə, həyatının məqsədi Allaha qul olmaq, Onun rizasını qazanmaq üçün yaxşı əməllər etmək və cənnətə layiq qul olmaq üçün həqiqi iman sahibləri özlərinə yolgöstərici mənbə kimi Quranı ölçü qəbul edirlər. Bütün düşüncələrini Quranla dəyərləndirirlər. Quranın bütün hökmlərinə ciddi şəkildə əməl edirlər. Habelə bilik, təcrübə, sosial səviyyəsinə baxmayaraq, insanın üz tutduğu yeganə mənbə Qurandır. Belə ki, Allah "Zumər" surəsinin 36-cı ayəsində: **"Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?!"** - deyir. Ona görə də insan ancaq Quranı yeganə ölçü qəbul etdikdə, Allahın əmrlərini dəqiq yerinə yetirdikdə, hər an Onun rizasını qazanmaq üçün saleh əməllər etdikdə Allah dərgahında gözəl mükafata ümid bəsləyə bilər.



# Axırzamanda İslami dəyərləri təbliğ etmək çox vacibdir

Bu gün dünyada zülmə və zorakılığa məruz qalan, aclıq çəkən insanların varlığından hamı xəbərdardır. Qəzetlərdə, televiziya kanallarında sahibsiz və möhtac insanların görüntülərinə tez-tez rast gəlmək mümkündür. Bir çox insan onların vəziyyətini görəndə təəssüf hissi keçirir. Buna baxmayaraq, onları bu zülmdən xilas etməyi düşünmür. Bunu başqalarının məsuliyyəti olduğunu düşünür. İnsanların bir qismi də "tək başıma nə edə bilərəm, mənim əlimdən nə gəlir" düşüncəsi ilə hərəkət edirlər. Halbuki bu yanlış fikirdir. Axırzamanda Quran əxlaqının hakim olması üçün görülən hər iş çox vacibdir.

**Quran əxlaqının hakim olması üçün kim və necə fəaliyyət göstərə bilər?**

**Quran əxlaqının hakim olması üçün heç bir imkanının olmadığını düşünənlər nə edə bilərlər?**

Hal-hazırda dünya əhalisinə və dünyanın hər yerində yaşayan müsəlmanların vəziyyətinə baxanda Quran əxlaqının yaşanmamasından qaynaqlanan qarışıqlıq, zülm və dözülməz çətinliklərlə üz-üzə qalan insanları görürük. Fələstində, İndoneziyada, Şərqi Türküstanda, Əfqanıstanda, İraqda, Somalidə və ya dünyanın hər yerində yerdə süründürülən, uşaqlarının gözü qarşısında təpiklənən insanlar, daşlarla özlərini müdafiə etməyə çalışan kiçik uşaqlar, güllələrə hədəf olan körpələr, təcavüz və işgəncəyə məruz qalan qadınlar, evlərindən, yurdlarından çıxarılan, şikəst qalan, yaxınlarını-doğmalarını, həyatlarını itirən yüz minlərlə silahsız insan görüntüləri hər kəsə məlumdur.



İnsanlar vəhşiliyə, zülmə məruz qalır, sağ qalmaq uğrunda əsir düşərgələrində mübarizə aparırlar. Müsəlman birliklər bir-bir müstəqilliklərini itirir, onlara yardım edə bilən vicdanlı insanların köməyini gözləyirlər, amma informasiya blokadası olduğu üçün səslərini eşitdirə bilmirlər. Müsəlmanların zülm gördükləri ölkələrdən yalnız bir neçəsində yaşananlara qısa nəzər salsaq, bu mövzunun əhəmiyyəti daha yaxşı aydın olar. Belə vəziyyətdə müsəlmanlar Allahın bildirdiyi şəkildə hərəkət etməlidirlər:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Dünyada baş verən hadisələrə ümumi nəzər salsaq, onların baş

verməsinə sevgisizliyin, həmçinin nifrət, kin, düşmənlik, mənfəət, eqoizm və mərhəmətsizlik kimi hisslərin və ağılsızlığın səbəb olduğunu görərik. Bu problemləri həll etməyin və tamamilə ortadan qaldırmağın yolu isə sevgi, şəfqət, mərhəmət, həssaslıq, fədakarlıq, dostluq, xoş münasibət, sağlam düşüncə və ağıldır. Bu xüsusiyyətlər isə ancaq Quran əxlaqını tam şəkildə yaşayan insanlara aiddir. Allah ayələrində Quranın insanları zülmətdən nura çıxardığını belə bildirir:

**Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri (bu Kitabla) əmin-amanlıq yollarına yönəldir, onları Öz iznilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)**

Ayədə bildirildiyi kimi, dünyadakı ədalətsizliyin, qarışıqlığın, terrorun, qırğınların, aclığın, səfalət və zülmün yeganə həlli Quran əxlaqının dünyaya hakim olmasıdır. Bunun üçün hər bir müsəlman xidmət etməlidir.

## Hər bir insanın Quran əxlaqına xidmət etmək imkanı vardır

Hər bir gözəl əxlaqlı və vicdanlı insan yaxşılıq etmək üçün xidmət edə bilər. Məsələn, ağır yük qaldırılan zaman on beş adamdan yalnız dördü yükü qaldırsa, digərləri isə: "Biz zəif və çəlimsizik, kömək edə bilmərik", - deyib kənarda dursalar, bu doğru hərəkət olmaz. Ancaq on beş adamın on beşi də yükü qaldırsa və hər biri gücünün çatdığı qədər kömək etsə, dörd nəfərin çiynindəki ağırlıq yüngülləşər. Kimin nə qədər kömək etməsi deyil, gücündən bacardığı qədər istifadə etməsi əhəmiyyətlidir.

Rəbbimiz Quranda heç kimə gücünün çatdığından artıq yükləməyəcəyini, hər yaxşı insan üçün bir asanlıq yaradacağını bildirir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. Biz hər kəsi yalnız qüvvəsi çatdığı qədər yükləyirik. Dərgahımızda haqqı deyən bir Kitab vardır. Onlara zülm olunmaz. (Muminun surəsi, 61-62)**

## İmkanın məhdud olması xidmət etməyə manеə deyil

İnsanın imkanının məhdud olmasına görə təəssüflənməsi çox yanlışdır. İnsanın ixlas və səmimiyyətlə, əvəzini yalnız Allahdan gözləyərək xidmət etməsi daha əhəmiyyətlidir. Görülən işin böyük və ya kiçik, verilən sədəqənin az və ya çox olması vacib deyil. Əsas səmimiyyətdir, yalnız Allah üçün səy göstərməkdir.



Məsələn, bir insanın maddi imkanı olmaya bilər. Xəstə olduğu üçün yatağından qalxmaya bilər. Ya da kor, kar ola bilər, iflic olduğu üçün əlləri tutmaya bilər. Gəzə bilməz, danışa bilməz və ya yaza bilməz. Amma belə insan da bu vəziyyəti Allahdan bir nemət, xeyir olaraq görməli və sahib olduğu imkanlardan mümkün qədər istifadə etməlidir. Yatağında qaldığı müddət ərzində Allah yolunda fikri mübarizə aparan insanlar üçün dua edərək, imanda dərinləşmək üçün təfəkkür edərək, yaxınında olan insanlara Allahın ayələrini xatırladaraq, kitab oxuyaraq, yazı yazaraq İslam dininin yayılmasında fəaliyyət göstərə bilər.

Xidmət üçün vaxtının kifayət qədər olmadığını düşünmək böyük yanılmadır:

- İnsan faydasız seriallardan, maqazin proqramlarından uzaq dura bilər, bu vaxtdan istifadə edərək ətrafındakılara Quran əxlaqını izah edə bilər, İslam əxlaqını izah edən əsərlər oxuya bilər, saytları araşdıra bilər.
- Boş və lazımsız söhbətlərdən uzaqlaşaraq vaxt qazana bilər.
- Faydasız məzmunlu jurnal və qəzetlərdən uzaq dura bilər.



## Maddi imkanın olmaması xidmət etməkdən uzaqlaşmağa səbəb deyil:

- İnsan faydasız jurnal və qəzetlərin əvəzinə İslamı təbliğ edən, əhəmiyyətli məlumatlara sahib jurnalları ala bilər. Sonra bu jurnalları dostları ilə paylaşıb ətrafdakı insanlara da fayda verə bilər.
- Qəzet və jurnallardakı maraqlı xəbərləri toplayıb kitablarda istifadə edərək nəşr edə bilər.
- Kifayət qədər maddi imkanı olmayanlar yoldaşları ilə birləşib bir kitab alıb oxuya bilər. Sonra bu kitabları yoldaşları arasında oxumaq üçün paylaşa bilərlər.
- Məhəllədəki dostları ilə danışıb bir nəfərin evində kitabxana düzəldə bilər. Alınan kitabları bu kitabxanaya qoyub bir çox insanın istifadə etməsini təmin edə bilər.
- Köhnə musiqi kasetlərini yığıb, onlara iman həqiqətlərini izah edən, darvinizm və materializmin yanlışlığını izah edən məlumatları yaza bilər. Bu kasetləri dost-tanışlarına verə bilər.
- CD alıb internet saytlarından İslam əxlaqını izah edən müxtəlif kitab və məqalələr

köçürüb hədiyyə verə bilər. Bunlar istifadə edildikdən sonra başqalarına verilə bilər.

## İş yerində, məktəbdə, evdə İslama xidmət etmək üçün bir çox imkan ola bilər:

- İnsan boş və lazımsız söhbət etmək yerinə İslam əxlaqı, Quran möcüzələri, iman həqiqətləri, təkamül nəzəriyyəsinin iflasa uğraması kimi mövzulardan bəhs edə bilər. Evə dəvət edilən qonaqlara bu mövzuda hazırlanmış sənədli film göstərə bilər.
- İşə gedəndə və qayıdanda nəqliyyatda keçirilən uzun vaxtlarda İslam əxlaqını və yaradılış dəlillərini izah edən səs kasetlərinə qulaq asılmasını təmin edə bilər.
- İslam əxlaqı, Quran möcüzələri, iman həqiqətləri, təkamül nəzəriyyəsinin iflas etməsindən bəhs edən televiziya və ya radio proqramlarını broşürlərlə tanıda bilər, tanışlara seyr etmələrini tövsiyə edə bilər.
- İslam əxlaqını, Allahın yaratma sənətini, dinsizliyin zərərlərini izah edən kitabları və internet saytlarını tanıda bilər.
- Qonşuları və dostları ilə söhbətində İslam əxlaqını və ya Allahın yaratma sənətini izah edən kitablardan öyrəndiklərini izah edə bilər.
- Uşaqlara İslam əxlaqını, Allahın kainatdakı yaradış dəlillərini izah edə bilər. Bu mövzuda sənədli filmlər seyr etdirə bilər, eyni zamanda, öyrənərkən uşaqların əylənmələri də təmin edə bilər. Uşaqların bu əxlaqla yetişdirilməsi ilə onların sonradan milli və mənəvi dəyərlərə bağlı, xeyirli insan olmalarına səbəb ola bilər.
- Azyaşlı uşaqlara din əxlaqını və iman həqiqətlərini izah edib onların yatmadan əvvəl Allahı zikr etmələrini və Ona dua etmələrini öyrədə bilərlər.
- Evdə israf olmamasına diqqət yetirib, pulun boş yerə xərclənməsinin qarşısını ala bilər. Lazımsız xərclərdən çəkinər, İslam əxlaqının izah edildiyi kitab və jurnallar ala bilərlər.
- Xüsusi günlərdə hədiyyə olaraq imanın güclənməsinə səbəb olan kitablar, VCD-lər və ya səs kasetləri ala bilərlər.
- Qonaqlığa gedərkən gül dəstəsi, tort və s. almaq yerinə kitab ala bilər. Bunu dost-tanışlarına da izah edə bilər. Onların da bu cür davranmalarına səbəb ola bilərlər.

İnsanların bir-birlərinə necə zülm etdiklərini görən, hər gün ətrafında əxlaqsızlığın, mərhəmətsizliyin, imansızlığın fərqinə varan və narahat olaraq sülh, sevgi və rahat cəmiyyət istəyən bir insanın baş verən hadisələrə laqeyd qalması böyük səhv olar. Hər insan az və ya çox, gücünün çatdığı qədər Quran əxlaqının yaşanmasına səy göstərməli, yaxşılıq və gözəllik yolunda çalışmalıdır.

## İslama Allah rizası üçün əvəzi gözlənilmədən xidmət edilməlidir

Səmimi müsəlmanlar zülmün və haqsızlıqların sona çatması, insanların gözəl





əxlaqlı olması və əsl İslam dininin yaşanması üçün ciddi səy göstərərlər. Rəbbimizə təslim olar, Onun razılığını qazanmaq və yaxşı işlər görmək üçün heç nəyi maneə olaraq görməzlər. Böyük diqqət və dəqiqliklə Allahın razılığına, rəhmətinə və müsəlmanlar üçün hazırladığı cənnətinə layiq olmaq üçün səy göstərərlər. Allah onların bu səmimi səylərini belə bildirir:

**Ey insan! Sən, həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan! (İnşiqaq surəsi, 6)**

Allaha qəti olaraq inanan bir insan Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq üçün əlindən gələninin ən çoxunu etmək istəyər. Bir işi bitirib digər xeyirli işə keçər, ən sürətli və əhatəli şəkildə din əxlaqına xidmət edər, ciddi səy göstərər. Daim İslamın, müsəlmanların faydasını düşünər, bütün insanların sülh, dostluq, güvən və rahat yaşamaları üçün üzərinə düşəni etməyə çalışar. Allah rizası üçün edilən xidmətlərdəki bu şövq və istək əsl dindarlığın əlamətlərindən biridir.

Səmimi müsəlmanlar **"(İşlərini) qurtaran kimi (Allah yolunda) çalış! (Ancaq) Rəbbinə üz tut! (İnşirah surəsi, 7-8)"** ayəsinə uyğun olaraq Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq ümidi və sevinci ilə hər anlarında şövqlü, dinamik və çalışqandırlar. Hər an əcr qazanmaq üçün səy göstərər, başqasını gözləmədən, təxirə salmadan önlərinə çıxan hər imkanı qiymətləndirərlər. Etdiklərindən ötrü heç kəsə minnət qoymazlar. Əksinə, Allaha, Allahın razılığına, rəhmətinə və ölmədən əvvəl yığacaqları savablara möhtac olduqlarını bilərək, təvazökar və qənaət içində heç kimdən təşəkkür belə gözləmədən İslama xidmət edərlər.



# Fosillər Təkamülü TƏKZİB EDİR



NAUTİLUS
FOSİL №:SY0221
YAŞ:160 milyon il
DÖVR: Yura
TAPILDIĞI YER: Mərakeş

Bu canlı yaradılmış bütün canlılar kimi, milyonlarla ildir ki, heç bir dəyişikliyə məruz qalmamışdır. Allah bütün canlıları dəyişmədən mühafizə etmişdir. Bu da təkamülün olmadığının və bütün canlıları Allahın yaratdığının dəlilidir.



SEKOYA BUDAĞI
FOSİL №:SP0017
YAŞ: 50 milyon il
DÖVR: Eosen
TAPILDIĞI YER: Cache Creek meydanı, Kamloops, British Columbia, Kanada

Dünyanın ən böyük ağac növü olan sekoyalar, eyni zamanda, uzunömürlüdürlər. Təxminən 150 metr və 1000 yaşında olan sekoya ağacları var. Bu ağaclara, əsasən, Şimali Amerikada rast gəlinir. Fosil nümunələri sekoyaların milyonlarla ildir ki, dəyişmədiyini, yəni təkamül keçirmədiyini ortaya qoyur. Şəkildə görünən 50 milyon illik sekoya budağı fosilinin dövrümüzdəki nümunələrindən heç bir fərqi yoxdur.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.



TİMSAH
FOSİL №:SR0211
YAŞ: 100 milyon il
DÖVR: Təbaşir
TAPILDIĞI YER: Asiya

Yaşayan fosil nümunələrindən biri də timsahlardır. Bədən strukturları nöqsansız şəkildə birdən ortaya çıxmış və yüz milyon ildən çoxdur ki, (timsahların 140 milyon illik fosilləri var) heç bir dəyişikliyə məruz qalmamışlar. Şəkildəki 100 milyon illik timsahla dövrümüzdəki timsahlar arasında fərqin olmaması bu həqiqəti bir daha sübut edir.

# DAŞ DÖVRÜ YALANI





## Neolit dövrü iddiası yalandan ibarətdir

700.000 il əvvəlki dövrə aid gəmi, 400.000 illik mizraqlar, 35.000 illik şəkillər, 8.000 il əvvəl professional şəkildə aparılan diş müalicəsi... Arxeoloji qazıntılar təkamülçülərin "ibtidai insan" iddiasının doğru olmadığını göstərir. İndiyə qədər əldə edilmiş bütün arxeoloji qazıntılar onu göstərir ki, insan var olduğu gündən insandır və yüksək mədəniyyətə malikdir. Bu səbəbdən, təkamülçülərin iddia etdikləri "tarixin təkamülü" də yalandan ibarətdir.

Təkamülçülər birhüceyrəlidən çoxhüceyrəliyə, sonra da meymundan insana doğru uzanan təkamül prosesini izah etmək üçün tarixin inkişafını da ssenariləşdirmiş, bunun üçün primitiv insanın həyatını açıqlayan "mağara dövrü", "daş dövrü" kimi xəyali dövrlər uydurmuşlar. Bu iddialarını sübut etmək üçün müxtəlif üsullardan istifadə etməyə çalışmışlar. Arxeoloji qazıntılarda tapılan daşı, oxu və ya saxsı qabı bu istiqamətdə şərh etmişlər.

Halbuki qaranlıq bir mağarada bürünərək oturan, nitq qabiliyyəti olmayan yarı insan yarı meymun canlılar yalnız xəyalın məhsuludur. Primitiv insan və daş dövrü heç vaxt olmamışdır.

## Daşın daşla yonulması qeyri-mümkündür

Qədim sivilizasiyalardan dövrümüzə qədər gəlib çatan qalıqlarda daş üzərində işləmələr diqqət cəlb edir. Daşa bu dərəcədə detallı və düz forma verilməsi üçün mütləq polad alətlərdən istifadə edilməlidir. Daşı daşa sürtərək düz və iti alətlər əldə etmək mümkün deyil. Qranit və bazalta bənzər bərk daşların parçalanıb dağılmadan nazik kəsilməsi ancaq polad nizələrin, tornaların, lomların, rəndələrin vasitəsilə mümkündür. On min il əvvələ aid bilərziklərin, sırğa və boyunbağıların daşla düzəldilməsinin mümkün olmadığını bilirik. Daşla vuraraq bu əşyalarda kiçik dəliklər açıla bilməz. Daşı sürtərək əşyaların üzərində bəzək düzəltmək olmaz. Bunları düzəltmək üçün dəmir, polad və digər metal alətlərdən istifadə edilmişdir.

Bir çox daş qalığındakı parıltı da onların iti və düz olduğuna görədir. Təkamülçü elm adamlarının bu parlaqlığı cila kimi xarakterizə etmələri, bu dövrü neolit dövrü kimi qəbul etmələri elmdən kənar izahdır. Cilanın min illərlə qalması mümkün deyil. Bu daşlar iddia edildiyi kimi, cilalandığı üçün deyil, düz kəsildikləri üçün parıldayır. Bu, daşın öz quruluşundan qaynaqlanan parıltıdır.



Üstdəki şəkillərdə görünən sol tərəfdəki bilərzik mərmərdən, sağ tərəfdəki bilərzik isə bazaltdan düzəldilmişdir. Bilərziklər e.ə. 8500-9000-ci illərə aiddir. Təkamülçülər bu dövrdə yalnız daşdan düzəldilmiş alətlərdən istifadə edildiyini iddia edirlər. Bazalt və mərmər çox bərk daşlardır. Bu daşların bu cür düz yumru halqalar halına gətirilməsi üçün polad alətlərdən istifadə edilməlidir. Bilərziklərin polad alətlərdən istifadə edilmədən kəsilib formaya salınması mümkün deyil. Bir insana daş verib onunla bazaltdan şəkildəki kimi bir bilərzik düzəltməsini istəsək, bunu edə bilərmi? Əlbəttə, daşı daşa sürtərək, daşa daşla vuraraq bilərzik düzəldə bilməyəcək. Bu qazıntılar o dövrdə yaşayan insanların estetika və sənətkarlıq anlayışına sahib olduqlarını, mədəni cəhətdən inkişaf etdiklərini göstərir.

## Tarixin təkamülü yalanı

Təkamülçülərin tarix anlayışına görə, tarix insanın təkamülünə paralel olaraq müxtəlif dövrlərə bölünərək araşdırılır. Bir çox insanın məktəb illərində, yaxud müxtəlif qəzet və televizor xəbərlərində eşitməyə vərdiş etdiyi Poleolit dövrü, Mezolit dövrü, Neolit dövrü, Eneolit dövrü, Tunc dövrü, Dəmir dövrü kimi xəyali anlayışlar təkamülçü xronologiyanın hissələridir. Bir çox insan bu xəyali cədvəli heç düşünmədən qəbul edir və bəşəriyyətin bir zamanlar yalnız kobud, daş alətlər istifadə edilən, mədəniyyət və texnologiyanın bilinmədiyi bir dövrdə yaşadığını zənn edir. Bu iddialar təkamülçülərin insanları konkret həqiqətlərlə deyil, xəyali nağıllarla inandırmağa çalışdıqlarının ən əhəmiyyətli göstəricilərindəndir. Belə ki, arxeoloji qazıntılar və elmi məlumatlar araşdırıldığı zaman ortaya çox fərqli mənzərə çıxır. Keçmişdən dövrümüzə qədər gəlib çatan izlər insanların tarixin hər dövründə mədəniyyətləri və ictimai həyatları ilə sivil həyat tərzi keçirdiklərini göstərir. Arxeoloji qazıntılarda olan alətlər, tikiş iynələri, bəzək əşyaları, dekorasiya vəsaitləri keçmiş insanların mədəni və inkişaf etmiş həyat sürdüklərinin göstəricilərindəndir.

Bundan yüz minlərlə il əvvəl də eynilə müasir dövrdəki kimi, insanlar evlərdə yaşayır, əkinçiliklə və ticarətlə məşğul olur, tekstil məhsulları hazırlayır, yeməklərini yeyir, qohumlarını ziyarət edir, musiqi ilə maraqlanır, şəkil çəkir, xəstəlikləri müalicə edir, ibadətlərini yerinə yetirir, qısaca desək, normal gündəlik həyat tərzi keçirirdilər. Allahın göndərdiyi peyğəmbərlərə itaət edən insanlar bir olan Allaha iman gətirirdilər. Bu səbəbdən, təkamülçülərin qarşıya qoyduğu "bir olan Allaha iman ilk







cəmiyyətlərə məlum deyildi” iddiası da doğru deyil. Allahın varlığını və birliyini xatırlatmaq, din əxlaqını yaşamağa dəvət etmək üçün hər cəmiyyətə elçi göndərildiyi Quranda belə bildirilmişdir:

**“...Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan bir peyğəmbər gəlib-getməsin!” (Fatır surəsi, 24)**

Əlbəttə, tarix boyu mədəni həyat sürən insanlarla yanaşı, sadə və primitiv şəraitdə yaşayan cəmiyyətlər də mövcud olmuşdur. Ancaq bu, insanlıq tarixinin təkamülünə dəlil deyil. Çünki indiki dövrdə də dünyanın bir yerində kosmosa raket göndərildiyi halda, bir başqa yerində insanlar hələ elektrikin varlığını belə bilmirlər. Amma bu vəziyyət nə kosmik raketləri düzəldənlərin zehni və fiziki cəhətdən inkişaf etdiklərini, yəni təkamül keçirdiklərini, nə də digərlərinin hələ “meymun insan”lara yaxın olduqlarını göstərmir. Bunlar mədəni təkamül prosesinin deyil, yalnız mədəniyyət fərqinin göstəriciləridir.

Bundan 700 min il əvvəl insanlar çox yaxşı düzəldilmiş gəmilərlə okeanda səyahət edirdilər. Bizə “ibtidai mağara adamları” kimi tanıdılan insanlar, əslində, dövrümüzün rəssamlarında olmayan qabiliyyətə və estetik zövqə sahibdilər. 80 min il əvvəl yaşamış və bizə təkamülçülər tərəfindən “meymun insan” kimi göstərilən neandertal irqi musiqi alətləri düzəldirdi, geyim zövqünə sahib idi və isti qumlarda formalı ayaqqabılarda gəzirdi.

## İman gətirənlər tarix boyu mədəni həyat sürmüşdür

Tarix boyu yaşamış peyğəmbərlərlə birlikdə iman gətirənlər çox mədəni və müasir həyat sürmüşlər. Hz. Nuh dövründə də, hz.



İbrahim dövründə də, hz. Yusif dövründə də, hz. Musa dövründə də, hz. Süleyman dövründə də indiki kimi, ictimai nizam içində müasir həyat yaşanmışdır. Hər dövrdə möminlər namazlarını qılmış, oruclarını tutmuş, Allahın bildirdiyi sərhədləri qorumuş, halal və təmiz həyat sürmüşlər. Arxeoloji qazıntılarda əldə edilən məlumatların göstərdiyi inkişaf etmiş həyat standartlarının ən gözəlinə, ən təmizinə Allaha iman gətirən saleh möminlər sahib olmuşlar. Yaşadıqları dövrün təmin etdiyi hər cür imkanın ən yaxşısını peyğəmbərlər və səmimi möminlər Allah rizasına uyğun olaraq istifadə etmişlər. Bu, **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)"** ayəsinin təcəllisidir. Əlbəttə, imtahan mühitinin tələbi olaraq Peyğəmbərimizin (s.ə.v.) dövründə olduğu kimi, insanlar bəzən çətinliklərlə də sınanmışlar. Ancaq bu çətinliklər onların mədəni həyat yaşamadıqlarını göstərmir. Allahı inkar edən, inkarlarında israr edən, gözəl əxlaq göstərməyən və yer üzündə təxribatçılıq edənlərin sonu isə nə qədər varlı və mədəni olsalar da, hüsran olmuşdur. Üstəlik, bunların bir çoxu bəlkə də dövrümüzdəki cəmiyyətlərdən inkişaf etmiş imkanlara sahib olan cəmiyyətlərdir. Bu həqiqət Quranda belə xəbər verilmişdir:

**Məgər onlar yer üzündə gəzib dolaşaraq özlərindən öncəkilərin aqibətini görmədilərmi? Onlar bunlardan da güclü idilər. Onlar torpağı şumlayır, yer üzünü bunlardan daha çox abadlaşdırırdılar. Elçiləri onlara açıq-aydın möcüzələr gətirirdilər. Onlara Allah zülm etmirdi. Onlar özləri özlərinə zülm etmişdilər. (Rum surəsi, 9)**

## Elm adamlarının dediklərindən: Darvinizmin əsassızlığı

"Darvinist tezisin doğru olmadığı arxeoloji fosillərlə sübut edilmişdir. Əgər darvinizm doğru olsaydı, bu zaman həm arxeoloji qazıntılarda, həm də fosillərdə iki ayaqlılığın, texnologiyanın və inkişaf edən beyin ölçülərinin dəlillərini görməli idik. Amma bunu görmürük. Tarixi tapıntıların bir cəhəti belə bu tezisin yanlış olduğunu göstərmək üçün kifayətdir: daş alətlər".

(Richard Leakey, The Origin of Humankind, Basic Books, New York, 1994, s. 12)



# PEYĞƏMBƏRİMİZİN (S.Ə.V) BÜTÜN ALƏMLƏRƏ NÜMUNƏ OLAN TƏVƏKKÜLÜ

Quranda Peyğəmbərimizlə (s.ə.v) bağlı hadisələrdə onun təvəkkülü və Allaha təslimiyyəti açıq-aşkar görünür. Peyğəmbərimizin (s.ə.v) Məkkədən çıxdıqdan sonra dostu ilə birlikdə gizləndiyi mağaradakı sözləri təvəkkülünü göstərən ən gözəl nümunələrdən biridir. Ayədə belə bildirilir:

**Əgər siz ona kömək etməsəniz, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən biri olaraq (Məkkədən) çıxartdılar. O iki nəfər mağarada olarkən biri öz yoldaşına dedi: "Qəm yemə, Allah bizimlədir!" (Bundan sonra) Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın sözü ucadır. Allah qüdrətlidir, müdrikdir. (Tövbə surəsi, 40)**

Peyğəmbərimiz (s.ə.v) hər şəraitdə Allaha təslim olmuş, Onun yaratdığı hər şeydə xeyir və gözəllik olduğunu bilmişdir. Quranda Peyğəmbərimizə (s.ə.v) qövmünə söyləmək üçün bildirilən bu sözlər də təvəkkülünün göstəricisidir:

**Sənə bir uğur nəsib olsa, (bu) onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!"– deyər və sevinə-sevinə çıxıb gedərlər. De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 50-51)**

Peyğəmbərimiz (s.ə.v) təvəkkülü ilə bütün müsəlmanlara nümunə olmuş və insanın Allahdan gələn şeyi dəyişdirməyə gücü çatmadığını belə xatırlatmışdır:

"Bir nəfs üçün müəyyən edilmiş şey mütləq olar".[1]

"... Bir şey istədikcə Allahdan istə. Yardım tələb edəcəksənsə, Allahdan yardım dilə. Çünki qullar Allahın yazmadığı xüsus üçün sənə kömək etmək məqsədilə birləşsələr, bunu etməyə qadir olmazlar. Sənə Allahın yazmadığı zərəri vermək üçün birləşsələr, buna da qadir olmazlar".[2]

Peyğəmbərimizin (s.ə.v) sünnəsinə tabe olan hər mömin də müsibət kimi görünən hadisələri onun kimi təvəkküllə qarşılamalı, hər şeydə xeyir və gözəllik olduğuna iman gətirməlidir. Bunu da unutmaq olmaz ki, Allahın ən təqvalı qullarından biri olan peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) çox böyük çətinliklərlə

və müsibətlərlə imtahan olunmuşdur.

Təbliğ etdiyi qövmdə hər cür çətinlik törətməyə hazır olan insanlar var idi. İkiüzlülük edərək Peyğəmbərimizə (s.ə.v) tələ qurmağa çalışanlar, atalarının dinini dəyişdirməyi qəbul etməyən müşriklər, Peyğəmbərdən nəfslərinə uyğun ayə gətirməsini istəyənlər, Peyğəmbərimizi (s.ə.v) öldürmək, sürgün etmək və ya həbs etmək istəyənlər və başqaları daima Peyğəmbərimizə (s.ə.v) mane olmağa çalışırdılar.

Peyğəmbərimiz (s.ə.v) inkarçıların bu davranışlarına daima səbir etmiş, qətiyyətlə Allahın dinini təbliğ etmiş və müsəlmanları təhlükələrdən qoruyaraq onları Quranla tərbiyələndirmişdir. Onun bu əzminin, uğurunun və cəsarətinin kökündə Allaha olan güclü imanı, təvəkkülü və təslimiyyəti durur. Peyğəmbərimiz (s.ə.v) mağarada olduğu kimi, hər vəziyyətdə Allahın onunla birlikdə olduğunu bilmiş, hər hadisəni Allahın yaratdığına və Rəbbimizin hər şeyi ən gözəl və ən xeyirli şəkildə nəticələndirəcəyinə iman gətirmişdir. Peyğəmbərimizin (s.ə.v) bu hədisi onun hər şeydə xeyir görən təvəkkülünə nümunədir:

Möminin vəziyyəti nə qədər təəccüblüdür. Çünki hər işi onun üçün bir xeyirdir. Bu, ancaq möminə xasdır, başqasına deyil. Ona razı qaldığı şey gəlsə, şükür edər, bu isə xeyirdir. Bir zərər gəldikdə səbir edər, bu da xeyirdir.[3]

Peyğəmbərimiz (s.ə.v) bu inancı ilə hadisələr qarşısında əlindən gələn qədər cəhd etmiş, ancaq nəticənin Allaha aid olduğunu bilərək Ona sığınıb güvənmişdir. Allah onu bu gözəl təvəkkülünə görə daima güclü və müvəffəq etmişdir.

Allah çətinlik törədənlərə qarşı Peyğəmbərimizə (s.ə.v) təvəkkül etməyi bildirmiş və Peyğəmbərimiz (s.ə.v) də həyatı boyu Rəbbimizin bu əmrini yerinə yetirmişdir. Ayədə belə buyurulur:

**Onlar: "İtaət edirik!"– deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə etdiklərini yazır. Onlardan üz döndər və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 81)**

Mövzu ilə bağlı başqa bir ayədə belə buyurulur:

**Əgər onlar səninlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Allah qullarını görür. (Ali-İmran surəsi, 20)**

Peyğəmbərimiz (s.ə.v) bir sözündə təvəkkül edənlərin mükafatını belə bir nümunə ilə açıqlamışdır:

"Siz Allaha haqqı ilə təvəkkül etsəniz, quşlar kimi ruziləndirilərsiniz. Onlar ac gedir, tox qayıdırlar".[4]

Möminlər üçün ən gözəl nümunə Peyğəmbərimizin (s.ə.v) sözləri və davranışlarıdır. Ona görə, hər hansı çətinliklə, nəfsinin xoşlamadığı vəziyyətlə qarşılaşan hər mömin Quran ayələrini, hər şeyi yaradanın Allah olduğunu düşünərək, Peyğəmbərimizin (s.ə.v) təvəkkülünü nümunə götürməli, hər hadisədə Allahın yaratdığı qədərə təslim olduğunu xatırlamalıdır.

1- Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, 1992, səh. 499 2- Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, 1992, səh. 314 3- Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 2-ci cild, Akçağ Yayınları, Ankara, 1992, səh. 208 4- G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, 2-ci cild, Gonca Yayınevi, İstanbul, 1997, 357/1





# İNSAN BEYNİNİN SİRLƏRİ: Beyinin müdafiə funksiyaları

Beyin bütün bədənimizi idarə edən orqan olduğu üçün bu orqanda meydana gələn ən kiçik zədə belə qarşısıalınmaz nəticələrə gətirib çıxarır. Beyində 1 mm-lik hissə zədə aldıqda bir çox hüceyrə və hüceyrə rabitəsi məhv edildiyinə görə, hərəkət, hiss və hafizə kimi əsas proseslərdə ciddi problemlər yaranır.

Ancaq zədələnmələrin qarşısını alan tədbirlər də bizim üçün əvvəlcədən hazırlanmışdır. Lazımi bərkliyə malik kəllə sümüyü beyini qoruyur. Beyindən başqa heç bir orqan kəllə sümüyü kimi bir quruluşla xüsusi mühafizə olunmamışdır. Mümkün zərbələrə qarşı görülən bu tədbir sayəsində beyin həyati funksiyalarını mükəmməl yerinə yetirir. Sümük hüceyrələrinin beyinin varlığından, orqanizm üçün əhəmiyyətindən xəbərdar olması və bu şüurla beyinə təzyiq göstərmədən, sıxmadan əhatə edərək birləşməsinin bir açıqlaması var: şüurlu yaradılış. Ön mühakiməsiz düşünən hər ağıllı insan bu cür dizaynın kortəbii təsadüflərin nəticəsi olmayacağını bilər.

Beyinin müdafiəsinə misal olaraq beyinin qan ehtiyacını təmin edən sistemi də göstərə bilərik. Beyin orqanizmdəki bütün prosesləri idarə edir. Ona görə də sabit qan ehtiyacı olan orqandır. Beyinin ehtiyacı olan qan mütləq təmin edilməlidir. Beyinin bu həyati ehtiyacı qeyri-adi nəzarətlə təmin edilir. Bir qanama baş verdikdə, digər bütün orqanlara qanın göndərilməsi dayandırılsa belə, bir çox sinir beyinə qanın ötürülməsi üçün hərəkətə keçir və damarların diametri buna uyğun tənzimlənir. Bəzi orqanlara gedən qan müvəqqəti dayandırılır və qanın axını beyinə gedən damarlara istiqamətləndirilir.

Bu möcüzəvi faktlar qarşısında təkamülçülər beyinin mərhələli inkişafı iddiası ilə bağlı heç bir əsaslı açıqlama verə bilmirlər. Bu çarəsizlik içində uydurma izahlarını daha da artıraraq “ehtiyac olduğundan” beyinin qorunmalı olduğunu və təsadüflərin bu ehtiyaca dərhal cavab verdiklərini iddia edirlər. Əlbəttə, kortəbii şüursuz təsadüflərin belə bir ehtiyacı müəyyən etməsi, məhz vaxtında kəllə sümüyü kimi xüsusi müdafiə sistemini meydana gətirməsi qeyri-mümkündür. Bundan əlavə, kəllə sümüyünün təsadüfən, müdafiə məqsədilə əmələ gəldiyini iddia edən təkamülçülər, əvvəlcə, kəllə sümüyü əmələ gələnə qədər beyinin necə qorunduğunu və varlığını davam etdirdiyini açıqlamalıdırlar. Çünki



kəllə sümüyü olmadan beyinin varlığını davam etdirməsi və ya funksiyalarını yerinə yetirməsi qeyri-mümkündür.

Bunun tam əksini, yəni təkamül ssenarisinə görə, əvvəlcə, kəllə sümüyünün əmələ gələrək daha sonra içində təsadüfən beyinin əmələ gəldiyini fərz edək. Bu zaman da təkamülçülər məqsədsiz kəllə sümüyünün varlığını açıqlamalıdırlar. Çünki məlum olduğu kimi, təkamülçü iddiaya əsasən, hər şey ehtiyaclara əsasən müəyyən edilir və təsadüflər yolu ilə bu ehtiyaclar təmin edilir. Məqsədsiz bir orqanın və ya mexanizmin isə mövcud olması və varlığını davam etdirməsi mümkün deyil. Bu halda, təsadüflər gələcəyi görərək beyinin həssas quruluşunu nəzərə almalı və buna uyğun müdafiə sistemini eyni anda əmələ gətirməlidirlər. Əlbəttə, ağıllı və dərrakəli insan bu iddiaların reallaşdığına inanmaz.

Burada mühüm bir cəhəti vurğulamaq lazımdır. Nə qədər qeyri-mümkün olsa da, təkamülçülərin xəyali ssenarilərinə əsasən, beyin mərhələ-mərhələ əmələ gəlmişdir. Onda kəllə sümüyü də bu mərhələlərə uyğun olaraq əmələ gəlməlidir. Halbuki yer üzündə mövcud olan bütün kəllə sümüyü fosilləri ən təkmil şəkildə mövcuddur. Heç bir zaman natamam və ya yarımçıq kəllə sümüyü fosilinə rast gəlinməmişdir.

Təkamülçü fərziyyələri canlandırmaq üçün təsadüflərin "düşündüklərini", "hazırlıq gördüklərini", "gələcəyə aid planlar qurduqlarını" və bəzi üstün xüsusiyyətlərə malik güc olduqlarını fərz etmək lazımdır. Təkamülçülərin "təsadüfləri" təsadüfən meydana gəlsələr də, sanki şüurludurlar və hər işi planlı şəkildə edirlər. Bu təsadüflər hər şeyi düşünür, insanların belə hesablamadığı detalları hesablayır, uzaqgörən davranırlar. Bundan əlavə, təkamülçülərin xəyalındakı təsadüflər, adətən, səhvə yol vermirlər. Dünyanın ən qabaqcıl elm adamları və texnikləri birləşərək XXI əsrin texnologiyasına malik olduqları halda, beyinin iş sisteminə yaxın alət icad edə bilmirlər, təkamülçülərin təsadüfləri isə milyardlarla hüceyrənin arasından trilyondan çox xəbərləşmə şəbəkəsini qura biliblər. Əlbəttə, bu iddialara inanmaq mümkün deyil.

Təkamül nəzəriyyəsinin əsassızlığı dəfələrlə sübut olunsa da, hələ də təsadüflərin şüurlu hərəkət etdiklərinə dair uzun ssenarilərin uydurulması bu cəfəngiyatı danışanları gülünc vəziyyətə salır. Beyindəki dizaynın təsadüfən əmələ gəlməsi, əlbəttə, mümkün deyil. Bütün bu həssas tarazlıqları qüsursuz nizam içində yaradan hər şeyin Yaradanı olan Allahdır. Quran ayələrində bu həqiqət insanlara belə xatırladılır:

**Ey insan! Səni kərim olan Rəbbinə qarşı qoyan nədir? O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi. Səni istədiyi şəklə saldı. (İnfitar surəsi, 6-8)**

# İSLAM DİNİNDƏ
# MƏCBURİYYƏT YOXDUR,
## HƏR BİR İNSAN İBADƏTİNDƏ VƏ İNANCINDA AZADDIR

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

İslam dini gözəllik və sevgi dinidir. İslam dinini yaşayan insanlar bu gözəl dini və onun dərinliyini yaşadıqca daha da həyəcanlı və şövqlü olurlar. İslama olan bağlılığın qaynağı Allaha olan eşqdir. Bir müsəlman Allah eşqindən namaz qılar, Allah eşqindən ibadətlərini yerinə yetirər və Qurana görə yaşayar. Allah Quranda müsəlmanların bu xüsusiyyətini "qəlbən iman gətirmiş", "qəlbən inananlar" ifadələri ilə xəbər vermişdir.

Bir müsəlman Allahın ucalığını və İslamı ağlı ilə dərk edər və qəlbən də təsdiq edər. Quranda bildirildiyi kimi, heç kim başqa bir insana bunu zorla və təzyiq göstərərək qəbul etdirə bilməz. Əgər bir insan təzyiq yolu ilə ibadətə məcbur edilirsə, bu, onu müsəlman deyil, əksinə, bir münafiq halına gətirir. Bu şəkildə, İslamın tamamilə qarşı olduğu bir insan modeli ortaya çıxır. Münafiq təzyiq altında olarkən müsəlman olduğunu söyləyər, lakin daxilən Quran əxlaqından uzaq olan, İslama və müsəlmanlara qarşı düşmən olan saxtakardır. Allah ayələrində münafiqlik edənləri belə tərif etmişdir:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və axirət gününə inanırıq", –deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və (bunu) anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də üzücü bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 8-10)**

**Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik!"– deyirlər. (Bəqərə surəsi, 14)**

**Bu, ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar. (Münafiqun surəsi, 3)**



**Şübhəsiz ki, yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir.... (Nur surəsi, 11)**

**Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də üzücü bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 10)**

İslamın təbliğ edilməsi və İslamın hökmlərinin təqdim etdiyi gözəl əxlaqın tanıdılması hər müsəlmanın üzərinə düşən vəzifədir. Lakin bu, Quranın hökmünə görə, əsla təzyiq yolu ilə reallaşa bilməz. Quran xristianlara da, yəhudilərə də təbliğ edilər, lakin bu insanlar əgər öz dinlərini yaşamaq istəsələr, artıq onları məcbur etmək olmaz.

Məhz bu səbəbdən, Allah: "Dində məcburiyyət yoxdur", -deyərək imanın sevgi ilə və qəlbən olduğunu xəbər vermişdir. Təzyiq altında müsəlmanlıq İslam dinində qadağan edilmişdir.

Yaşadığımız dövrdə - axırzamanda Allahın izni ilə hz. İsanın (ə.s.) və hz. Mehdinin (ə.s) zühuru çox yaxındır. Hz. Mehdi (ə.s.) dövründə insanlar dini qavrayacaq və dəstə-dəstə Allah inancına yönələcəklər. Hz. Mehdi (ə.s.) müsəlmanlara Quranla, xristianlara İncilin əsli, yəhudilərə də Tövratın əsli ilə hökm edəcək. Hz. Mehdi (ə.s.) əsla qan tökməyəcək, Quranda əmr edildiyi kimi, gözəl öyüd və sevgi ilə insanları Allah inancına və dinə dəvət edəcək.

***Qab su ilə dolduğu kimi, yer üzü sülhlə dolacaq. Heç kimin arasında düşmənçilik qalmayacaq. Bütün düşmənçiliklər, həsədlər, şübhəsiz, itib gedəcək.*** (Səhihi-Müslim, 1/136)

***... Cənabi-Haqq İslamı necə bizimlə başlamışdırsa, Onunla (hz. Mehdi (ə.s.) ilə) sona çatdıracaq. Necə bizimlə onlar arasındakı şirk və ədavətdən (hüsumət və düşmənçilikdən) xilas olmuş və ürəklərinə ülfət (dostluq) və məhəbbət (sevgi) yerləşmişsə, (hz. Mehdinin (ə.s.) gəlişi ilə) yenə elə olacaq.*** (Ahir Zaman Mehdisi'nin Alametleri, Celalettin Suyuti, s. 20)

***"... Onun (hz. Mehdi (ə.s.)) dövründə yaxşı insanların yaxşılığı artar, pislərə belə yaxşılıq edilər".*** (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 17)





# ZÜLALLAR TƏSADÜFƏN ƏMƏLƏ GƏLƏ BİLMƏZ

## ZÜLALIN ƏMƏLƏ GƏLMƏSİ ÜÇÜN HÜCEYRƏ BÜTÖV ŞƏKİLDƏ OLMALIDIR.

Darvinistlər düsturlarla dolu kitablar yazsalar da, saxta fosillər təqdim etsələr də, yaradılışa dair elmi dəlillərə demaqoqluqla qarşı çıxsalar da, hər tərəfə xəyali şəkillərlə dolu karton afişalar yapışdırıb təkamül sərgisi kimi təqdim etsələr də, bu, onların məğlubiyyətini dəyişdirməyəcək. Çünki darvinistlərin ən böyük kabusu elə həyatın mənşəyidir. Darvinistlər hələ də bir zülalın necə əmələ gəldiyinə dair HEÇ BİR AÇIQLAMA VERMƏYİBLƏR. Bu, ən məşhur təkamülçülərin Riçard Dokinzin, Duqlas Futuymanın, Tim Uaytın və digər bütün darvinistlərin düşdüyü çətin vəziyyəti göstərir. Demaqoqluq bircə zülal qarşısındakı məğlubiyyətlərini aradan qaldırmır. BİRCƏ ZÜLAL DARVİNİZMİ TAMAMİLƏ DARMADAĞIN ETMİŞDİR. Darvinist demaqoqluğun mühüm xüsusiyyəti bütün kompleksliyinə baxmayaraq, həyatdakı hər şeyi ibtidai göstərmək olduğuna görə, darvinistlər həyatın mənşəyi məsələsini də sadələşdirməyə çalışırlar.

"Palçıqlı suda hüceyrə əmələ gəlib", "DNT öz-özünə əmələ gələrək çoxalmağa başlayıb" kimi hekayələrin kökündə duran səbəb də budur. Darvinistlər bu yolla insanları daha asan aldadacaqlarını düşünürlər. Lakin özləri də yaxşı görürlər ki, məsələ artıq bu yalan mərhələsini çoxdan keçib. İnsanlar artıq nəinki bir zülalın öz-özünə əmələ gəlməyəcək qədər üstün kompleksliyə malik olduğunu, eyni zamanda zülalın, DNT-nin, RNT-nin və ya hüceyrənin hər hansı bir hissəsinin BÜTÖV HÜCEYRƏ OLMADAN HEÇ BİR İŞƏ YARAMADIĞINI bilirlər.

Bu faktlar darvinizmin məğlubiyyəti baxımından çox mühümdür:

- *Bir zülalın əmələ gəlməsi üçün DNT lazımdır.*
- *Zülal olmasa, DNT əmələ gəlməz.*
- *DNT olmasa, zülal əmələ gəlməz.*
- *Zülal olmasa, zülal əmələ gəlməz.*
- *Bir zülalın əmələ gəlməsi üçün 60 zülal lazımdır.*
- *Bu zülalların bir dənəsi əksik olsa, zülal əmələ gəlməz.*
- *Ribosom olmasa, zülal əmələ gəlməz.*
- *RNT olmasa, zülal əmələ gəlməz.*
- *ATF olmasa, zülal əmələ gəlməz.*
- *ATF-ni hazırlayan*

# HƏYAT TƏSADÜFƏN YARANA BİLMƏZ

*mitoxondri olmasa, zülal əmələ gəlməz.*

- *Hüceyrənin nüvəsi olmasa, zülal əmələ gəlməz.*
- *Sitoplazma olmasa, zülal əmələ gəlməz.*
- *Hüceyrənin orqanoidlərindən biri əksik olsa, zülal əmələ gəlməz.*
- *Hüceyrənin bütün orqanoidlərinin olması və işləməsi üçün də zülallar lazımdır.*
- *Bu orqanoidlər olmasa, əsla zülal əmələ gəlməz.*
- *Bu sistem ancaq birlikdə fəaliyyət göstərə bilər. Biri olmasa, digəri olmaz. Bir hissəsi olsa da, sistemin digər hissələri olmasa, bu hissə heç bir işə yaramaz.*

Qısaca desək,**BİR ZÜLALIN ƏMƏLƏ GƏLMƏSİ ÜÇÜN HÜCEYRƏ BÜTÖV MÖVCUD OLMALIDIR**. Hüceyrə çox az hissəsini öyrəndiyimiz mükəmməl kompleks quruluşu ilə mövcud olmasa, BİR ZÜLAL DA ƏMƏLƏ GƏLƏ BİLMƏZ.

Bu zülal öz-özünə əmələ gəlsə də (bu qeyri-mümkündür), heç bir işə yaramaz. Tək başına ətrafda gəzişər və ölər.

Ona görə, Riçard Dokinzin "öz-özünü çoxaldan molekul" iddiası cəfəngiyatdır və ancaq insanları aldatmaq məqsədi daşıyır. İNSAN HÜCEYRƏSİNDƏKİ HEÇ BİR MOLEKUL YARDIMA EHTİYAC OLMADAN, TƏKBAŞINA ÖZ-ÖZÜNÜ ÇOXALTMA QABİLİYYƏTİNƏ MALİK DEYİL.

Kembric Universitetindən elm fəlsəfəsi professoru Stefen C. Meyer "Hüceyrədəki işarə" (Signature in the Cell) adlı kitabında bunu belə izah etmişdir:

1950-60-cı illərdə DNT-nin quruluşu və funksiyası kəşf edildikdən sonra həyata dair yeni radikal anlayış inkişaf etdi. DNT-nin məlumat daşıdığını kəşf edən molekulyar bioloqlar həm də canlı orqanizmlərin genetik məlumatı oxumaq üçün müəyyən sistemlərə malik ola biləcəyindən şübhələndilər. Diskin içindəki rəqəmsal məlumatın o diski oxuyan cihaz olmadan işə yaramadığı kimi, DNT-nin içindəki məlumat da hüceyrənin məlumat oxuma sistemi olmasa, işə yaramaz. (Darvinist) Riçard Levontinin bildirdiyi kimi: "Heç bir canlı molekul (yəni biomolekul) öz-özünə çoxala bilməz... Hüceyrələr ancaq tam halda öz-özünə çoxalmaq istədikləri üçün lazımi cihazlara malik ola bilərlər... Təkcə DNT nə öz-özünü çoxalda bilər, nə də bir şey ortaya çıxarar. Hüceyrənin içindəki zülallar başqa zülallardan təşkil olunmuşdur və bu zülalı təşkil edən cihaz olmadan heç bir şey hazırlana bilməz". (Stephen C. Meyer, Signiture in the Cell, Harper One, 2009, səh. 132-133)

Bu izahlara əsasən, son dövrlərdə kosmos dininə sitayiş edən Riçard Dokinzin açıqlamalarının da əsassızlığı bir daha ortaya çıxır. Yer canlı hüceyrəsinin yaşaması üçün kosmosdakı ən uyğun mühitdir. Ancaq bu uyğun şərtlər belə canlı hüceyrənin öz-özünə əmələ gəlməsinə imkan vermir. Riçard Dokinz yeni həll yolu axtarmış və bu öz-özünə çoxalan molekulun kosmosda əmələ gəldiyini və daha sonra yer üzünə gəldiyini iddia etmişdir. Əvvəla, belə bir canlı molekulu öz-özünə əmələ gələ bilməz. İkincisi, yuxarıda bildirdiyimiz kimi, canlı molekulun dünyada belə öz-özünə çoxalma qabiliyyəti yoxdur. Belə ki, bütün bunları anlayan Riçard Dokinz də nəhayət belə bir molekulun üstün ağıl tərəfindən yaradıldığını qəbul etməli olmuşdur. (Ben Stein, Expelled "No Intelligent Allowed", 2008, movie)



# Şəxsiyyətinizin gizli tərəfi: SƏMİMİLİK



**"Allah tərəfindən qarşısıalınmaz gün gəlməmişdən əvvəl Rəbbinizin çağırışına cavab verin! O gün sizin üçün heç bir sığınacaq olmayacaq və siz inkar edə bilməyəcəksiniz." (Şura surəsi, 47)**

Səmimilik insanın qəlbində hiss etdiklərini qarşısındakı insana olduğu kimi ifadə etməsi, çox dürüst, ürəyiaçıq olmasıdır. İnsanın əsl düşüncələrini və şəxsiyyətini gizlətmədən, özünü olduğundan fərqli göstərmədən tanıtmasıdır. Əgər insan qəlbən səmimi deyilsə, onu zahirən təqlid edə bilməz. Səmimi insanın bütün davranışları təbiidir və bu təbiilik insanlarda çox müsbət təsir yaradır. Səmimi insanın baxışları, danışığı, üslubu, üz ifadələri çox təbii və təsirli olur.

## Səmimiliyin gücü

Bir çox insan səmimiliyin gücündən və təsirindən bixəbərdir. Ona görə də ancaq səmimilik sayəsində qazanılan xüsusiyyətləri başqa davranışlarda axtarırlar. Bəziləri qarşılarındakı insana təsir etmək üçün süni davranırlar. Qarşılarındakı insanın ən çox hansı davranışlardan, düşüncələrdən təsirlənəcəyini düşünürlərsə, içlərindən gəlməsə də, o cür düşünmədikləri halda, qarşı tərəfi razı salmaq üçün elə görünməyə çalışırlar. Halbuki bu qeyri-səmimi yanaşma onları ikiüzlü davranmağa təşviq edir. Digər tərəfdən, bu qeyri-səmimi, süni davranışlar insanın həqiqi xarakterini əks etdirmədiyi üçün qarşı tərəfdə də gözlənilən təsir yaratmır.

Hətta əksinə, soyuqluq, uzaqlıq meydana gətirir. Bu insanın əsl şəxsiyyətini gizlətdiyini və hər davranışının süni olduğunu bilmək qarşısındakı insanda narahatlıq və etibarsızlıq hissi əmələ gətirir.

Süni davranış Quran əxlaqından kənar həyat tərzində ortaya çıxır. Bu da insanları Allahın rizasını deyil, insanların razılığını güdən və nəticədə ziyana məruz qoyan həyata sürükləyir. Rəbbimiz Allah Ona şirk qoşmağı bağışlamayacağını Quranda belə bildirmişdir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar.**

**Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

Allah Quranda özlərini insanların razılığını qazanmaq üçün fəda edən şəxslərin vəziyyətini bu cür misalla açıqlamışdır:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bilmir. (Zumər surəsi, 29)**

## Səmimilik Allah qorxusu ilə qazanılar

Allahın Quranda bildirdiyi həqiqətlərdən uzaq yaşayan cahil insanlar qeyri-səmimiliyin Allah dərgahındakı və insanlar üzərindəki qarşılığını düşünmədikləri üçün süni davranmaqda eyib görmürlər. Sünilik Quran əxlaqına uyğun yaşamayan insan xarakterində tez-tez rast gəlinən xüsusiyyətdir. Bu cür insanlar arxasınca danışdıqları, əslində heç xoşlamadıqları, hörmət etmədikləri insanlara ortaq mənfəətləri olduğuna görə saxta sevgi və qayğı göstərirlər. Çəkinmədən bir-birlərinə yalan söyləyir, aldadır, bir insan haqqındakı mənfi fikirlərini gizlədib soruşduqda bunun tam əksinə olan məlumat verirlər.

Halbuki Quran əxlaqına uyğun yaşayan insan bu cür davranışlardan çox çəkinər, çünki qəlbində Allah qorxusu var. Əsla kiçik mənfəət uğrunda insanların razılığını qazanmağa çalışmaz. Bütün bunların insanı həm Allah qatında, həm də insanların gözündə alçaldan səviyyəsiz hərəkətlər olduğunu bilər və bu cür alçalmaz. Həyatının hər anını Allahın razılığını qazanmaq üçün keçirər. Ancaq səmimi şəkildə Allahın bəyəndiyi əxlaqa uyğun yaşayacağını bilər. **"... Şübhəsiz ki, O, ürəklərdə olanları biləndir." (Şura surəsi, 24)** ayəsindəki kimi, Allahın insanların qəlbində gizlətdiklərini bildiyini dərk edir. Allah bu həqiqəti başqa bir ayədə **"Sən ucadan danışsan da (danışmasan da, fərqi yoxdur). Çünki (Allah) sirri də, (bundan) daha gizli olanı da bilir." (Taha surəsi, 7)** şəklində bildirmişdir. Buna görə insanın qəlbində olanı ətrafdakılardan gizlətməsinin ona heç bir faydası yoxdur. Allah onsuz da bunu bilir. Buna baxmayaraq insanın digərlərini aldatmağa çalışması qeyri-səmimi və ağılsız hərəkətdir.

Bununla yanaşı, Quran əxlaqına uyğun yaşayan insan başqalarının razılığını qazanmağın ona nə dünyada, nə də axirətdə bir fayda verməyəcəyini bilir. Buna görə iman sahibləri şirkdən və insanların razılığını qazanmaqdan çəkinirlər. Bu isə onların ömür boyu səmimilikdə qətiyyətli olmalarına kömək edir. Çünki şirkdən tamamilə xilas olmuş həqiqi tövhid inancında səmimilik şərtdir.

19 fevral 2011-ci il

ADNAN OKTAR: *Səmimilik bulud kimi insanların üstündən süzülüb gedir. Ona görə də səmimiliyi daima qorumaq lazımdır. Lazım gələrsə, hər 10-15 dəqiqədə insan özünə nəzarət etməlidir. Çünki səmimilik çox tez unudulur. İnsan dərhal kənardakılara tabe ola, süniliyə yönələ, qeyri-təbii üslubu mənimsəyə bilər. Lakin əgər özünə nəzarət etsə, "məni danışdıran Allahdır", "mən qədərdə Allaha təslim olmuşam, Allahın Ruhuyam", "Allah məni Ruhundan yaradıb, mən heç nəyəm", "Allahın aciz quluyam, mənim qədərimi Allah yaradır, məni Allah danışdırır, çünki mənim danışmaq üçün gücüm yoxdur, səsi mən yarada bilmərəm, eşitdirə bilmərəm, bütün güc-qüvvət Allaha məxsusdur. Mən Allahın verdiyi güclə Onun söylədiklərini, mənə ilham etdiklərini deyirəm" deyər inşaAllah. Ona görə gözəl, doğru danışar, insanlara qəlbən təsir edər. Qəlblərə təsir edən Allahdır. İnsana bir şey izah edə bilərsən, lakin təsir etməz, donuq ifadə ilə baxar. Çünki qəlblərdə*



təsir yaradan Allahdır. Səmimilik duadır, daima səmimi olmaq ibadətdir. Səmimilik mühüm ibadətdir. Məsələn, insan namaz qılır. Namaz nə qədər davam edir? Tutaq ki, 10-15 dəqiqə davam edir, ancaq səmimilik səhərdən axşama qədər davam edən ibadətdir, ona görə daima nəzarətdə saxlanılmalıdır. Allah ayədə "ancaq səmimi qullarım nicat tapar" buyurur. Buna görə də səmimilik əsas məsələdir. İbadət kimi əsasdır. İnsan səmimiliyi tez-tez unutduğuna görə daima bu ibadəti yerinə yetirməlidir. Bu, bir növ zikrdir, çünki Allahı zikr edərək səmimi qalmaq mümkündür, inşaAllah. Səmimilik ilə Allahı zikr etmək bir-birilə sıx əlaqədardır. Səmimi insan Allahı xatırlamadan səmimi ola bilmir, Allahı xatırlayaraq səmimi olur. Ona görə də səmimilik zikrdir, yəni daima Allahı zikr etməkdir. Səmimilk qəbul edilən ibadətdir, çünki Allahın ayədə bildirdiyi kimi, şeytandan Allaha sığınıram: "ancaq Allahın səmimi qulları nicat tapar". Allah hər şeyi ancaq səmimiliyin içində ehtiva etmişdir. Çünki səmimi insan halal-haramlara, gözəl əxlaqlı olmağa, Allahın əmrlərinə diqqət edir. Səmimi insan təvazökardır, səmimi olmadığı təqdirdə qarşılığını bildiyi üçün şirkdən çəkinir, süni davranmır, dürüst olur, həqiqətləri gizlətmir, açıq söyləyir, yalan söyləmir, Allahdan qorxur. Bütün peyğəmbərlər çox səmimi idilər. Diqqət etsəniz, görərsiniz ki, Allah Quranda "Allahın səmimi qulu idi, ixlaslı idi" deyərək səmimiliyə diqqət çəkir. İxlas da səmimilik deməkdir. Məsələn, Allah "saleh peyğəmbərlər" deyir, "saleh" sözü də səmimi deməkdir. Bu mənanı verən bir çox söz var, hamısı səmimilik üzərində qurulmuşdur. Səmimi olduqda insanın şüuru açılır, təsir gücü artır, hikmət qazanır, hikmətli danışır və söhbəti təsirli olur. Bizim bu qədər təsirli olmağımızın səbəbi də, inşaAllah, səmimiliyimizdir.

# Quran əxlaqı

## Hər hansı məsələdə ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?

Hər varlığı, hər hadisəni Allahın yaratdığını bilən, Onu tanıyıb gücünü təqdir edən insan hər hansı məsələdə ümidsizliyə qapılmaz. Çünki Allah hər çətinliyi aradan qaldıran, əfv edən, mərhəmət edən, sonsuz qüdrət və bilik sahibidir. Gündəlik həyatda ortaya çıxan hər cür çətinlik, ani surətdə yaranan problemlər, xəstəliklər, edilən səhvlər, qısaca desək, insanların ümidsizliyə düşmə səbəbi kimi gördükləri hər şey əslində tamamilə Allahın nəzarəti altında baş verir. Allah hər şeydən xəbərdar olan, hər şeyi biləndir. Sonsuz ağıl tərəfindən qədərinin təyin edildiyini bilmək bir insan üçün ən böyük rahatlıqdır. Bunu dərk edən insan əsla ümidsizliyə düşməz. Bundan əlavə, mömin dünyada etdiyi hər səhvi düzəltməyin mümkün olduğunu bilir, ona görə də ümidsizliyə qapılmaz. Belə ki, Quranda insanlara Allahın rəhmətindən ümid kəsməmək əmr edilmişdir:

**... Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər! (Yusuf surəsi, 87)**

**De: "Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir! (Zumər surəsi, 53)**

## Möminlər səhv edərlərmi?

Quranda bildirildiyi kimi, möminlər səhv edə bilər. Ancaq Allahdan qorxub çəkindikləri və Ona qarşı səmimi olduqları üçün səhvlərini israrla təkrarlamaz, dərhal düzəlmtəyə çalışarlar. Allahdan bağışlanma diləyər və özlərini islah edərək bir daha bu xətanı etməməyə diqqət edərlər. Dünyanın tərbiyə yeri olduğunu bilər və etdikləri səhvələrdən nəticə çıxararaq ibrət alar, özlərini kamilləşdirirlər. Allah möminlərin bu gözəl əxlaqını bir çox ayədə təriфləmiş, onları mütləq bağışlayacağını müjdələmişdir:

**O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini bildikdə bir daha ona qayıtmazlar. (Ali-İmran surəsi, 135)**



# İslam terroru lənətləyir

**... Allahın verdiyi ruzidən yeyin-için, yer üzündə öz həddinizi aşaraq fəsad törətməyin! (Bəqərə surəsi, 60)**

Bir dinin adından çıxış edən insanların bir qismi o dini yanlış anlaya və yaşaya bilərlər. Ona görə, bu insanlara baxaraq o din haqqında fikir söyləmək doğru olmaz. Bir dini tanımağın ən doğru yolu o dinin müqəddəs kitabını oxuyub təhlil etməkdir.

İslamın müqəddəs kitabı Qurandır. Quran əxlaqı sevgi, şəfqət, mərhəmət, təvazökarlıq, fədakarlıq, tolerantlıq və sülh anlayışlarına əsaslanır. Həqiqi mənada bu əxlaqa uyğun yaşayan bir müsəlman olduqca alicənab, ədəbli, əsalətli, incədüşüncəli, təvazökar, ədalətli, etibarlı və mülayim insan olur. Ətrafına sevgi, hörmət, rahatlıq və sevinc bəxş edir.

## TERROR NƏDİR?

Terror ümumi mənada sivil hədəflərə qarşı siyasi məqsədli zorakılıq tətbiq etməkdir. Başqa sözlə, terrorun hədəfi tamamilə günahsız dinc əhalidir. Yeganə təqsirləri terroristin gözündə qarşı tərəf olmaqdır. Buna görə, terror günahsız insanlara qarşı zorakılıq deməkdir və bunun heç bir əxlaqi səbəbi yoxdur. Bu, Hitler və ya Stalinin cinayətləri kimi, bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

## İSLAM SÜLH DİNİDİR

Quran Allahın insanlara bələdçi kimi nazil etdiyi haqq kitabdır və Allah Quranda



insanlara gözəl əxlaqı əmr edir. Bu əxlaqın kökündə isə sevgi, şəfqət, tolerantlıq, ədalət və mərhəmət kimi anlayışlar durur. İslam sözü ərəb dilində sülh sözü ilə eynimənalıdır. İslam Allahın sonsuz mərhəmət və şəfqətinin yer üzündə təcəlli etdiyi sülh və əmin-amanlıq dolu həyatı insanlara yaşatmaq üçün göndərilmiş dindir. Quran ayələrində insanlar yer üzündə mərhəmətin, şəfqətin, sevgi və sülhün modeli olan İslam əxlaqına dəvət edilir. "Bəqərə" surəsinin 208-ci ayəsində belə buyurulur:

**Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!**

Ayədən göründüyü kimi, Allah insanlara Quran əxlaqına uyğun yaşadıqda sülhün təmin olunacağını bildirir.

Quran əxlaqına əsasən, bir müsəlman müsəlman və ya qeyri-müsəlman insanlara yaxşı və ədalətlə davranmaqla, zəifləri və günahsızları qorumaqla və yer üzündə fitnə-fəsadın qarşısını almaqla məsuldur. Yer üzündə insanların təhlükəsizliyini və rahatlığını pozan hər cür anarxiya və terror fitnə-fəsaddır. Bir ayədə də buyurulduğu kimi, Allah fitnə-fəsadı sevməz. (Bəqərə surəsi, 205)



## ALLAH MƏSUM İNSANLARIN ÖLDÜRÜLMƏSİNİ HARAM ETMİŞDİR

Bir günahsız insanın öldürülməsi ən böyük fitnə-fəsaddır. Allah Quranda bunu belə açıqlayır:

**Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş olar… (Maidə surəsi, 32)**

Göründüyü kimi, bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bircə insanı öldürən şəxs bütün insanları öldürmüş kimi böyük günah edir. Bu təqdirdə, terrorçuların törətdiyi cinayət, qırğın və müasir ifadə ilə desək, suiqəsdlərin nə qədər böyük günah olduğu aydın olur.

Bundan əlavə, İslama görə, heç kim öz qənaətinə əsasən haqlı və haqsız tərəfi ayırd edə bilməz. Çünki bu, Quran ilə ayırd edilir. Quranda bildirildiyi kimi, İslam dinində hücum deyil, müdafiə var. Bir müsəlman ancaq özünün və ya yaxınlarının canına qəsd edilsə, müdafiə məqsədi ilə hücuma qarşı müqavimət göstərə bilər. Lakin qarşı tərəf hücumu dayandırarsa, onda o da müdafiəni dayandırmaqla məsuldur. Allah bunu ayələrində qəti hökm kimi bildirmişdir:

**Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir.**

**… Onlar sizinlə Məscidulharamın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də**

**onları öldürün. Kafirlərin cəzası belədir.**

**Əgər onlar (vuruşmağa) son qoysalar, əlbəttə ki, Allah Bağışlayandır, Rəhmlidir! (Bəqərə surəsi, 190-192)**

Bütün bunlar göstərir ki, məsum insanlara qarşı terror törətmək İslama tamamilə zidd hərəkətdir və heç bir müsəlman belə günah etməz. Əksinə, müsəlmanlar bu günahları edən insanlara mane olub yer üzündəki fitnə-fəsadı aradan qaldırmaqla və bütün insanlar üçün sülhü və əmin-amanlığı təmin etməklə məsuldurlar. İslamla terror bir-birinə ziddir, İslam əxlaqı terrorun qarşısında maneədir və terrorun həll yoludur.

## ALLAH FİTNƏ-FƏSADI TÖRƏDƏNLƏRİ LƏNƏTLƏMİŞDİR

Allah insanlara pislikdən çəkinməyi əmr etmiş, zülmü, zorakılığı, öldürməyi, qan tökməyi qadağan etmişdir. Quranda bu mövzu ilə bağlı ayələrdən bəziləri bunlardır:

**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. Yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır. (Əraf surəsi, 56)**

## DİN ADI ALTINDA TERROR TÖRƏDƏNLƏR

Allah və din adından çıxış edən, ancaq Allahın lənətlədiyi günahları etmək üçün təşkilatlanan ikiüzlü insanların olduğuna Quranda da işarə edilmişdir. Bir ayədə Allaha and içərək peyğəmbəri öldürmək üçün plan quran doqquz nəfərdən belə bəhs olunur:

**Şəhərdə doqquz adam var idi ki, bunlar yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər. Onlar öz aralarında Allaha and içib belə dedilər: "Biz gecə ona və ailəsinə hücum edib öldürəcək, sonra da qəyyumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, doğru danışırıq!" Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar hiss etmədilər. (Nəml surəsi, 48-50)**

Bu ayədə bildirilən hadisədən də gördüyümüz kimi, bəzi insanların Allahın adından çıxış etməsi, hətta Allaha and içməsi, yəni çox dindar görünərək danışması o



insanların dinə uyğun davrandığını göstərmir. Əksinə, tamamilə Allahın razılığına və din əxlaqına zidd hərəkət edə bilərlər. Bu zaman onların gördüyü iş əsasdır. Əgər gördükləri iş ayədə bildirildiyi kimi, yer üzündə fitnə-fəsad törədib pislik etməkdirsə, bilin ki, o insanlar əsl dindar deyil və məqsədləri dinə xidmət etmək deyil.

Allahdan qorxan və İslam əxlaqını qavrayan insan zorakılığa, fitnə-fəsada meyilli olmaz və bu cür işlərə əsla qurşanmaz. Buna görə də terrorun həll yolu həqiqi İslamdır. Quranda bildirilən gözəl əxlaq təbliğ edildikdə insanlar düşmənçiliyi, müharibəni və qarışıqlığı özlərinə hədəf seçmiş qruplara tərəfdar olmaz, onlarla birlik olmaz. Çünki Allah Quranda insanları fitnə-fəsaddan çəkindirir:

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: "Allahdan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 205-206)**

Dövrümüzdə də davam edən bu böyük terror bəlasından xilas olmaq üçün əvvəlcə dinsizlik və din adından çıxış edən ziddiyyətli anlayışlar elmi yolla aradan qaldırılmalı və insanlara Allah qorxusu və həqiqi Quran əxlaqı öyrədilməlidir.



## İSLAM FİKİR AZADLIĞININ TƏRƏFDARIDIR

Söz azadlığını, yaşamaq hüququnu təmin və müdafiə edən İslam insanlar arasında gərginliyə, anlaşılmazlığa, bir-birləri haqqında pis şeylər danışmağı və hətta pis düşünməyi belə qadağan edən əmrlər gətirmişdir. İslamda terror və zorakılıq haram olduğu kimi, insanlara ideoloji təzyiq göstərilməsi də qadağan edilmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir… (Bəqərə surəsi, 256)**

**(Onlara) öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən! (Ğaşiyə surəsi, 21-22)**

İnsanların bir dinə inanmağa və o dinin ibadətlərini yerinə yetirməyə məcbur edilməsi İslam əxlaqına və ruhuna ziddir. Çünki İslamda səmimi iman azad iradə və vicdanla mümkündür. Əlbəttə, müsəlmanlar bir-birlərini Quranda izah edilən əxlaqi xüsusiyyətləri yerinə yetirmək üçün xəbərdar edə, təşviq edə bilərlər. Quran əxlaqının ən gözəl tərzdə insanlara təbliğ edilməsi bütün iman gətirənlərin üzərinə düşən məsuliyyətdir. İman gətirənlər **"Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et…" (Nəhl surəsi, 125)** ayəsinə uyğun olaraq dini təbliğ edər, ancaq **"Onların doğru yola gəlməsi sənə aid deyildir. Yalnız Allah istədiyi şəxsi doğru yola yönəldir…" (Bəqərə surəsi, 272)** ayəsini də nəzərə alarlar. Əsla məcbur etməz, insanlara maddi-mənəvi təzyiq göstərməz, dünyəvi mənfəətlə şirnikləndirərək təbliğ

etdikləri insanı dinə uyğun yaşamağa istiqamətləndirməzlər. Təbliğlərinə müsbət cavab almadıqda müsəlmanlar **"Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 6)** ayəsində buyurulduğu kimi cavab verərlər.

Dünyada xristian, yəhudi, buddist, hindu, ateist, deist, bütpərəst kimi müxtəlif inanclara malik insanlar yaşayır. Müsəlmanlar qarşılarındakı insanın inancına baxmayaraq, şəfqətli olmaqla, bağışlamaqla, ədalətli və insanpərvər davranmaqla məsuldurlar. İman gətirənlər insanları gözəl şəkildə, sülh və şəfqətlə Allahın dininə dəvət etməlidirlər. Dinin tələblərini yerinə yetirib-yetirməmək, iman gətirib-gətirməmək qarşı tərəfin üzərinə düşən məsuliyyətdir. Bir insanı iman gətirməyə məcbur etmək, bəzi şeyləri zorla qəbul etdirməyə çalışmaq Quran əxlaqına ziddir. Belə ki, Allah Quranda iman gətirənlərə belə xatırladır:

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən? (Yunus surəsi, 99)**



**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

İnsanların ibadət etməyə məcbur edildiyi cəmiyyət modeli İslam əxlaqına tamamilə ziddir. Çünki inanc və ibadət ancaq Allah üçün və insanın öz seçimi ilə olmalıdır. Əgər bir sistem insanları inanca və ibadətə məcbur etsə, onda insanlar o sistemdən qorxduqları üçün dindar kimi görünəcəklər. Bu isə onları ikiüzlülüyə, münafiqliyə təşviq edir. Heç bir müsəlman belə bir şeyə razı olmaz. İslam əxlaqına əsasən, din ancaq Allah rizası üçün azad vicdanla yaşanmalıdır.

## TERRORİZMİN MƏNŞƏYİ: DARVİNİZM VƏ MATERİALİZM

**... Allah qullarına şəfqətlidir. (Ali-İmran surəsi, 30)**

Bir çox insan təkamül nəzəriyyəsinin Çarlz Darvinin irəli sürdüyü, elmi dəlillərə, müşahidə və təcrübələrə əsaslanan nəzəriyyə olduğunu düşünür. Halbuki təkamül nəzəriyyəsinin ilk banisi Darvin olmadığı kimi, nəzəriyyənin mənbəyi də elmi dəlillər deyil. Nəzəriyyə antik doqma olan materialist fəlsəfənin təbiətə tətbiq edilməsindən ibarətdir. Bu gün nəzəriyyəni dəstəkləyən elmi tapıntılar olmasa da, sırf materialist ideologiyaya görə kor-koranə müdafiə edilir. Bu mühafizəkarlıq dünyaya böyük bəlalar gətirib. Çünki darvinizmin və ondan əsas götürən materialist fəlsəfənin yayılması ilə "insan nədir?" sualına verilən cavab dəyişmişdir. Əvvəlcə bu suala: "İnsan Allahın yaratdığı və Onun öyrətdiyi gözəl

əxlaqa uyğun yaşamalı olan varlıqdır", - deyə cavab verən insanlar "insan təsadüfən meydana gəlmiş, həyat uğrunda mübarizə ilə təkmilləşmiş heyvandır" kimi yanlış düşüncəyə qapılıblar. Bu böyük yanlışın nəticəsi isə çox ağır olub. İrqçilik, faşizm, kommunizm kimi vəhşi ideologiyalar və digər bir çox barbar düşüncə tərzi bu fikirdən qaynaqlanır.

## DARVİNİZM VƏ TERRORİZM

Darvinizm XX əsrdə bəşəriyyəti fəlakətə sürükləyən zorakılıq tərəfdarı olan müxtəlif ideologiyaların kökündə durur. Bu ideologiyalar darvinizmə əsaslanaraq "qarşı tərəflə mübarizəni və qarşıdurmanı" dəstəkləmiş, hətta ən əsas metodları kimi mənimsəmişlər.

Dünyada fərqli inanclar, dünyagörüşləri, fəlsəfi cərəyanlar olduğu məlumdur. Bütün bu fərqli fikirlərin bir-birlərinə tamamilə zidd xüsusiyyətləri olması da təbiidir. Ancaq bu fikirlər bir-birlərini iki şəkildə dəyərləndirə bilərlər:

1) Onlarla həmfikir olmayanlara hörmətlə yanaşar, onlarla ünsiyyət qurmağa çalışar, insanpərvər davranarlar. Bu, Quran əxlaqına uyğun metoddur.

2) Onlarla həmfikir olmayanlarla mübarizə aparmaq, dalaşmaq, onlara zərər verərək üstünlük qazanmaq yolunu seçə bilər, yəni heyvan kimi davranarlar. Bu isə materializmin, yəni dinsizliyin metodudur.

Terrorizm adlandırdığımız fəlakət ikinci düşüncə tərzinin ifadəsidir.

Bu səbəbdən, əgər bir nəfər çıxıb İslam, xristianlıq və ya yəhudilik adından bu dinlərin simvollarından istifadə edərək terror törədərsə, qarşıdurmanı alovlandırarsa, bilin ki, o şəxslər müsəlman, xristian və ya yəhudi deyil, əksinə, sosial darvinistdir. Din adı altında gizlənmiş, ancaq səmimi inanc sahibi deyillər. Dinə xidmət etmək üçün ortaya çıxdıqlarını iddia etsələr də, əslində, dinə və dindarlara düşməndirlər. Çünki məhz dinin qadağan etdiyi günahı insanların gözü önündə dinə qarşı mübarizə aparacaq tərzdə zalımlıqla edir.

Ona görə də dünyanı bürüyən terror bəlasının mənşəyi hər hansı ilahi din deyil, dinsizlik və dinsizliyin dövrümüzdəki tərifi olan darvinizm və materializmdir.

## SÜLH VƏ ƏMİN-AMANLIQ İSTƏYƏN HƏR İNSAN DARVİNİZM TƏHLÜKƏSİNİN FƏRQİNƏ VARMALIDIR

Hər hansı problemlə mübarizə apararkən o problemin mənşəyini, əsas səbəbini aradan qaldırmaq lazımdır. Dünyanın terrordan xilas olması üçün əvvəcə terrorçu yetişdirən əsas mənbə müəyyən edilməli və ortadan qaldırılmalıdır. Terrorun əsl səbəbi isə insanların batil ideologiyaları və bu sahədə aldıqları təhsildir.

Dövrümüzdə dünyanın hər yerində darvinizm bütün məktəblərdə elmi həqiqət kimi tədris edilir. Gənclərə onları Allahın yaratdığı, ruh, ağıl və vicdan sahibi varlıqlar olduqları, öldükdən sonra Allahın dərgahında



sorğu-sual edilərək dünyadakı əməllərinə görə Allahın hüzurunda cavab verəcəkləri və buna əsasən, əbədiyyən cənnətdə və ya cəhənnəmdə qalacaqları öyrədilmir.

Əksinə, təsadüflər nəticəsində əmələ gəlmiş, əcdadları heyvan olan, Allah qarşısında məsuliyyəti olmayan, kortəbii varlıqlar olduqları və ancaq mübarizə və qarşıdurma yolu ilə həyatda qala biləcəkləri kimi yalanlar öyrədilir. Məktəb illərində bu təlqini alan insanların beyinlərini yumaq, onları bəşəriyyətin düşmənlərinə çevirmək, məsum körpə uşaqları qətlə yetirəcək qədər zalımlaşdırmaq isə bu mərhələdən sonra çox asandır. Bu cür tərbiyə almış gəncləri hər cür batil ideologiya asanlıqla öz tərəfinə çəkə bilir və onlara hər cür vicdana və ağıla zidd hərəkəti etdirir, hər cür azğınlığı və zalımlığı əsas məqsəd kimi göstərir. Son bir əsr boyu dünyanı alt-üst edən kommunist, faşist, irqçi terror qruplar bu təlim sisteminin məhsuludur.

Bu təlim sisteminin ikinci böyük zərəri isə təhsili dindən ayıraraq dini cahil insanların dünyası kimi məhdudlaşdırmaqdır. “Təhsilli” insanlar darvinist-materialist təlqinlə dinsizləşərkən din təhsilsiz insanların idarəsinə keçir. Bu halda, xurafat və batil inanclar asanlıqla təşəkkül tapır, din adından dinə tamamilə zidd fikirlər irəli sürən insanlar təsirli olur.

Nəticə etibarilə, həll yolu terrorun əsl mənbəyi olan darvinist-materialist təhsilə son vermək, gənclərə həqiqi elmi faktlar əsasında hazırlanmış dərsliklərlə təhsil vermək və onlara Allah qorxusunu, ağıllı və vicdanlı davranmağı öyrətməkdir. Məhz bundan sonra Allahın Quranda bildirdiyi kimi, bağışlayan, şəfqətli, mehriban, sevgi dolu insanlardan ibarət cəmiyyət meydana gələr.





# Musiqi: Allahın neməti

Qapı zəngi, addım səsi, avtomobil siqnalı, kağız xışıltısı... Gündəlik həyatda eşitdiyimiz səslərin demək olar ki, hamısının hansı mənbədən gəldiyini anlayırıq. Ancaq əvvəlcədən hər hansı hadisə ilə əlaqələndirdiyimiz səslər istisna olmaqla, əksər səslər ruhumuza təsir etmir. Lakin bu, eşitdiyimiz musiqiyə aid deyil.

Musiqi Allahın insanlar üçün yaratdığı nemətdir. Səs dalğaları vasitəsilə insanın zövq alması böyük möcüzədir. Havada dolaşan səs dalğaları toplanır və sonra bu səs dalğaları sinir oyanmalarına çevrilərək beyinə ötürülür. Bu səsin beyin tərəfindən musiqi kimi ayırd edilib xoşagələn səs kimi qavranılması Allahın istədiyi səsə məna verməsi və bizə bu səsi xoş göstərməsi ilə olur. Eşitmə prosesini texniki baxımdan təhlil etsək, qapı cırıltısını eşitdikdə baş verən proseslərlə bir simfoniyanı dinlədikdə həyata keçən proseslərin eyni olduğunu görərik. 15-20000 hers (10 m-lik orqanın verdiyi səs tonu) tezliyə malik titrəyişləri qulaq seyvanı toplayaraq qulaq yoluna ötürür, səs buradan qulaq pərdəsinə çatır. Qulaq pərdəsi də orta qulaqdakı kiçik sümükləri titrədir və səs titrəyişləri mexaniki titrəyişlərə çevrilir. Bu mexaniki titrəyişlər də daxili qulaqdakı ilbiz adlı orqanoidin içindəki mayeni titrədir. İlbizin daxili çəpərlərindəki tüklər isə titrəyişləri sinir oyanmalarına çevirərək beyinə göndərir və bunlar beyində şərh edilir.

Əlbəttə, təqribən 1,5 kq-lıq ət parçası olan beyinin bu səslərdən məna çıxarması, sevinci, coşqunu, həyəcanı, rahatlığı ayırd etməsi mümkün deyil. Səsləri yaradan, onlara məna verən və bu vasitə ilə ruhumuzda təsir meydana gətirən də, şübhəsiz, Allahdır. Bu qədər qüsursuz sistemin mükəmməl işləməsi Allahın varlığının və böyüklüyünün dəlillərindəndir.

Allah beyinin içindəki səssizlikdə musiqini və ruhumuza təsirini yaradır. İnstrumental musiqi alətlərinin ardıcıl səslərinin insan ruhunda sevinc, xoşbəxtlik, həyəcan əmələ gətirməsi ancaq Allahın istəyi ilə baş verir. Bu da Allah rəhməti və nemətidir.

**Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nəhl surəsi, 18)**

**Ey insanlar! Allahın sizə olan nemətini yada salın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı?! Ondan başqa heç bir tanrı yoxdur. Elə isə necə döndərilirsiniz? (Fatir surəsi, 3)**



# İslam birliyini istəməyənlər İslam dünyasında tökülən qandan məsuldurlar



Qurani-kərimdə, Peyğəmbərimizin (s.ə.v) hədislərində və İslam alimlərinin əsərlərində Quran əxlaqının dünyaya hakim olacağı bildirilmişdir. Ancaq bəzi insanlara İslam birliyi uğrunda mübarizə aparmaq, həyatını həsr etmək çətin gəlir, bu səbəbdən, İslam birliyinin əhəmiyyətini izah etməkdən və bu yolda səy göstərməkdən çox çəkinirlər. Halbuki İslam birliyini istəmək və bu mövzuda fikri mübarizə aparmaq hər müsəlmanın borcu və fərz olan ibadətdir.

İslam dünyasında davam edən müharibə və qarşıdurmalar ilk zamanlar hər kəsin diqqətini özünə cəlb etmiş, işgəncəyə məruz qalan, öldürülən qadınların, uşaqların və yaşlıların görüntüləri insanlarda yardım etmək istəyi yaratmışdır. Ancaq hər gün ölüm xəbərinin eşidilməsi, qadınların təcavüzə uğraması, uşaqların güllələrə hədəf olması, minalara düşən insanların qolunu və ya ayağını itirərək şikəst qalması bir müddətdən sonra normal qarşılanmağa başlanmışdır. Bu insanların ilk günlərdəki reaksiyaları öz yerini laqeydliyə vermişdir. Bəzi insanlar qəzetləri alanda müharibə xəbərlərindən çox şou-biznez məzmunlu xəbərlərlə maraqlanmağa başlamışdır. Fələstində, Əfqanıstanda, İraqda, Kəşmirdə, Şərqi Türküstanda, Suriyada və ya Patanidə hər gün onlarla insanın ölməsi demək olar ki, "adi xəbərə" çevrilmişdir.

Digər tərəfdən, bu vəhşilikləri məqbul göstərən təbliğat da aparılır. Bu səbəbdən, bir çox insan Suriyada yaşanan böyük qırğınları ölkənin daxili problemi, Fələstin və İsrail arasında yaşananları torpaq mübarizəsi kimi görür, Kəşmir xalqına qarşı hind zülmünü və ya Şərqi Türküstanda Çin zülmünü və ya Taylandın patanili müsəlmanlara qarşı tətbiq etdiyi zülmü bölgənin strateji mövqeyindən qaynaqlandığını düşünür. İraq, Əfqanıstan kimi ölkələrə qarşı işğalları isə beynəlxalq siyasi zərurət kimi qiymətləndirir. Doğrudur, tarixi və iqtisadi səbəblər də qarşıdurmaların meydana gəlməsinə böyük təsir edir. Ancaq indiki vaxtda yaşanan qarşıdurmaların əsas səbəbi yuxarıda sadalanan ölkələrin əhalisinin müsəlman olmasıdır. Bu səbəbdən, əzilən müsəlmanlara kömək etmək və İslam birliyi üçün səy göstərmək böyük ibadətdir. Rəbbimizin əmri bu istiqamətdədir.



İslam aləmində bir müsəlman ölkəsinin işğal və təzyiqlərdən xilas olması isə kifayət deyil. Çünki bir ölkənin qurtulması ilə İslam aləmi təzyiq və zülmdən qurtulmaz, bütün İslam aləminin qurtulması vacibdir.

## İslam birliyi Allahın əmri, Peyğəmbərimizin (s.ə.v) vəsiyyətidir

Quran - möminlərin həyatının bütün sahələrini əhatə edən, Rəbbimizin hökmlərini özündə əks etdirən və qiyamətə qədər qüvvədə olan mübarək kitabdır. Hədislərdə bildirildiyi kimi, İslam əxlaqının dünyaya hakim olması Peyğəmbərimizin (s.ə.v) vəfatından sonra qiyamətə qədər reallaşan əlamətlərin ən əhəmiyyətlisidir. Quranın "Nur" surəsinin 55-ci ayəsində də İslam əxlaqının yer üzünə hakim olacağı xəbər verilir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən**



əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

## İslam birliyi hər müsəlmanın ən böyük vəzifəsidir

İman gətirən bir insan eşitdiyi və gördüyü hər şeydən məsuldur. Müsəlman xalqların çoxu işgəncə, zülm və təzyiq altında olduğu halda, bəzi müsəlmanların bu mövzunu görməməzlikdən gəlməsi böyük səhvdir. Çünki Allahın bu mövzudakı əmri açıqdır və Allah Quranda müsəlmanlara belə əmr edir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Quranda bir çox ayədə İslam birliyinin fərz vəzifə olduğu müsəlmanlara bildirilir. Allahın İslam birliyini əmr etdiyi ayələrdən biri də belədir:

**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər (şirkə) son qoysalar, (bilsinlər ki,) Allah onların etdiklərini görür. (Ənfal surəsi, 39)**



Ayədə İslam bütün dünyaya hakim olana, Quran əxlaqı bütün dünyada yaşanmağa başlayana, müharibə, zülm, fitnə aradan qalxana qədər müsəlmanlara mübarizə aparmaq əmr edilmişdir. Ayədəki "din tamamilə Allaha həsr edilənədək" əmri İslam birliyinə və Mehdiyyətə işarə edir (Doğrusunu Allah bilir). Allahın əmri bu qədər açıq olduğu halda, ağıl, bəsirət və fərasət gözü ilə baxan səmimi bir müsəlman bu həqiqəti görüb dərhal anlayar.

Allahın ayələrini bilən imanlı və vicdanlı insanların baş verən hadisələrə laqeyd olması, onları görməzlikdən gəlməsi qeyri-mümkündür. Bir müsəlmanın dünyada bu cür şiddətli zülm davam edərkən yatağında rahat yatması, boş işlərlə məşğul olması, yalnız öz əyləncəsini və mənfəətlərini düşünməsi mümkün deyil. Çünki iman gətirən bir insan haqsız müharibələrin, qırğınların, zülmün, aclığın, əxlaqi degenerasiyanın, qısaca desək, dünyadakı bütün problemlərin həllinin Quran əxlaqının insanlar arasında yayılması olduğunu bildiyi üçün bu məlumat ona böyük məsuliyyət yükləmişdir: dünyaya İslam dinini və dinin gətirdiyi gözəllikləri izah etmək, Quran əxlaqını yaymaq və dinsizliyə qarşı fikri mübarizə aparmaq...

## İslam birliyi Peyğəmbərimizin (s.ə.v) ən böyük hədəflərindəndir

Peyğəmbərimiz (s.ə.v.) də ən böyük hədəfin İslam birliyi olduğunu xəbər vermiş, bu hədəfin reallaşması vəzifəsini isə Allahın hz. Mehdiyə (ə.s.) verdiyini bildirmişdir. Rəsulullah (s.ə.v.) hədislərində hz. Mehdinin (ə.s.) öndərliyi ilə İslam dünyasındakı dağınıqlığın sona çatacağını xəbər vermişdir. O, müsəlmanların Quran əxlaqında birləşəcəyini bildirmiş və bütün müsəlmanları hz. Mehdinin (ə.s.) rəhbərliyi altında İslam birliyinin mövcudluğu üçün birliyə dəvət etmişdir. Peyğəmbərimizin (s.ə.v) bu mövzudakı vəsiyyəti çox açıqdır:

***"SİZDƏN ONA KİM ÇATSA, QAR ÜZƏRİNDƏ SÜRÜNƏRƏK DƏ OLSA, ONA GƏLSİN. ONA QATILSIN. ÇÜNKİ O, MEHDİdir.*** (İbn Mace, Fiten, B 34, H 4082; İbn Ebi Şeybe, VII cild, s. 527; Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 14)

## Müsəlmanlar İslam birliyi üçün yarışmalıdır

**"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı**



**haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin (başqa-başqa olmanız) sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir. (Maidə surəsi, 48)"** ayəsində Allah ölkələrə, məzhəblərə, təriqətlərə ayrılan, bir-birləri ilə çəkişən birlik istəmədiyinə, birləşmiş müsəlman birliyi istədiyinə diqqət çəkmiş və müsəlmanların İslam birliyi üçün yarışmalarının vacib olduğunu buyurmuşdur.

İslam əxlaqının hakim olması Rəbbimizin hökmüdür, səmimi və şirk qoşmadan iman gətirən qullarına verdiyi vəddir. Allahın iznilə bu hökm axırzamanda hz. Mehdinin (ə.s.) vasitəsilə reallaşacaq. "Nəsr" surəsində Rəbbimiz bu həqiqəti belə müjdələmişdir:

**Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)**

Adnan Oktarın 15 iyun, 2011-ci il tarixli A9 TV müsahibəsində İslam birliyini istəməyənlərin müsəlman dünyasında tökülən qanlara görə məsuliyyət daşıdıqlarını belə açıqlamışdır:

Adnan Oktar: *Əfqanıstanda şəhid edilənlərin sayı demək olar ki, iki milyonu keçdi. Qatillər onların qulaqlarını kəsib, qurudub xatirə kimi Amerikaya aparırlar, dişlərini çıxarıb Amerikaya aparırlar, barmağını kəsib, qurudub Amerikaya aparırlar. Onların mühakimə olunması lazım deyilmi? Lazımdır. Maraqlandırırmı bu, yoldaşları (bəzi müsəlmanları)? Maraqlandırmır. Çünki İslam birliyinə qarşıdırlar, çünki Mehdiyyətə qarşıdırlar. Sırf "Mehdiyyətə qarşı olacağam" deyə, İslam birliyinə də qarşı oldular. Türk-İslam Birliyi olsa, İslam birliyi olsa, bu hadisələr meydana gəlməz.*

*Siz, günahı İslam birliyini axtarmayanlarda görün. Bu qədər müsəlmanın qanı onların boynundadır. Hz. Mehdini (a.s) axtarmayanlar məsuldur, İslam birliyini istəməyənlər məsuldur, Türk-İslam Birliyini istəməyənlər məsuldur.*

# BÜTÜN CANLILARI VƏ ƏŞYA ALƏMİNİ YARADAN ALLAHDIR

Kainatın hər bucağı Allahın yaratdığı saysız-hesabsız gözəlliklərlə doludur. Ətrafımıza nəzər salsaq, qarşılaşdığımız hər şey – yaşıl yarpaqlarla bəzənmiş budaqları göyə yüksələn ağaclar, rəngarəng çiçəklər, insanda şəfqət və mərhəmət hissi oyadan sevimli pişiklər, dovşanlar, sincablar, heybətləri ilə insanları heyran edən pələnglər, aslanlar, atlar, dadı, qoxusu və estetik görünüşləri ilə insanı cəlb edən meyvələr, tərəvəzlər, yeməklər, mavi səmada süzən buludlar, Ay və Günəş, gecə parıldayan ulduzlar, ehtişamlı yüksək dağlar, yer üzünün çox hissəsini tutan dənizlər, okeanlar və saymaqla bitməyən hələ bir çox gözəllik... Hər biri Allahın möhtəşəm sənətinin bənzərsiz nümunəsidir.

Dənizdə sakitcə üzən tonlarla ağırlığı olan gəmilər, havada uçan təyyarələr, evlərimizdəki elektron alətlər və hər cür texnoloji vasitələr, televizorlar, musiqi mərkəzləri, kompyuterlər, işimizi asanlaşdıran cihazlar, yaşadığımız evlər, binalar, nəqliyyat yolları, avtomobillər... Bunların hamısı Allahın sonsuz ağlı və sənəti ilə yaratdığı və insanların xidmətinə verdiyi nemətlərdir.

Lakin insanların bir qismi canlıları və təbiət amillərini Allahın yaratdığını qəbul edir, insan əli ilə hazırlanan şeylərin, məsələn, körpülərin, göydələnlərin, motorlu qayıqların, paltarların, qısaca desək, əşyaların da Allah tərəfindən yaradılığını qavramır və bunları insanların – Allahı tənzih edirik – müstəqil gücləri ilə düzəltdiklərini düşünürlər. Halbuki heç bir varlığın öz müstəqil gücü yoxdur. Şəhərlər, sivilizasiyalar quran, təyyarələr istehsal edən, gəmilər, tankerlər düzəldən insanlar da Allahın yaratdığı aciz varlıqlardır və Allahın istəyi ilə hərəkət edir, Allah istədiyi üçün düşünüb dərk edir və məhsul hazırlaya bilirlər. Allah istəməsə, onlar da istəyə bilməz və heç nəyə gücləri çatmaz. Allah bir Quran ayəsində bu barədə belə buyurur:

**Allah istəməsə, siz istəyə bilməzsiniz. Həqiqətən, Allah biləndir, hikmət sahibidir! (İnsan surəsi, 30)**

Bu mövzu ilə bağlı başqa bir Quran ayəsində belə buyurulur:

**... Allah istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!"– deyir, o da olur. (Ali-İmran surəsi, 47)**

Allah insanların isinməsi üçün istilik sistemlərini, isti su ilə təmin edilmələri üçün kombiləri, su qızdırıcılarını, gedəcəkləri yerə rahat getmələri üçün yolları, avtomobilləri, qatarları, su nəqliyyatını, yemək ehtiyaclarını təmin etmək üçün cürbəcür yeməkləri və bu yeməklərin bişirildiyi sobaları, plitələri, qazanları, tavaları yaradır, bir sözlə, insanların əmrinə verdiyi əşyalar vasitəsilə onların bu dünya həyatında rahat yaşamasını təmin edir. Eyni şəkildə, soyuqdan





qoruyan qalın geyimləri, yayın qızmar günəşindən qoruyan nazik geyimləri yaradan və insanların rahatlığı üçün cürbəcür geyimləri onların xidmətinə verən də Allahdır. Allah geyim əşyalarını Özünün yaratdığını bir ayədə belə bildirir:

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas nazil etdik… (Əraf surəsi, 26)**

Başqa bir ayədə Allah insanlar üçün geyimlər yaratdığını belə bildirir:

**… Sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi. Beləcə, (Allah) Öz nemətini sizə tamamlayır ki, bəlkə itaət edəsiniz. (Nəhl surəsi, 81)**

Yer üzündəki bütün parçaları və yunları yaradan, ipliyi, yunu əyirməyi və toxumağı, parçanı istehsal edib istifadə qaydasını insana öyrədən və bunun üçün bütün texnikanı yaradan Allahdır. Gözqamaşdırıcı rəngləri olan ipək, satin, atlas və bir çox parça növü və bu parçalardan hazırlanmış geyimlər insanın çox xoşuna gəlir. Bu parçalar və geyimlərlə bərabər dünya həyatındakı bütün əşyalar, eyni zamanda, insanın cənnəti təsəvvür etməsi üçün Allahın xüsusi yaratdığı gözəlliklərdir. Allah cənnətdə dünyada gördüyümüz bütün bu gözəlliklərin qat-qat üstününü yaradacaq. Çünki cənnət dünya ilə müqayisə belə edilməyəcək qədər mükəmməl və sonsuz gözəlliyə malik yerdir. Allah cənnəti və cənnətdəki bənzərsiz nemətləri bu dünya həyatında iman gətirib saleh əməl sahiblərinə nəsib edəcək.

## Gördüyümüz hər şey beynimizdə hiss kimi yaradılır

Görmə prosesinin necə baş verdiyini məktəbdə öyrəndiklərimizi təkrarlayaraq xatırlaya bilərik: gördüyümüz cisimdən gələn işıq gözün ön hissəsindəki göz büllurundan keçərək tor qişaya düşür və buradakı sinir ucları vasitəsilə elektrik axınına çevrilərək beyindəki görmə mərkəzinə ötürülür. Beyin bu siqnalları şərh edir və görüntü kimi qavrayır. Başqa sözlə, insan gördüyü şeylərin əsli ilə təmasda ola bilmir, onların ancaq surətlərini beynində hiss edir. Bu, elmin sübut etdiyi faktdır.

Biz bir əşyaya, məsələn, soyuducuya baxdıqda onu ancaq beynimizin arxa tərəfindəki kiçik bölgədə görürük. İşıq gözümüzdəki tor qişaya çatır, tor qişada soyuducunun tərs, ikiölçülü görüntüsü əmələ gəlir, daha sonra bu görüntü elektrik axınına çevrilərək beynimizin arxasındakı görmə mərkəzinə ötürülür. Beləliklə, biz soyuducunun düz, üçölçülü, qüsursuz görüntüsünü beynimizdəki görmə mərkəzində görürük. Əslində isə biz soyuducunun əsli ilə deyil, ancaq surəti ilə təmasda oluruq.

Ona görə insan gündəlik həyatda qarşılaşdığı hər şeyin – küçələrin, xiyabanların, küçədə gəzən insanların, ətrafda qaçan uşaqların, arxalarında ağ iz qoyaraq uçan təyyarələrin, marketlərin, mağazaların, böyük ticarət mərkəzlərinin, villaların, iş yoldaşlarının, ailəsinin, dostlarının, evinin, evindəki bütün əşyaların, qarderobundakı bütün paltarların, bir sözlə, doğulduğu andan ölənə qədər: "Görürəm", - dediyi şeylərin ancaq surətləri ilə təmasda olur. Bu açıq həqiqəti bir az düşünən insan Allahın yaratma sənətinin incəliklərini daha yaxşı anlayar. Bu da Allahın ən böyük möcüzələrindən və möhtəşəm sənətinin açıq göstəricilərindən biridir.

Əşyalar da, əşyaları istehsal edən insanlar da Allahın beynimizdə hiss kimi yaratdığı surət görüntülərindən başqa bir şey deyil. Əşya xarici aləmdə də mövcuddur, lakin biz xarici aləmdəki əşyalarla deyil, onların ancaq surətləri ilə təmasda oluruq. Əşyaları və ya canlılar aləmini bütün detalları ilə eyni yerdə - beynimizdə yaradan Allahdır.

# İNSANLARA TAPINMA DİNİ

## İNSANLARA TAPINMA DİNİ NƏDİR?

Tarix boyu cəmiyyətdə Allahın insanlardan nə istədiyi deyil, insanların bir-birlərindən hansı tələblərinin olduğu daha mühüm olmuşdur. İnsanlar Allahın haqq kitabında bildirdiyi hökmlərdən, insanlara əmr etdiyi həyat tərzindən xəbərsiz şəkildə özlərini cəmiyyətin və ətrafdakı sosial təbəqənin istəklərini yerinə yetirməyə şərtləndiriblər.

Dövrümüzdə də ətrafınıza baxsanız, Allahın əmr və qadağalarını əksər insanların bilmədiyini və yerinə yetirmədiyini görərsiniz. Allahın gücü, Onun rizasını qazanmağın nə qədər vacib olduğu, Onun əmrlərini yerinə yetirmədikdə Allah qatında əvəzinin nə olacağını çoxları ya heç düşünmür, ya da bunu heç ağıllarına belə gətirmək istəmirlər. Halbuki həmin şəxslər ətrafdakı insanların onlar haqqında nə düşündüyünü, onlardan nə gözlədiyini, onlara özlərini bəyəndirmək, sevdirmək üçün nə etməli olduqlarını və bunun kimi saysız-hesabsız məsələni düşünürlər. Bu şəxslər insanlara Allahdan daha artıq sevgi və bağlılıq göstərilən sistemin içində yaşayır və bunun yanlış olduğuna ehtimal vermirlər.

Bu batil düşüncə və həyat tərzi insanların maddi-mənəvi imkanlarını sərf etməsinə səbəb olan, hətta həyatlarını buna fəda edəcək qədər onları təsiri altına salan inancdır. Bu inanc öz əmr və qadağaları, doğruları və yanlışları olan, habelə hər kəsin bunlara tabe olmasını tələb edən batil dinə çevrilmişdir. Hər insan öz sosial ətrafının istəklərinə uyğun proqramlanmış sistemə tabe olmağa məcburdur. Çünki ancaq bu şəkildə insanların arasında yaşaya bilər, əks təqdirdə, təcrid olunub alçaldılarlar. Digər insanlar istər baxışları, istərsə də davranış və danışıqları ilə onlara tabe olmayanları özlərindən aşağı hesab etdiklərini açıq-aşkar hiss etdirirlər.

Bu vəziyyətə düşməmək üçün insan gün ərzində öz-özünə unutmadan bəzi şüarları təkrarlamalıdır. Məsələn, mənə gözüaçıq, zəkalı, gözəl, şən, söhbətcil, bacarıqlı desinlər, əsla xəsis, eqoist deməsinlər, sadəlövh deməsinlər, cahil deməsinlər... Bu batil dinə tabe olan şəxs bütün bunları eynilə ibadət kimi dəqiqliklə yerinə yetirir. Ətrafındakı insanların razı qalacağı şəkildə şəxsiyyətini yetişdirir. Ciddi cəhdlə davam etdirdiyi bu səyləri nəticəsində insanlara Allahdan çox dəyər verən, onların razılığını qazanmaq üçün qarşısına çıxan hər təklifi qəbul edən, bütün diqqətini insanlara yönəltmiş birinə çevrilir. Artıq bu şəxs insanların bir-birinə qulluq etdiyi batil dini sistemin içində həbs olmuşdur. Daxilən yaşanan bu gizli dinin mənsubuna çevrilmişdir.

Bu din Allahı qoyub insanlara tapınmağı tələb edən dindir. İnsanlara möhkəm bağlılığı ifadə edən bu din "insanlara tapınma dini"dir. Allah Quranın bir çox ayəsində insanları bu batil inancdan xilas olub ancaq Ona qulluq etməyə dəvət etmişdir. Ayələrdən birində belə buyurulur:

**Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)**

Unudulmamalıdır ki, bu batil din cəmiyyəti nə qədər təsiri altına salsa da, iradəsi güclü və ağıllı insan üçün bu batil

sistemdən əl çəkmək çox asandır. Çünki ancaq Allaha səmimi iman gətirmək, Ondan başqa ilah olmadığına şəksiz inanmaq lazımdır. Allah iman gətirən qullarının yolunu açar, onları doğru yola yönəldər. Quran vasitəsilə onları yaşadıqları qaranlıq həyatdan çıxarar. Allah bir ayədə möminləri belə müjdələyir:

**Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır... (Bəqərə surəsi, 257)**

## İNSAN ALLAHA QULLUQ ETMƏK ÜÇÜN YARADILMIŞDIR

İnsan Allahın yaratdıqları arasında şüurlu, doğrunu və yanlışı ayırd etmə bacarığına malik varlıqdır. Ona görə, Allahın varlığının dəlillərini, üstün yaratma gücünü qavramağı, dünya və axirət həyatının həqiqi məqsədini anlamağı bacarır.

Ancaq bu üstün xüsusiyyətlər onun boynuna bəzi məsuliyyətlər də qoyur. Çünki bütün bunları ağlı ilə qavrayan insan yeganə qulluq edilməli gücün Allah olduğunu və Allahdan başqa ilah olmadığını anlayar. Dünya həyatındakı vəzifəsinin Allaha iman gətirmək olduğunu dərk edər. Allah Quranda qullarına belə buyurur:

**O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda, övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. Budur Allah – sizin Rəbbiniz. Ondan başqa ilah yoxdur. Hər şeyin yaradıcısı (Allahdır)! Elə isə Ona ibadət edin! O, hər şeyi qoruyandır. (Ənam surəsi, 101-102)**

Bu çox aşkardır ki, dünya həyatında axtarılan rahatlıq, xoşbəxtlik və uğurun kökündə insanların üzərlərinə düşən məsuliyyəti bilmələri və ancaq Allaha qulluq etmələri durur. Bu, cəmiyyətə də aiddir və cəmiyyətdə müvazinəti təmin edir. Əks təqdirdə, yəni Allahın varlığını inkar edənlərin, Onun verəcəyi cəzadan və axirət günündən qorxmayanların sayı artdıqda bu müvazinət pozulur. İnsanların Allaha qul olduqlarını unudub başqa varlıqlara üz tutmasının nəticəsi olaraq əxlaqi degenerasiya, insanlar arasındakı münasibətlərdə ziddiyyətlər, mənfəətə əsaslanan əlaqələr, güclünün zəifi əzməsi, mərhəmətsizlik, zülm, saxtakarlıq, düşmənçilik kimi hərəkətlər cəmiyyətdə sürətlə yayılır. Nəticədə isə ailə və cəmiyyətin nizamı, ölkənin asayişi və dünya səviyyəsində sülh təhlükə altına girir. Quranda insanların Allahın əmrlərini tərk edib öz nəfslərinə tabe olmasının bəşəriyyəti ciddi pozuntuya aparacağı belə xəbər verilir:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara Zikr gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər. (Muminun surəsi, 71)**

Dövrümüzdə insanların böyük əksəriyyəti içində yaşadıqları və daima şikayətləndikləri degenerasiyanın kökündəki səbəblərin öz nəfslərinin istəklərinə tabe olmaları və Allaha şirk qoşmaları olduğunu düşünmürlər. Ona görə də həll yolunu başqa yerlərdə axtarırlar. Ancaq iqtisadi, sosial və mədəni islahatlar keçirərək, ölkəni zənginləşdirərək və texnologiyanı inkişaf etdirərək problemlərini həll edəcəklərini düşünürlər. Halbuki şirkdən tamamilə təmizlənmədən və insanlar arasında güclü Allah inancını bərqərar etmədən bu metodlar əsla məsələni həll etməz. Daima yeni həll yolları tapılmasına baxmayaraq, Allahın əmr etdiyi gözəl əxlaqa zidd metodlar tətbiq edildiyinə görə, heç bir qəti nəticə əldə edilmir.

Bəzi insanların yaşadığı bu qaranlıq, qorxunc həyat tərzindən xilas olmağın, rahat mühitdə yaşamağın yeganə yolu var. Bu yol cəmiyyəti təşkil edən fərdlərin "insanlara tapınma dini"nin pəncəsindən xilas olmaları, ancaq Allaha iman gətirmələri və Allahın Qurandakı əmr və qadağalarını yerinə yetirmələridir. Bu, bütün insanlar üçün mütləq qurtuluşdur. Çünki insanı Allah yaratmışdır və onun ruhunun nəyə ehtiyacı olduğunu da ən yaxşı Allah bilir. Quranda bu həqiqət belə xəbər verilir:

**Allah Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz iznilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

# ULTRASƏS DALĞALARI İLƏ DÜŞMƏNLƏRİNDƏN QORUNAN GÜVƏLƏR



Ordunun ən mühüm strategiyası və taktikası əvvəlcə düşmənlərini dərhal müəyyən etmək və onların xüsusiyyətlərini öyrənib buna qarşı tədbir görmək üzərində qurulmuşdur. Güvələr də düşmənləri yarasalardan qorunmaq üçün yaradıldıqları gündən etibarən eynilə təchizatlı ordunun milyonlarla dollar sərf etdiyi strategiyalara bənzər strategiyadan istifadə edirlər.

**O, göyləri bir dirək olmadan yaradıb saxlamış, yer sizi silkələməsin deyə, orada möhkəm dağlar qurmuş və ora cürbəcür heyvanlar yaymışdır. Biz göydən yağmur yağdırıb orada cürbəcür gözəl bitkilər bitirdik. (Loğman surəsi, 10)**

Bir heyvan həyatda qalmaq üçün düşmənini və ya ovunu müəyyən etməlidir. Bunun üçün qarşısındakı canlını çox yaxşı tanımalıdır. Rəbbimiz bəzi güvə növlərinə bu sahədə böyük üstünlüklər bəxş etmişdir. Bu güvələr ən böyük düşmənlərinin, yəni yarasaların yem ovlayarkən istifadə etdikləri yüksək tezlikli səsləri eşidib tanıma xüsusiyyətlərinə malikdirlər.

Güvəyə bu xüsusiyyəti qazandıran mərkəzi sinir sistemini öyrənmək və güvənin yarasadan necə xilas olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar aparan Tafts Universitetindən bir neçə tələbə və elm adamı gecə güvələrinin mərkəzi sinir sistemini tədqiq edərək möcüzəvi nəticələr əldə etdilər. Tədqiqatlar nəticəsində güvələrin qulaqlarındakı xüsusi sistemlə yarasalardan qorunduqları məlum oldu. Sadə görünən bu sistem, əslində, güvənin ultrasəs dalğalarını eşitməsini təmin edən mükəmməl quruluşa malikdir.

## Yarasalar qaranlıqda necə yem ovlayırlar?

Həşəratyeyən yarasalar gecə uçarkən ardıcıl yüksək tezlikli səs yayırlar. Beləliklə, əks-səda mənbəyinin istiqamətini və uzaqlığını müəyyən edərək yemi tapa bilirlər. Bu radar o qədər həssasdır ki, yarasalar bununla ağcaqanaddan da kiçik həşəratları tapa bilirlər.

## Güvələr yarasaların tələsindən necə qorunurlar?

Yarasa mahir ovçu olsa da, bəzi gecə uçan güvə növləri (Noctuidae, Geometridae və Arctiidae ailəsindən olan güvələr) yarasaların ultrasəs siqnallarını eşidən qulaqlara malikdir. Bu qulaqlar güvələrin qanadlarının altında yerləşir və erkən xəbərdarlıq sistemi kimi işləyirlər. Bu yolla yarasaya yem olmaqdan xilas olurlar.

Bir yarasanın yaxınlaşdığını eşitdikdə güvələr adəti uçuşlarından fərqli olaraq havada kəskin hərəkətlər edir və ya qarışıq halqavarı formada uçurlar. Bəzən də böyük sürətlə yarasanın göndərdiyi yüksək tezlikli səsin əks istiqamətində uçurlar. Nyu York Siti Universitetindən Aşer E. Trit yarasaların



hərəkətinə əsasən, fərqli istiqamətdə uçan güvələrin həyatda qalma ehtimalının digərlərinə nisbətən daha çox olduğunu müşahidə etmişdir.

## Düşmənin döyüş planını ələ keçirmə

Müharibə edən iki ölkədən birinin digərinin döyüş planını ələ keçirməsi, əlbəttə, çox vacibdir. Onların istifadə edəcəyi silahların xüsusiyyətindən xəbərdar olması, düşmənin hansı taktika ilə hücum edəcəyi qələbəni asanlaşdıran məlumatlardır. Güvələr də yarasaların bütün hücum taktikalarından xəbərdar olmaqla onlar üzərində qələbə çalırlar. Bu vəziyyət, şübhəsiz ki, güvələrin yaradılışındakı qüsursuz sistemin nəticəsidir. Güvə yarasanın səsini eşidərkən bir çox alternativin baş vermə ehtimalı var. Ancaq məhz güvəyə lazım olan alternativ baş verir və güvə yarasadan xilas olur. Bu ehtimalları təhlil edərək güvənin bacardığı işin əhəmiyyətini vurğulayaq:

- Güvənin səs qəbul etmə mənzili yarasanınkından qısa olsaydı, güvənin qulaqları onu yarasadan qoruya bilməyəcəkdi. Bu təqdirdə, güvə yarasanı görüb qaçmağa çalışsa da, yarasa onu tapacaq və daha sürətlə uçduğu üçün güvəni tutacaqdı.
- Güvə çox yaxındakı yarasanı uzaqda hiss edə bilərdi.
- Güvə yarasanın göndərdiyi səsin istiqamətini səhv anlayaraq qaçmaq əvəzinə yarasaya doğru uça bilərdi.

Ancaq bu ehtimallardan güvələr ən doğru olanını həyata keçirir və yarasaya yem olmaqdan xilas olurlar.

"Əhzab" surəsinin 52-ci ayəsində **"... Allah hər şeyə nəzarət edəndir"** buyurulur. Güvələr də yer üzündəki bütün canlılar kimi, Allahın onların orqanizmində yaratdığı mükəmməl sistemlər və bu sistemlərdən necə istifadə edəcəklərini Allahın onlara ilham etməsilə həyatlarını davam etdirirlər. Allahın ilhamı ilə qüsursuz davranır, doğru seçim edirlər. Güvələrdəki sistem Rəbbimizin yaradılış dəlillərindən biridir.

## Ultrasəs dalğalarını qəbul edən eşitmə sistemi

Güvənin qulağı bizim heç eşitmədiyimiz, 3.2 kilometrdən daha uzaqdakı ultrasəs yarasa səslərini tutur. Bununla bərabər, yarasa səslərini də daxil olmaqla, saniyədə 10-100 kilosikla arasındakı tezlikləri qəbul edir. Ən böyük qabiliyyətləri isə səssizliklərə bölünən qısa səs partlayışlarını müəyyən etmələri və səs impulslarının tezlikləri arasındakı fərqi ayırd etmələridir. Bunlar güvə ilə yarasa arasındakı döyüşdə güvə üçün böyük üstünlükdür.

## Güvələr necə eşidir?

"Scientific American" jurnalında dərc edilən məqalələr əsasında hazırlanmış "Animal Engineering" adlı kitabda izah edilənlər güvələrin orqanizmində qüsursuz kompleksliyə malik sistemin olduğunu



göstərir:

"Güvənin qulaqları sinəsinin arxasında, yan tərəflərdə yerləşir. Qulaq, əsasən, həşəratın sinə və qarnını ayıran dar keçiddə yerləşir. Qulaqlar kənardan baxdıqda kiçik oyuqlar kimi görünür. Bu oyuqların hər birinin içində şəffaf qulaq pərdəsi var". ("Moth ultrasound", Animal Engineering, Readings from Scientific American with Introductions by Donald Griffin, The Rockefeller University W. H. Freeman Com., San Francisco, səh.78)

Güvənin qulağındakı bütün detallar daha yaxşı eşitməsinə və yarasanın ultrasəs siqnalını təhlil etməsinə imkan verir. Güvənin qulağının orta qulaq adlandırılan hissəsində yerləşən pərdənin arxasında hava kisəsi yerləşir. Bu kisənin içində bir tərəfindən digərinə uzanan incə toxuma yerləşir. Bu toxuma güvənin eşitmə sistemi hissələrindən ibarətdir və qulaq pərdəsinin ortasından skelet dəstəyinə qədər uzanır. Bu sıra üzərində A hüceyrəsi adlanan iki eşitmə hüceyrəsi yerləşir. Güvənin qəbul etdiyi yüksək tezlikli səslərlə bağlı bütün məlumatlar A1 və A2 adlanan bu iki A lifindən mərkəzi sinir sisteminə göndərilir.

Sinir liflərindəki elektrik siqnalları 1 voltun 1/1000-2/1000-nə bərabərdir. Güvənin A liflərindəki siqnallar eşitmə hüceyrələrindən mərkəzi sinir sisteminə saniyənin 2/1000-dən daha qısa müddətdə çatırlar.

Bu sinirlər yarasaların yaydığı səs dalğalarını qəbul edə bilirlər. Bundan əlavə, bu dalğalar arasındakı fərqləri və dalğa uzunluqlarını müəyyən etməkdə çox həssasdırlar. Güvə liflərdəki bütün bu xüsusiyyətlərinə görə, uzaqdakı yarasanın uzun, zəif səsini onu öldürmək üçün yaxınlaşan yarasanın güclü səsindən ayırd edə bilir.

## Eşitmə prosesini dəstəkləyən sistemlər

Güvənin iki qulağı olması ona səs mənbəyinin istiqamətini təyin etmə imkanı da verir. Əgər yarasa güvənin solundadırsa, sağdan gələn səs dalğaları soldakına nisbətən saniyənin 1000-də 1-i qədər ləngimə ilə qəbul edilir. İki qulaq arasındakı bu səsi qəbul etmə fərqi güvənin səsin mənbəyinin yerini müəyyən etməsi üçün kifayətdir.

Güvənin qulaqlarındakı heyranedici xüsusiyyətlər bunlarla məhdudlaşmır. Bəzi güvələrin qulaqlarının pərdəli qapağı var. Bu qapaq eynilə bizim qulaq seyvanımız kimi fəaliyyət göstərir. Səsi toplayaraq eşitmə keyfiyyətinin gücləndirilməsinə kömək edir.

**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə (yüklənmiş halda) dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, (Onun) bütün heyvanatı (yer üzünə) yaymasında, küləklərin (istiqamətinin) dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)**



## Güvələrin ultrason səsləri yayma xüsusiyyəti

Bəzi güvələr təkcə ultrason səsləri qəbul etmir, eyni zamanda bu səsləri yayırlar. Bu cür güvələr yarasanı müəyyən etdikdə qaçmır, əksinə, ultrason səs yayırlar. Ancaq bu, təəccüblüdür. Çünki yarasalar ultrason səsləri qəbul etməkdə ustadırlar. Bu halda, güvənin bu hərəkətini bir növ intihar kimi düşünmək olar. Ancaq yarasalar bu cür güvələrlə qarşılaşdıqda sürətlə oradan uzaqlaşırlar. Elm adamları bu davranışı iki cür izah edirlər:

Güvənin çıxardığı səs yarasanın eşitmə sistemini pozur.

Səs yayan güvələrin dadını yarasalar sevmir. Yarasa bu səsi eşitdikdə dadsız yemlə qarşılaşdığını düşünür.

## Güvələr təkamül nəzəriyyəsini təkzib edən yaradılış dəlillərindən biridir

Buraya qədər verilən məlumatları təhlil etdikdə güvələrin həm davranışlarında çox açıq şüur olduğu görünür, həm də orqanizmlərində qüsursuz sistemlər diqqət çəkir. Güvənin ultrasəs dalğaları qəbul etməsi, şərh etməsi, əks dalğalar göndərməsi ayrı-ayrı kompleks orqanların olmasını tələb edir.

Güvələrdəki bu heyranedici sistemlər Allahın canlıları nə qədər qüsursuz yaradılışla yaratdığını göstərən dəlillərdən sadəcə biridir. Canlılardakı bənzərsiz xüsusiyyətlər təkamülçülərin iddia etdikləri kimi, canlıların təsadüfən əmələ gəlmədiklərini, üstün yaradılışla yaradıldıqlarını açıq-aşkar sübut edir. Şübhəsiz ki, bütün canlı və cansız varlıqları bir anda qüsursuz şəkildə yaradan Allahdır. Rəbbimizin sonsuz gücü ayələrdə belə bildirilir:

**Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Hamısı Ona boyun əyər! Məxluqatı ilk dəfə (yoxdan) yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Müdrikdir. (Rum surəsi, 26-27)**

# İslamla şərəflənən ilk qadın səhabə: HZ. XƏDİCƏ

Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) ilk həyat yoldaşı hz. Xədicə olmuşdur. İlk müsəlmanlardan olan hz. Xədicə bəsirəti, gözəl əxlaqı və dərin imanı ilə hər zaman möminlərə gözəl nümunə olmuşdur. O, həmişə Peyğəmbərimizə (s.ə.v) çox dəstək olmuş və Quran əxlaqının yayılmasında maddi və mənəvi səy göstərmişdir.

Allahın **"…Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. (Əhzab surəsi, 40)"** ayəsində bildirdiyi kimi, hz. Muhəmməd (s.ə.v.) peyğəmbərlərin sonuncusudur. O, gözəl əxlaqı, təqvası, Allaha olan yaxınlığı ilə insanlara nümunədir, Allahın dostu, Rəbbimizin qatında üstün olan, möminlərin dostu, ən yaxını və vəlisidir.

Hz. Xədicə peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) ilk həyat yoldaşı və İslamı seçən ilk qadın səhabədir. Hz. Muhəmməd (s.ə.v) Rəbbimizdən vəhy aldığında bunu ilk söylədiyi insan hz. Xədicə olmuşdur. O, yetkinliyi, təvəkkülü, cəsarəti və fədakarlığı ilə bütün müsəlmanlara nümunə olmuşdur.

## Hz. Xədicənin Peyğəmbərimizə (s.ə.v) olan bağlılığı

Rəbbimiz **"… Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat surəsi, 13)"** ayəsi ilə üstünlüyün yalnız təqva ilə olduğunu, qullarının Allaha olan imanları və Allah qorxuları ilə dəyər qazandıqlarını xəbər verir. Peyğəmbərimiz (s.ə.v.) və səhabələri də vicdanla hərəkət etmiş və Allah qorxularını artırmağa çalışmışlar. Hz. Xədicə də Allaha və peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.v) olan dərin hörmət və sevgisi ilə ona həmişə dəstək olmuşdur. Belə ki, Allah Peyğəmbərimizə (s.ə.v) elçiyə hörmət etmək və onu müdafiə etməklə bağlı olaraq belə vəhy etmişdir:

**"Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdarlıq edən (elçi) kimi göndərmişik. (Biz belə etdik) ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz (Allahı) təriflәyəsiniz". (Fəth surəsi, 8-9)**

Hz. Xədicə Peyğəmbərimizə (s.ə.v) peyğəmbərlik mövqeyi veriləndə: "Sənin Allahın elçisi olduğuna şahidlik edirəm", - demiş və müsəlmanlığı qəbul etmişdir. Hz. Xədicə hz. Muhəmmədin (s.ə.v) sözlərindən heç vaxt şübhə etməmiş və bir sözü ilə ona və Allaha təslim olmuşdur. Bu səmimi davranışına görə, Peyğəmbərimizin

(s.ə.v) ən çox dəyər verdiyi və güvəndiyi yoldaşlarından biri olmuşdur. Rəvayətlərə görə, hicrətdən 3 il əvvəl (19 aprel, 620-ci il) vəfat edən hz. Xədicə İslamın hələ hakimiyyət qazanmadığı, çətin və əziyyətli dövrlərdə yaşamışdır. Məkkəli müşriklərdən əziyyət görmüş, lakin çətinliklərə sinə gərərək Allaha qəlbən təslim olmuşdur. Hz. Xədicə hz. Muhəmmədin (s.ə.v) Allahın son peyğəmbəri olduğuna həmişə inanmış, nümunəvi mömin olmuşdur. Rəbbimizin qullarına olan sonsuz sevgisindən, rəhmətindən və əfvediciliyindən əmin olaraq, bu təvəkküllü rəftarını həyatının sonuna qədər qorumuşdur.

## Hz. Xədicənin Allaha olan təvəkkülü

Hz. Xədicə yer üzündə yalnız üç müsəlmanın olduğu dövrdə, İslamın ilk günlərində Peyğəmbərimiz (s.ə.v.) və hz. Əli ilə birlikdə bəzən Kəbədə, bəzən də evində ibadət etmişdir. O dövrdə din əxlaqına görə yaşamayan azğın insanlar isə müsəlmanlarla lağ etmiş və onlara əziyyət vermişlər. İnkarçıların bu davranışlarını Rəbbimiz bu ayə ilə xəbər vermişdir:

**“… Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz…” (Ali-İmran surəsi, 186)**

Hz. Xədicə müşriklərin əziyyətləri və zülmləri qarşısında əsla ümidsizliyə qapılmamış, əksinə, imanı və təqvası daha da artmışdır. Məkkəli müşriklər Şibü Əbi Talibdə müsəlmanları mühasirəyə alanda o, Peyğəmbərimizlə (s.ə.v.) birlikdə təxminən üç il mühasirəyə qərarlı və igidcəsinə səbir etmişdir.

Allahın **“... Əgər səbir edib (Allahdan) qorxsanız, (bilin ki,) bu, əzmkarlıq (tələb edən) əməllərdəndir. (Ali-İmran surəsi, 186)”** hökmünün tələbinə uyğun olaraq hz. Xədicə çətinlik anında Allaha olan sevgisində, təslimiyyətində və etibarında qətiyyət göstərmişdir. Həmişə müsbət və gözəl düşünmüş, Allahın yaratdığı hər hadisənin arxasında böyük xeyirlərin olduğunu bilərək Rəbbimizin köməyinin hər zaman müsəlmanlar üzərində olduğuna inanmışdır.

## Hz. Xədicənin Allah yolunda mübarizəsi

Başda Əbu Ləhəb və arvadı Ümmü Cəmil, Əbu Cahil olmaqla, Qureyş qəbilələrinin rəhbərləri Rəsulullahı (s.ə.v.) durdurmaq üçün çox mübarizə aparmışlar. Ancaq İslamın yayılmasının qarşısını almaq üçün etdikləri bütün cəhdlər nəticəsiz qalmışdır. İşgəncə və təzyiqlə heç kimi din əxlaqından döndərə bilmədiklərini, İslamın yayılmasına mane ola bilmədiklərini görmüşlər. Ona görə də yeni üsul axtarmış və müsəlmanları təzyiq və boykot üsulları ilə durdurmağa çalışmışlar. Razılaşmaya görə, müsəlmanlarla və onları qoruyan qəbilələrlə ticarət əlaqələri kəsiləcəkdi.

Bunun nəticəsində müsəlmanlar ticarət edə bilmədiklərindən qısa müddət ərzində qıtlıqla qarşı-qarşıya qalmış və uzun müddət çətinliklərlə mübarizə aparmalı olmuşlar. Bu dövrdə Peyğəmbərimiz (s.ə.v.), əmisi Əbu Talib və hz. Xədicə müsəlmanların ehtiyaclarını ödəmək üçün bütün mallarını xərcləmişlər. Xüsusilə də hz. Xədicə bütün müsəlmanlara yardım etmiş və bütün gücünü Allah yolunda birlikdə hərəkət etdiyi qardaşları üçün sərf etmişdir. **"...Zövcələri isə möminlərin analarıdır... (Əhzab surəsi, 6)"** ayəsində xəbər verildiyi kimi, onunla birlikdə mübarizə aparan bütün müsəlmanlara bir ana kimi himayə durmuşdur. Heç vaxt dünya malına dəyər verməmiş və sahib olduğu bütün mal-dövlətini tərəddüd etmədən İslamın faydası üçün xərcləmişdir. Allahın **"Doğrudan da, Allah möminlərdən, cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. (Çünki) onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. (Bu, Allahın) Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi, 111)"** ayəsinin tələbi olaraq malını və canını Allah yolunda sevə-sevə vermişdir.

## Hz. Xədicənin alicənablığı və iffəti

Hz. Xədicə iffəti, alicənablığı və təmkini ilə İslamı qəbul etmədən əvvəl də diqqət çəkmiş və sahib olduğu bu gözəl xüsusiyyətlərə görə Tahirə (pak və təmiz qadın) ləqəbi ilə tanınmışdır. Sahib olduğu bu gözəlliklər, eyni zamanda, Peyğəmbərimizin (s.ə.v) onu özünə yoldaş seçməsinə təsir etmişdir.



Hz. Xədicə təmkini, gözəl danışıq üslubu, davranışı, ağlı, fərasəti, gözəl əxlaqı və dərin imanı ilə dövrün cahiliyyə mədəniyyətini mənimsəyən qadınlarından kəskin şəkildə seçilmiş və Rəbbimizin bəyəndiyi müsəlman qadın xarakteri göstərmişdir. Allaha səmimi imanının nəticəsi olan bu gözəl xüsusiyyətlər onu nurlu insan etmişdir. Allah müsəlmanların üzlərindən tanınacağını bir Quran ayəsində bu şəkildə xəbər vermişdir:

**" ... Əlamətləri isə üzlərində olan səcdə izidir..." (Fəth surəsi, 29)**

## Peyğəmbərlərimizi və səmimi iman sahiblərini nümunə götürməyin əhəmiyyəti

Bütün səmimiyyəti ilə Allaha təslim olan, Ona və Rəsuluna qəlbən iman gətirən və onları hər şeydən üstün tutan hz. Xədicə istər sahib olduğu əxlaqi xüsusiyyətlər, istərsə də davranışları ilə bütün müsəlmanlara nümunə olmuşdur. Müşriklərin əziyyət və işgəncələrinə baxmayaraq, heç vaxt vəziyyətindən şikayət etməmiş, Allahın köməyindən əsla ümid kəsməmişdir. Bu üstün və alicənab əxlaqının nəticəsində, inşaAllah, Rəbbimiz onu sonsuz cənnət həyatı ilə mükafatlandırmışdır. (Doğrusunu Allah bilir)

İstər Quranda, istərsə də səhih hədis və rəvayətlərlə bizə xəbər verilən müsəlmanlar Allaha olan dərin imanları və səmimiyyətləri, şübhə etmədən iman gətirmələri ilə bizə həmişə nümunə olmuşlar. Biz də qadın və ya kişi olmasından asılı olmayaraq, bu dəyərli müsəlmanları nümunə götürməli və bütün həyatımızı yalnız Allahın rizasına uyğun şəkildə yaşamalıyıq. Çünki qısa zaman içində dünya həyatı bir gün mütləq sona çatacaq və hesab günü gələcəkdir.

Unutmaq olmaz ki, Rəbbimiz Quranda **"Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz. (Nisa surəsi, 124)"** ayəsi ilə yaxşı işlər görən hər insanı Allahın razılığı, rəhməti və cənnəti ilə mükafatlandıracağını vəd etmişdir. Şübhəsiz, həyatları boyu Allahın razılığını qazanmaq üçün səmimi səy göstərən bütün möminlərin duası da budur.

İnsanın şəxsiyyət və xarakterini möhkəmlədən, əxlaqını gözəlləşdirən iman, Allah qorxusu və təqvadır. Allahın iznilə möminlərdən biri olan hz. Xədicə də böyük hörmətə layiq, şərəfli və təmkinli xarakterə malik olmuşdur.





# PEYĞƏMBƏRLƏRİMİZ NECƏ DUA EDƏRDİLƏR?

***Dua etmək Allaha təslim olmağın bir yoludur və bütün insanlar duaya möhtacdır. Bunun ən hikmətli nümunələri isə Quranda bildirildiyi kimi, bütün peyğəmbərlərin hər işdə Allaha üz tutaraq Ona dua etmələridir. Hz. Muhəmmədin (s.ə.v.) və bütün digər peyğəmbərlərin dualarında həm Allaha olan təslimiyyətlərini, Allahı yeganə dost və yardımçı hesab etdiklərini, həm də Rəbbimizin şanını ən gözəl isimlərilə ucaldıb təqdis etdiklərini görürük.***

## Peyğəmbərimiz Hz. Muhəmmədin (s.ə.v.) duaları

Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v.) dualarında Allahı isimlərilə zikr etdiyini görürük. Peyğəmbərimizin (s.ə.v.) duaları ayələrdə belə bildirlir: **"Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir (yalnız) Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən" (Ali-İmran surəsi, 26).** Rəvayətlərdə də Peyğəmbərimizin (s.ə.v.) Rəbbimizə ona gözəl əxlaq və xüsusiyyətlər bəxş etməsi üçün dua etdiyi bildirilir:

***"Allahım! Yaradılışımı və əxlaqımı gözəlləşdir. İlahi! Məni pis əxlaqdan uzaqlaşdır".*** (Tırmizi, İmam Ahmed ve Hakimden; Huccetül İslam İmam Gazali, İhyau Ulumid-din, 2-ci cild. Tərcümə edən: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 789)

## Hz. Nuhun (ə.s.) duası

Quranda illər boyu nümunəvi qətiyyətlə qövmünü tövhid inancına dəvət edən hz. Nuhun (ə.s.) səbri təriflənmişdir. Hz. Nuh (ə.s.) ona və yanındakı möminlərə düşmənçilik edən qövmünə qarşı qətiyyətlə mübarizə apamışdır. Hz. Nuhun (ə.s.) düşdüyü hər vəziyyətdə Allaha üz tutması, Onun köməyinə ümid bəsləyərək səmimi dua etməsi möminlərə nümunədir. Bir ayədə hz. Nuhun (ə.s.) vəziyyətini Allaha bildirdiyi və belə dua etdiyi xəbər verilmişdir: **"O, Rəbbinə yalvarıb: "Məni üstələdilər! (Mənə) kömək et!"– dedi" (Qamər surəsi, 10).** Allah hz. Nuhun (ə.s.) bu duasını qəbul etmiş və tezliklə qopacaq tufana hazırlıq görməsini əmr etmişdir. Hz. Nuh (ə.s.) yaxınlıqda hər hansı dəniz və ya göl olmasına baxmayaraq, Allahın əmrilə gəmi düzəltməyə

başlamışdır. Gəmini hazırlayarkən qövmü tərəfindən mənəvi təzyiq davam etmişdir. Vaxt tamam olduqda Allahın vədi yerinə yetmiş və tufan qopmuşdur.

## Hz. Yunusun (ə.s.) duası

Quranda bu dəyərli Peyğəmbərimizin dəvətini qəbul etmədikləri üçün qövmünü tərk edib getdiyi bildirilir (Saffat surəsi, 139-142). Ayələrdə bildirildiyi kimi, daha sonra hz. Yunusun (ə.s.) mindiyi gəmidə sərnişinlər arasında püşk atılmış və nəticədə, onun dənizə atılmasına qərar verilmişdir. Dənizə atılan hz. Yunusu (ə.s.) nəhəng balıq udmuşdur. Bu hadisələrdən sonra hz. Yunus (ə.s.) Allaha sığınıb dua etmişdir. Allah Quranda bu hadisəni belə xəbər vermişdir: **"Zün-Nunu (balıq sahibi Yunusu) da (yada sal!) Bir zaman o (ümmətinə qarşı) qəzəblənərək çıxıb getmiş və onu möhnətə düçar etməyəcəyimizi güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" (Ənbiya surəsi, 87-88).** Ayələrdə bildirildiyi kimi, hz. Yunus (ə.s.) duasında öz vəziyyətini səmimi etiraf etmişdir. Allaha dua etmiş, səbirlə yardım etməsini gözləmişdir. Sonsuz mərhəmət sahibi Rəbbimiz hz. Yunusun (ə.s.) tövbəsini qəbul etmiş və duasına qarşılıq verərək onu balığın qarnından xilas etmişdir.

## Hz. Əyyubun (ə.s.) duası

Quranda hz. Əyyubun (ə.s.) səbri möminlərə nümunədir. Allahdan vəhy alan və seçilmiş qul olan hz. Əyyub (ə.s.) (Nisa surəsi, 163) böyük sıxıntıya düçar olaraq çətin dövr keçirmişdir. Ancaq düşdüyü ağır vəziyyətə baxmayaraq, daima səbirli və Allaha olan təvəkküllü davranışı ilə möminlərə nümunə olmuşdur (Sad surəsi, 44). Bu müqəddəs Peyğəmbərimizin səmimi duası bir ayədə belə bildirilmişdir: "**Əyyubu da (yada sal!) Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" (Ənbiya surəsi, 83)**. Allahın əməlisaleh qullarından biri olan hz. Əyyubun (ə.s.) duasını qəbul etdiyi bir Quran ayəsində belə bildirilir: **"Biz onun duasını qəbul etdik və ona düçar olmuş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik bir o qədər də əlavə etdik". (Ənbiya surəsi, 84)**






# 6 GÜNDƏ YARADILIŞ

Yaşadığımız kainatın yaşı bir çox tədqiqatın mövzusudur. Bu mövzu ilə bağlı ən dolğun və düzgün məlumat isə Allahın 1400 il əvvəl nazil etdiyi Quranda verilmişdir. Müasir dövrümüzdə aparılan tədqiqatların nəticələrinin Quranda Rəbbimizin altı gündə yaradılış haqqında verdiyi məlumatlarla uyğunluq təşkil etməsi Quranın möcüzələrindən biridir.

Müasir elmlə Quran arasındakı uyğunluğun başqa bir nümunəsi isə kainatın yaşıdır: kosmoloqlar kainatın yaşının 16-17 milyard il olduğunu hesablayıblar. Quranda isə bütün kainatın 6 gündə yaradıldığı açıqlanır. İlk baxışda fərqli görünən bu zaman kəsikləri arasında, əslində, çox təəccüblü uyğunluq var. Əslində, kainatın yaşı ilə əlaqədar bizə məlum olan bu iki rəqəmin hər ikisi doğrudur. Yəni kainat Quranda bildirildiyi kimi, 6 gündə yaradılmışdır və bu müddət bizim zamanı qavradığımız formada 16-17 milyard ilə bərabərdir.

1915-ci ildə Eynşteyn zamanın nisbi olduğunu, məkana, səyahət edən şəxsin sürətinə və o andakı yerin cazibə qüvvəsinə görə zamanın axım sürətinin də dəyişdiyini irəli sürmüşdür. Zamanın axım əmsalındakı bu fərqləri nəzərə aldıqda Quranda 7 müxtəlif ayədə bildirilən kainatın yaradılış müddətinin elm adamlarının hesablamaları ilə uyğun olduğu görünür. Quranda bildirilən 6 günlük müddəti 6 dövr kimi düşünək. Çünki zamanın nisbiliyini nəzərə alsaq, gün bugünkü şərtlərlə Yer kürəsindəki 24 saatlıq zaman kəsiyini ifadə edir. Ancaq kainatın başqa yerində, başqa zamanda və şəraitdə gün daha uzunmüddətli zaman kəsiyidir. Belə ki, bu ayələrdə (Səcdə surəsi, 4; Yunus surəsi, 3; Hud surəsi, 7; Furqan surəsi, 59; Hədid surəsi, 4; Qaf surəsi, 38; Əraf surəsi, 54) işlədilən 6 gün (sittəti əyyamin) ifadəsindəki "əyyamin" sözü "günlər" mənası ilə bərabər, "dövr, an, müddət" mənalarını da verir.

Kainatın ilk dövrlərində zaman bugünkü alışdığımız axım sürətindən daha sürətlə axmışdır. Bunun səbəbi budur: "Biq Bənq" anında (kainatın ilk yaranma anı) kainat çox kiçik bir nöqtəyə sıxışdırılmışdı. Bu böyük partlayış anından bəri kainatın genişlənməsi və həcminin böyüməsi kainatın sərhədlərini milyardlarla il artırdı. Belə ki, "Biq Bənq"dən etibarən kosmosun genişlənməsinin universal saata da mühüm təsiri olub.

"Biq Bənq" anındakı enerji universal zamanın axım sürətini milyon dəfə milyon ($10^{12}$) qat yavaşlatmışdır. Kainat yaradıldıqda



universal zamanın axım əmsalı dövrümüzdəki zaman anlayışı ilə müqayisədə milyon dəfə milyon qat böyük idi, yəni zaman daha sürətlə keçirdi. Ona görə, Yerdə milyon dəfə milyon dəqiqə keçdikdə kainatda sadəcə bir dəqiqə keçmiş olur.

Zamanın nisbiliyi nəzərə alınaraq hesablandıqda 6 günlük zaman kəsiyi 6 milyon dəfə milyon (trilyon) gün edir. Çünki universal zaman Yerdəki zamandan milyon dəfə milyon qat sürətlə axır. 6 trilyon gün təxminən 16.427 milyarda uyğun gəlir. Bu rəqəm dövrümüzdə kainatın təxmin edilən yaşıdır.

6.000.000.000.000 gün / 365.25 = 16.427.104.723 milyard

Digər tərəfdən, yaradılışın 6 gününün hər biri bizim zaman anlayışımızla bir-birlərindən fərqli zamanlara uyğun gəlir. Bunun səbəbi zamanın axım əmsalının kainatın genişlənməsi ilə tərs mütənasib olaraq azalmasıdır. "Biq Bənq"dən etibarən kainatın böyüklüyü 2 dəfə artdıqca zamanın axma əmsalı yarım dəfə azalmışdır. Kainat böyüdükcə kainatın böyümə sürəti də getdikcə artan şəkildə yavaşlamışdır. Bu genişlənmə sürəti "Fiziki kosmologiyanın əsasları" adlı dərsliklərdə izah edilən, dünyanın hər yerində məlum olan bir həqiqətdir. Yaradılışın hər gününü Yerdəki zamanla hesabladıqda qarşımıza aşağıdakı ədədlər çıxır:

Zamanın başladığı andan etibarən yaradılışın 1-ci günü (1-ci dövr) 24 saat davam etmişdir. Ancaq bu müddət Yerdəki zamanla 8 milyard ilə bərabərdir.

Yaradılışın 2-ci günü (2-ci dövr) 24 saat davam etmişdir. Bizim zamanla bu, əvvəlki günün yarısı qədərdir, yəni 4 milyard ildir.

3-cü gün (3-cü dövr) isə əvvəlki günün, yəni 2-ci günün yarısı qədər – 2 milyard il davam etmişdir.

4-cü gün (4-cü dövr) 1 milyard il,
5-ci gün (5-ci dövr) 500 milyon il,
6-cı gün (6-cı dövr) 250 milyon il davam etmişdir.

Nəticə: yaradılışın 6 günü, yəni 6 dövrü Yerdəki zamana uyğun hesablanıb toplandıqda 15 milyard 750 milyon il edir. Bu rəqəm dövrümüzdəki təxminlərlə paralellik təşkil edir.

Bu nəticə XXI əsrdə elmin ortaya qoyduğu faktlardır. Elm 1400 il əvvəl Quranda xəbər verilmiş həqiqəti təsdiq edir. Quran və elm arasındakı bu uyğunluq Quranın hər şeyi bilən və yaradan Allahın vəhyi olduğunun dəlilidir. Rəbbimiz altı gündə yaradılışı ayədə belə bildirmişdir:

**Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allahdır... (Əraf surəsi, 54)**



# Allah qorxusu və CƏHƏNNƏM

**Möminlərin Allah qorxusu necə olmalıdır?**

**Allah qorxusu digər qorxulardan hansı xüsusiyyəti ilə fərqlənir?**

**Bu qorxu möminlərə hansı nəcib əxlaqi xüsusiyyətləri qazandırır?**

Allah Quranın bir çox ayəsində Ondan qorxmağı insanlara əmr etmişdir:

**Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

Quran əxlaqını bilməyən və ya həyatlarına tam hakim etməyən bəzi insanlar Allahdan qorxmağın əhəmiyyəti və vacibliyini yaxşı anlamırlar. Bu, onların Quran bilgisinin az olmasından və Allah qorxusunun həqiqi mahiyyətini bilməmələrindən qaynaqlanır.

Allah qorxusu Quran əxlaqına uyğun yaşamayan insanların həyatındakı qorxulara bənzəmir. Quran əxlaqına uyğun yaşamayan insanlar din əxlaqından uzaq qalmağın təbii nəticəsi olaraq bədbin ruh hallarına görə bir çox qorxunun əsirinə çevrilirlər. Gələcək qorxusu, yaşlanma qorxusu, tək qalma qorxusu, ölüm qorxusu, qəflətən ağır, ölümcül xəstəliyə tutulma qorxusu, ələ salınma qorxusu, uğursuzluq qorxusu, zəlzələ qorxusu və bir çox başqa qorxuların əsirinə çevrilən bu insanlar çox bədbəxt həyat yaşayırlar. Hər an başlarına pis hadisə gələcəyindən narahat olaraq həddindən artıq gərgin olurlar.

Bu şəxslər Allah qorxusunu da öz qaranlıq dünyalarındakı qorxular kimi zənn edirlər.



Halbuki Allah qorxusunun yuxarıda sadaladığımız qorxu növləri ilə heç bir əlaqəsi və bənzərliyi yoxdur. Allah qorxusu Allahı tanıyan, Onu çox sevən insanda əmələ gələn hörmət dolu, insana coşğu və həyəcan verən nəcib hissdir. Yuxarıda sadalanan qorxuların əksinə, Allah qorxusu insanı böyük rahatlıq və xoşbəxtliyə sövq edən, ağlını və cəsarətini artıran, sonsuz şövqə və coşğun imanına səbəb olan, insana dərin anlayış, hikmət və heybət verən qorxudur. Allahdan qorxan insan gələcək qorxusu, ölüm qorxusu, xəstəlik qorxusu, tək qalma qorxusu və bu kimi dünyəvi qorxulara qapılmaz. Çünki başına nə gəlsə, nə ilə qarşılaşsa, bunun yeganə gerçək dostu olan Allahın onun üçün yaratdığı xeyirli qədər olduğunu bilər. Allahı özünə dost tutmağın rahatlığını yaşayar, hər işində ancaq Allaha üz tutar.

## Allah qorxusu insana gözəl əxlaq qazandırır

Allahdan qorxan insan cəmiyyətdəki ən etibarlı şəxsdir. Allahdan qorxduğu üçün yalan danışmaz, Allahın razı olmadığı pis davranışlardan çəkinər, öz mənfəətini deyil, başqalarının mənfəətini güdər, öz rahatlığını deyil, başqalarının rahatlığını düşünər, ətrafına daima xeyir və gözəllik bəxş etməyə çalışar. Allahdan qorxan insan səmimilik, dürüstlük, vəfa, sədaqət, fədakarlıq kimi gözəl əxlaqi xüsusiyyətlərə malik olar. Allah qorxusu olmayan insanda isə bu xüsusiyyətlər müntəzəm olmaz. Bu cür insan Rəbbimizin onu sorğu-sual edəcəyinə, cəhənnəmə girib etdiyi pis əməllərin qarşılığını alacağına inanmadığı üçün qısa dünya həyatında öz mənfəətindən əl çəkərək fədakarlıq edib gözəl davranmaz. Allahdan qorxan müsəlman isə bunun əksinə davranar. Hər işdə Allah qorxusundan qaynaqlanan güclü vicdanını dinləyər və öz mənfəətini deyil, din əxlaqının həddlərini qoruyar.

## Müsəlman cəhənnəmdəki əzabdan qorxar

Bir insan hal-hazırda cəhənnəmin kənarında olsaydı, oradakı zəbanilərin cəhənnəm əhlinə etdiyi dözülməz işgəncələri görsəydi, alovun uğultusunu, cəhənnəm əhlinin çığırtılarını, iniltilərini, əziyyətlə nəfəs aldıqlarını, bir daha dünyaya qayıtmaq istəyən peşmançılıq dolu yalvarışlarını eşitsəydi, şübhəsiz ki, içini dəhşətli qorxu bürüyərdi. Möminlər cəhənnəmi görmədikləri halda cəhənnəmin həqiqət olduğunu və cəhənnəm əzabının şiddətini Qurandan öyrəndikləri üçün cəhənnəmdən və Allahın razılığını itirməkdən qorxarlar. Allah bir ayəsində möminin Onun məqamından qorxduğu kimi təhdidindən də qorxduğunu bildirmişdir:

**... Bu, məqamımdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir. (İbrahim surəsi, 14)**

Allahın təhdidi Rəbbimizə iman gətirməyən və itaət etməyən, Onun razılığını istəməyən, əmr və qadağalarına əməl etməyənlər üçün vəd etdiyi maddi-mənəvi əbədi əzabdır. Bunun yeri isə cəhənnəmdir. Mömin bu dünyada heç kimin Allahın əzabından əmin olmadığını



çox yaxşı bilir. Ona görə Allahın inkarçılara vəd etdiyi cəhənnəmdəki dözülməz sonsuz əzaba düşməkdən qorxur. Ayələrdə müsəlmanların cəhənnəm əzabından qorxusu belə bildirilir:

**Mənə həm də müsəlmanların birincisi olmaq əmr olunmuşdur". De: "Rəbbimə asi olsam, o əzəmətli günün əzabından qorxaram". (Zumər surəsi, 12-13)**

**De: "Mən göyləri və yeri Yaradan, hamını yedirib Özü yeməyən Allahdan başqasınımı dost tutacağam? De: "Mənə (Allaha) təslim olanların birincisi olmaq əmr edildi". Odur ki, sən müşriklərdən olma. De: "Əgər mən Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram". (Ənam surəsi, 14-15)**

## Cəhənnəm ayələri üzərində düşünməyin əhəmiyyəti

Cəhənnəm haqqında düşünmək müsəlmanın imanını dərinləşdirər, Allah qorxusunu artırar, əxlaqını gözəlləşdirər. Müsəlman Allahın Quranda ətraflı təsvir etdiyi cəhənnəmdən qorxar, cəhənnəmin xüsusiyyətlərini daima xatırlayar və cəhənnəmin bir addım yaxınlığında olduğunu düşünərək davranar.

Mömin bu dünyada heç kimin Allahın əzabından əmin olmayacağını yaxşı bilir. Buna görə Allahın inkarçılara vəd verdiyi dözülməz cəhənnəm əzabından qorxur. Möminlərin bu ruh halı Quranda belə xəbər verilir:

**O kəslər ki, Haqq-hesab gününü təsdiq edirlər. O kəslər ki, Rəbbinin əzabından qorxurlar. Şübhəsiz, Rəbbinin əzabından arxayın olmaq olmaz. (Məaric surəsi, 26-28)**

Allahdan içi titrəyərək qorxan möminlər Quran oxuyarkən cəhənnəm haqqındakı ayələrin hər birini öz nəfsləri üzərində düşünərlər. Çünki Quran ayələrində Allahın daima möminlərə müraciət edən xəbərdarlığı və təhdidləri yer alır. İnkarçılar isə onsuz da Allahın kitabını oxumur, oxusalar belə, qavramırlar. Ona görə möminlər bu ayələrin Allahın mömin qullarını xəbərdar etmək və onları cəhənnəmdən çəkindirmək üçün olduğunu bilirlər. Çünki ancaq möminlər, Allahın iznilə, Qurandan öyüd alır və Allahın əzabından qorxurlar. Buna görə digər insanları deyil, Quranda təriflənən təqvalı möminləri və üstün əxlaqlı peyğəmbərlərimizi özlərinə nümunə götürürlər. Nəticədə "cəhənnəm ayələri digər insanlara aiddir, mən mömünəm" şəklində yanlış düşünmürlər. Möminlər imanlarına görə Allahdan xilas olmağı və Onun rəhmətini ümid edirlər. Əlbəttə, möminlərin bu ümidi **"...qorxu və ümid içində öz Rəbbinə yalvarırlar..." (Səcdə surəsi, 16)** ayəsində bildirildiyi kimi, son anlarına qədər Allah qorxusu ilə dolu ümiddir.



# Bir Ayə Bir Açıqlama

**Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik. (Muminun surəsi, 96)**

Allah bu ayə ilə möminlərə qarşılarına çıxan hər pisliyə ən gözəl şəkildə cavab verməyi buyurur. Bu üstün əxlaqi xüsusiyyət İslam əxlaqında sülh, tolerantlıq və təvazökarlığın əhəmiyyətinə və möminlərin yüksək əxlaqına diqqət çəkir.

Pis davranışa qarşı şəfqətli, mərhəmətli, gözəl davranmaq Qurana əsasən, üstün əxlaq göstəricisidir və möminlərin mərhəmət hisslərini ifadə edir. İman gətirənlər qarşılarındakı insanların davranışlarına görə əxlaq anlayışlarını dəyişdirməzlər. Qarşı tərəf ələ sala bilər, çirkin sözlər deyə bilər, qəzəbələnər, pislik edər və ya ədavət aparar. Ancaq möminin nəcibliyi, təvazökarlığı, mərhəməti və mülayimliyi əsla dəyişməz. Deyilən pis sözə eynilə qarşılıq verməz. Ələ salana ələ salmaqla, qəzəbə qəzəblə cavab verməz. Qəzəblənən insana qarşı sakit və təmkinli olar. Səbir edər və tolerant davranar. Acıdilli insanla onu əməlindən utandıran, gözəl əxlaqa təhrik edən tolerantlıq və mərhəmət anlayışı ilə davranar.

Qarşı tərəfin pis davranışı insanın pis əxlaq göstərməsinə əsas vermir. Hər insan əməllərinə görə Allah qarşısında tək məsuliyyət daşıyır. Allah ayənin ardında pis əxlaqlı insanları və davranışlarını Özünün yaxşı bildiyini xəbər verir.

Quran əxlaqında Allah rizasına ən uyğun davranış ən gözəl davranışdır. Allah pisliyi yaxşılıqla dəf etməyin, yaxşılığa isə yaxşılıqla qarşılıq verməyin gözəl əxlaqi xüsusiyyət olduğunu bildirir. Ona görə, bütün müsəlmanlar Quran əxlaqına zidd olan hər cür kobud, qəzəbli, davakar üslubdan tamamilə uzaq durmalı, əksinə, sonsuz rəhmət sahibi Allahın Quranda bildirdiyi mülayim, tolerant, təmkinli və ağıllı üslubu mənimsəməlidirlər.

# Materialist düşüncə elmə necə zərər verir?



150 ildir ki, təkamül və materializm kimi xürafatlara inanmaq və onları müdafiə etməyə çalışmaq elm dünyasının önündəki ən böyük maneəyə çevrilib. Materializmin tələsindən qurtularaq tarixin düzgün istiqamətləndirilməsi əmək, vaxt və pul itkisinin qarşısını alar.

Kainatı və varlıqları araşdırmaq, Allahın yaratma sənətindəki ehtişamı kəşf etmək və bu həqiqəti insanlara bildirmək üçün elm ən gözəl vasitələrdən biridir. Bu səbəbdən, elmi araşdırmaların Rəbbimizin Quranda bildirdiyi həqiqətlər istiqamətində dəyərləndirilməsi böyük əhəmiyyət daşıyır. Çünki:

- **Quran elmi təşviq edir.**

- **Quranda bildirilən həqiqətlərə görə istiqamətləndirilən elmi araşdırmalar çox sürətli və konkret nəticələr verir.**

- **Ən əhəmiyyətlisi də odur ki, kainatın və canlıların necə var olması sualına ən doğru və ən qəti cavabı verən yeganə qaynaq Qurandır.**

Bu səbəbdən, doğru yerdən başlayaraq aparılan araşdırmalar kainatın və canlıların var olmasına aid sirləri ən qısa zamanda daha az əmək və az enerji sərf edərək ortaya çıxarar.

Quranın yol göstərmədiyi elm isə inkişaf edə bilməz, konkret nəticələrə yiyələnməsi çox vaxt aparar və hətta çox vaxt nəticəsiz olar. Doğrulardan uzaq olan və materialist elm adamları tərəfindən istiqamətləndirilən elmin son iki yüz ildə bizə nə qədər vaxt itirdiyi isə gözlər önündədir. Həqiqətləri görə bilmədikləri üçün bu yolda gördükləri işlərin böyük hissəsi heç olmuş və bu yolda xərclənən külli miqdarda pul boşa getmişdir.

Məhz bu səbəbdən, insanlar bu həqiqəti bilməlidirlər: elm ancaq Allahın sonsuz qüdrətini, kainatdakı yaradılış dəlillərini araşdırdıqca doğru nəticələr əldə edə bilər. Elm ancaq doğru istiqamətləndirildiyi təqdirdə əsl məqsədinə qısa müddətdə çata bilər.

## Elmin doğru istiqamətləndirilməsi niyə əhəmiyyətlidir?

Elmin ilk mərhələsi fərziyyə xarakterlidir və bu müddət elm adamlarının mənimsədiyi əsas dünyagörüşü ilə əlaqədardır. Məsələn, elm adamları sahib olduqları dünyagörüşü səbəbindən “maddənin hər hansı bir şüurlu tənzimləməsi olmadan öz-özünü



tənzimləmə meyli vardır" kimi ağıl və elmdən kənar fərziyyə irəli sürə bilərlər. Sonra da bu fərziyyəni təsdiqləmək üçün illərlə araşdırmalar apara bilərlər. Amma maddənin belə bir xüsusiyyəti yoxdur və dolayısilə, bütün səylər müvəffəqiyyətsizliklə nəticələnər və çox böyük vaxt və pul itkisinə səbəb olar. Halbuki əvvəldən "maddənin hər hansı bir şüurlu tənzimləməsi olmadan öz özünü tənzimləməsi mümkün deyil" fikri ilə yola çıxsalar, buna əsaslanan elmi araşdırmalar da çox sürətli və məhsuldar olar.

Diqqət yetirsək, bu cəhət, yəni fərziyyəni doğru təyin etmə xüsusiyyəti elmi tapıntılardan fərqli qaynaq tələb edir. Bu qaynağı doğru təsbit etmək isə çox əhəmiyyətlidir. Çünki qaynağın yanlış təyin olunması elm dünyasında illərin, on illərin, hətta əsrlərin itməsinə səbəb ola bilər. Bu qaynaq isə Allahın insanlara çatdırdığı vəhydir. Çünki Allah kainatın və bütün canlıların yaradıcısıdır və dolayısilə, onlar haqqında ən doğru məlumat Allahdan gələn məlumatdır. Belə ki, Allah Quranda bu mövzular haqqında bizə əhəmiyyətli məlumatlar verir.

## Quranda xəbər verilən elmi həqiqətlərdən nümunələr

Allah kainatı yoxdan var etmişdir. Materialist elm adamlarının iddia etdiyi kimi, kainat təsadüfi hadisələr nəticəsində və ya özbaşına meydana gəlməmişdir. Təbiətdə və bütün kainatda təsadüflərin meydana gətirdiyi xaos deyil, Allahın üstün yaradılışla var etdiyi qüsursuz bir nizam var.

Yaşadığımız dünyanın bütün xüsusiyyətlərini insan həyatına uyğunlaşdıran Allahdır. Allah ulduzların və planetlərin hərəkətlərini, yer üzünün müxtəlif formalarını, suyun və ya atmosferin xüsusiyyətlərini insan həyatına uyğunlaşdırmışdır.

Bütün canlı növlərini Allah yaratmışdır və bu canlıların hərəkətləri də Allahın xüsusi ilhamı ilə reallaşır. Allah yaradılış haqqında bir ayəsində belə buyurur:

**Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)**

Bunu əsas kimi götürən bir elm anlayışı da, şübhəsiz ki, böyük müvəffəqiyyət əldə edər, çox məhsuldar şəkildə insanlara xidmət edər. Belə ki, tarixdə bunun açıq nümunələri vardır. Müsəlman elm adamlarının IX və X əsrlərdə dünyanın ən qabaqcıl sivilizasiyasına liderlik etmələri elmin yuxarıda sadalanan doğru əsaslarına söykənərək inkişaf etdirilməsi sayəsində mümkün olmuşdur. Qərbdə də fizika, kimya, astronomiya, biologiya, paleontologiya kimi elm sahələrinin bütün qabaqcılları Allahın varlığına inanan və Onun yaratdıqlarını araşdıran böyük elm adamlarıdır. Ancaq XIX əsrin ortalarından bu yana elm dünyası Allah inancından uzaqlaşaraq materialist fəlsəfənin təsiri altına düşmüşdür.




## Səhv istiqamətləndirilən elmin çarəsizliyi

Materializm maddənin mütləq varlığına inanır. Əslində, Allahı və Onun mütləq hakimiyyətini inkar etmək məqsədilə materialistlər bu iddialarını (Allahı tənzih edirik) elm dünyasına mərhələli şəkildə mənimsətmiş və XIX əsrin ikinci yarısından etibarən elmi araşdırmaların böyük hissəsini bu iddiaları dəstəkləməyə ayırmışlar.

Ancaq bu gün geriyə dönüb baxsaq, materializmin iddialarının elmə yalnız vaxt itirtdiyini görərik. Çünki bu iddiaların hər birini isbat etmək üçün on illərlə saysız elm adamı çalışmış, ancaq ortaya çıxan nəticələr bu iddiaların əsassızlığını göstərmişdir. Tapıntılar Allahın Quranda xəbər verdiyi kimi:

Kainatın insan həyatına uyğun olaraq yoxdan yaradıldığını və canlıların təsadüflərlə doğulması və təkamül keçirməsinin qeyri-mümkün olduğunu isbat etmişdir.

## Təkamül nağılını sübut etmə səyi elmə zərər verir

Hal-hazırda hələ iman gətirməyən insanlar tərəfindən böyük dəstək görən Darvinin təkamül nəzəriyyəsi elmin yanlış təməl üzərinə qurulmasının ən konkret nümunəsidir. 140 il əvvəl elm dünyasının gündəminə girən bu nəzəriyyə, əslində, bütün elm tarixinin ən böyük yanılmasına səbəb olmuşdur.

Təkamül nəzəriyyəsi canlıların təsadüflər nəticəsində bəzi cansız maddələrin bir yerə gəlməsi ilə meydana gəldiyini iddia edir. Eyni iddiaya görə, təsadüfən yaranan bu canlılar yenə təsadüf nəticəsində təkamül keçirərək başqa canlılara çevrilmişlər. Bu ssenarinin isbat edilməsi üçün yarım əsrdir ki, böyük bir səy göstərilir, amma elmi dəlillər həmişə nəzəriyyənin əleyhinə olur. Bütün dəlillər təkamülün əsla reallaşmadığını, canlıların bir-birinə mərhələli çevrilməsinin mümkün olmadığını, bütün canlı növlərinin ayrı-ayrı və olduqları kimi yaradıldıqlarını göstərir. Bu açıq dəlillərə baxmayaraq, bu iddianı isbat etmək üçün təkamülçülər minlərlə araşdırma və təcrübə aparır, yalnız boş sözlərdən və aldatmacalardan ibarət cild-cild kitablar yazır,



institutlar qurur, konfranslar verir, televizor proqramları hazırlayırlar. Bu azğın yolda minlərlə elm adamının vaxtının və imkanın heç edilməsi insanlıq üçün böyük itkidir. Əgər bu imkanlar yerində istifadə edilsəydi, bu günə qədər elmdə daha çox faydalı mövzularda, daha çox əhəmiyyətli addımlar atıla və qəti nəticələr əldə edilə bilərdi. Bəzi elm adamları və mütəfəkkirlər də təkamülün nə cür böyük bir yanılma olduğunu görürlər. Məsələn, amerikalı filosof Malcolm Muggeridge bu mövzuda belə deyir:

***"Mən özüm təkamül nəzəriyyəsinin gələcəyin tarix kitablarındakı ən böyük rişxənd mövzularından biri olacağına inanmışam. Gələcək nəsillər bu qədər əsassız və qeyri-müəyyən bir fərziyyənin inanılmaz sadəlövhlüklə qəbul edilməsini heyrətlə qarşılayacaqlar".*** (Malcom Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s. 59)

Təkamül və materializm kimi xürafatlara inanmaq və bunları elmə baxmayaraq müdafiə etmək psixoloji istiqamətdən elm adamlarını da çətinliyə salır. Kainatdakı ahəng və ya canlılardakı yaradılış onlar üçün böyük çətinlik qaynağı olur. Gördükləri açıq-aşkar dəlillərə gözlərini bağlayan bu insanlarda həqiqətlərə laqeydlik və bununla bağlı mühakimə pozuqluğu yaranır.

## Nəticə

Ətrafımızda və yaşadığımız kainatda təkamül nəzəriyyəsinin qurucusu Darvini də ("Bir tovuzquşunun tüklərini görmək məni az qala dəli edir".) (Çarlz Darvin)) yaradılışa aid fövqəladə dəlillərin olması narahat edirdi. Bir ağcaqanaddakı heyranedici sistem, bir tovuzquşunun qanadlarındakı möhtəşəm sənət, göz kimi kompleks və mükəmməl bir orqan və milyonlarla varlıq iman gətirən insanlar üçün Allahın varlığının və Onun üstün elminin və ağlının dəlillərindən yalnız bir neçəsidir. Yaradılış həqiqətini qəbul edən elm adamı da təbiəti bu gözlə araşdırar, apardığı hər müşahidədən, hər təcrübədən böyük zövq alar və Allahın iznilə yeni araşdırmalar üçün güc tapar. IX və X əsrlərdə imani məsuliyyətin təyin etdiyi çərçivədə elmə xidmət edən, elmin ancaq Allah qatında olduğunu bilən müsəlman alimlər yaşadıqları dövrə və sonrakı dövrə necə rəhbərlik edə bilmişlərsə, güclü səmimiyyətlə Quranın hikmətinə sığınan bu günkü elm adamlarımız da bundan sonrakı əsrləri işıqlandıracaq inkişaflara Allahın iznilə imza atacaqlar. Rəbbimizin bildirdiyi kimi: **"Həqiqətən, bu Quran, ən doğru yola yönəldir..." (İsra surəsi, 9)**

***"Dərin imana sahib olmayan həqiqi elm adamı düşünə bilmirəm. Bu vəziyyət belə ifadə edilə bilər: dinsiz bir elmə inanmaq qeyri-mümkündür".*** (John Clover Monsma, The Evidens Of God İn Expanding Universe (Genişlənən kainatda Allahın varlığının dəlilləri), s. 256) Albert Eynşteyn

# HƏŞƏRATLARDAKI ÜSTÜN UÇMA SİSTEMLƏRİ



***Bir həşərat saniyədə 1000 dəfə qanad çırpmağı necə bacarır? Öz boyundan yüz dəfə hündür yere necə tullana bilir? Aşağı-yuxarı hərəkət edən qanadlarla irəliyə doğru necə uça bilir?***



Quranda Rəbbimizin sonsuz elmini göstərən canlılardan biri olan milçəkdən bəhs edilir. Allah "Həcc" surəsininə 73-cü ayəsində belə buyurur:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. Bunu etmək istəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**



- **Bir həşərat saniyədə 1000 dəfə qanad çırpmağı necə bacarır?**
- **Öz boyundan yüz dəfə hündür yerə necə tullana bilir?**
- **Aşağı-yuxarı hərəkət edən qanadlarla irəliyə doğru necə uça bilir?**

Quranda Rəbbimizin sonsuz elmini göstərən canlılardan biri olan milçəkdən bəhs edilir.

Allah "Həcc" surəsinin 73-cü ayəsində belə buyurur:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. İstəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

Canlılardakı bir çox möcüzəvi xüsusiyyət dövrümüzdə Allahın bəşəriyyətə bəxş etdiyi bilik və texnologiya ilə tədqiq olunmasına baxmayaraq, hələ də tam aşkar edilməmişdir. Allahın yaratdığı hər şeydə olduğu kimi, milçəyin bədənində də imanlı insanın Allaha olan dərin sevgisini və bağlılığını artıran üstün elm vardır. Elm adamlarının milçəklərin və kiçik həşəratların uçma sistemləri üzərində apardığı araşdırmaların bir qismi aşağıda verilmişdir. Bu araşdırmalardan belə nəticə çıxır ki, Allahdan başqa heç bir varlıq və ya güc bir milçək belə yarada bilməz.

İynəcə, çəyirtkə, kəpənək və milçək kimi bir çox həşəratın uçmasına dəstək olan əzələlər hər hərəkəti nəzarətdə saxlayan sinirlərin göndərdiyi siqnallar nəticəsində büzülür. Belə ki, bir çəyirtkədə hər sinirin göndərdiyi siqnal uçmanı həyata keçirən əzələnin büzülməsinə səbəb olur. "Qaldırıcı" və "endirici" adlanan iki cüt əks əzələ qrupu bir-birlərinə əks istiqamətdə hərəkət edərək qanadların yuxarı və aşağı hərəkət etməsini təmin edir. Çəyirtkələr qanadlarını saniyədə 12-15 dəfə çırpırlar, kiçik həşəratlar isə uçmaq üçün daha tez-tez qanad çırpmalıdırlar. Məsələn, bal arıları, eşşək arıları və milçəklər saniyədə 200-400 dəfə, ağcaqanadlar və boyu 1 mm olan parazitlər 1000 dəfə qanad çırpırlar. İnsan gözünün sezə bilmədiyi qədər sürətlə hərəkət edən qanadlar bu cür fəaliyyət göstərmək üçün xüsusi quruluşda yaradılıblar.

Bir sinir saniyədə ən çox 200 siqnal göndərə bilir. Elə isə kiçik bir həşərat saniyədə 1000 dəfə necə qanad çırpa bilir? Aparılan araşdırmalarda bu həşəratlarda sinirlərdən gələn siqnallar ilə qanad çırpma sayı arasında əlaqə olmadığı müəyyən edilmişdir. Saniyədə 200 dəfə qanad çırpan qara milçəklər çəyirtkələrdən daha fərqli sinir və əzələ quruluşuna malikdir. Hər 100 qanad çırpması üçün sinirdən sadəcə 1 siqnal gəlir. Bundan əlavə, "lifli əzələlər" adlandırılan bu əzələlər çəyirtkənin əzələlərindən fərqli işləyir. Sinir siqnalları əzələlərin ancaq uçmağa hazırlanmasını tənzimləyir, əzələlər müəyyən həddə qədər gərildikdə isə öz-özlərini büzürlər. Hər həşəratın bədənində fərqli yaradılan bu xüsusi sistemlərdə əsla nizamsızlıq yoxdur. Sinirlər heç vaxt yanlış siqnal göndərmir və həşəratın əzələləri də aldığı bu siqnalları düzgün dəyərləndirir.

Arılar kimi bəzi həşərat növlərində uçmanı təmin edən əzələlər qanad dibinə bağlı deyil. Qanadlar sinəyə bir növ rəzə funksiyası daşıyan buğumlarla bağlanır və qanadları yuxarı hərəkət etdirən əzələlər də sinənin alt və üst səthinə bağlıdır. Bu əzələlər büzüldükdə sinənin səthi düzləşərək qanad dibini aşağıya dartır, digər tərəfdən sinənin yan səthi də dəstək funksiyasını yerinə yetirərək qanadların yuxarıya qalxmasına kömək edir. Aşağıya





hərəkəti təmin edən əzələlər birbaşa qanadlara bağlı deyil, sinə boyu uzununa işləyir. Bu əzələlər büzüldükdə sinə əks istiqamətdə hərəkət edir, beləliklə, qanadlar da aşağıya dartılır.

Qanad buğumu mükəmməl elastikliyə malik olan "resilin" adlı xüsusi zülaldan ibarətdir. Həm təbii, həm də süni kauçukdan daha üstün xüsusiyyətləri olan bu maddəni kimya mühəndisləri laboratoriyalarda hazırlamağa çalışırlar. Resilin gərilmə və bükülmə ilə bütün enerjini depolayan, bununla da ona təsir edən qüvvəni götürdükdə bu enerjini tamamilə geri qaytaran maddədir. Bu cəhətdən resilin 96% səmərəliliklə enerji təmin edir. Qanad yuxarı qaldırıldıqda sərf edilən enerjinin təxminən 85%-i depolanır, uçuşdan sonra qaldırma və itələmə gücünü təmin edən aşağı qanad hərəkətində isə bu enerji yenidən istifadə edilir. Sinə divarları və əzələlər də bu enerjinin toplanmasına imkan verən quruluşda yaradılıblar. Ancaq əsl enerji resilindən ibarət buğumlarda depolanır. Bir həşəratın öz səyi ilə uçmaq üçün bədənininində bu cür mexanizm əmələ gətirməsi qeyri-mümkündür. Bu xüsusi maddə Allahın sonsuz ağlı və qüdrətilə həşəratların bədənində yaradılmışdır.

Uçmaq üçün qanadların təkcə yuxarı və aşağı hərəkəti kifayət deyil. Qanadların qaldırma və itələmə gücünü təmin etmək üçün hər qanad çırpıldıqda onların hərəkət bucağı da dəyişdirilməlidir. Həşəratların növündən asılı olaraq qanadların müəyyən çevrilmə elastikliyi var. Bu elastikliyi uçmaq üçün lazım olan enerjini verən "birbaşa uçma əzələləri" təmin edir. Belə ki, həşəratlar havada daha çox yüksəlmək istədikdə qanad buğumlarının arasında yerləşən bu əzələlər daha da büzülərək qanadla bədənin kəsişmə bucağını böyüdür. Yüksək sürətli fotoqrafçılıq texnikasından istifadə edilərək aparılan tədqiqatlarda qanadların uçma əsnasında elliptik çevrə çəkdiyi və qanadla bədənin kəsişmə bucağının hər qanad çırpıldıqda sistematik şəkildə dəyişdiyi müşahidə edilmişdir. Bu dəyişikliyə əzələlərin dəyişkən hərəkətləri və qanadların gövdəyə bağlanması səbəb olur.



Bütün bunlardan əlavə, çox kiçik gövdəli həşəratların uçma zamanı qarşılaşdığı ən böyük problem havanın axıcılığı nəticəsində əmələ gələn müqavimətin bu həşəratlara çox təsir etməsidir. Habelə qanadın ətrafındakı məhdudlaşdırıcı təbəqə havanın qanadlara yapışmasına və qanadın fəaliyyətinin zəifləməsinə səbəb olur. Bu səbəbdən forcipomyia kimi qanadının genişliyi

1 mm-dən çox olmayan milçəklər havanın müqavimətinə davam gətirmək üçün qanadlarını saniyədə 1000 dəfə çırpmalıdırlar. Elm adamları bu sürətin həşəratın havaya qalxması üçün kafi olmadığını və həşəratların uçmaq üçün başqa bir sistemdən faydalandığını düşünürlər.

Belə ki, bir parazit növü olan enersia kimi kiçik həşəratlar "çırpma və silkələmə" adlandırılan metoddan istifadə edir. Bu zaman qanadlar ən yuxarı həddə çatdıqda bir-birinə dəyir və sonra açılır. Açılarkən qanadların bərk damarlı ön hava axını da əvvəlcə qanadların ətrafında hava girdabı əmələ gətirir, qanadlar çırpılarkən qaldırma qüvvəsinə kömək edir.

Çəyirtkə də daxil olmaqla, bir çox həşərat uçuş zamanı istiqaməti və gedəcəkləri yeri müəyyən etmək üçün üfüqi xətt kimi vizual parametrlərdən istifadə edir. Milçəklər istiqaməti müəyyən etmək üçün mükəmməl quruluşda yaradılıblar. Bu həşəratların sadəcə bir cüt qanadı var. Arxa tərəfdə isə "cilov" adlanan toppuz formasında qanad yerləşir. İtələmə qüvvəsi əmələ gətirməsə də, ön qanadlarla birlikdə titrəşirlər. Uçuş istiqaməti dəyişdikdə isə bu çıxıntılar həşəratın uçuş istiqamətindən ayrılmasının qarşısını alır.

Burada verilən bütün məlumatlar sadəcə üç-dörd həşərat növünün uçma metodu üzərində aparılan tədqiqatlar nəticəsində əldə edilmiş faktlardır. Dünyada 10 milyona yaxın həşərat növü olduğunu düşündükdə qalan milyonlarla həşərat növünün milyardlarla möcüzəvi xüsusiyyəti Allahın sonsuz qüdrətinə heyranlığımızın artmasına səbəb olur.









# Sümüklərdəki MÖHKƏM QƏFƏS SİSTEMİ

Bədənin hərəkəti və qorunması kimi mühüm funksiyanı yerinə yetirən sümüklər bu işi asanlıqla görəcək keyfiyyət və möhkəmlikdə yaradılmışlar. Məsələn, omba sümüyü dik formada bir ton ağırlığa tab gətirə bilir. Belə ki, atılan hər addımda bu sümüyümüzə bədən ağırlığımızdan üç dəfə çox ağır yük düşür. Hətta şüvüllə hündürlüyə tullanan bir idmançı yerə enərkən çanaq sümüyünün hər $sm^2$-i 1400 kq-lıq təzyiqə məruz qalır.

Sümüklərin quruluşunun mükəmməlliyinin tam şəkildə başa düşülməsi üçün belə bir bənzətmə edək. İnsanın istifadə etdiyi ən möhkəm və faydalı materiallardan biri poladdır. Çünki polad həm möhkəm, həm də elastik maddədir. Ancaq sümüklər bərk poladdan daha möhkəmdir və 10 dəfə artıq elastikliyə malikdir. Sümüklər poladdan ağırlıq baxımından da üstün quruluşdadır. Bir polad karkas insan skeletindən 3 dəfə ağırdır.

Sümüklərin qüsursuz quruluşunu dövrümüzün inşaat obyektləri ilə müqayisə etmək də mümkündür. XX əsrin ikinci yarısına qədər böyük və hündür binalar inşa etmək insan üçün böyük xərc və uzun vaxt tələb edən çətin bir işi idi. Lakin texnologiyanın inkişafı ilə tikinti sahəsində bir çox üsul inkişaf etdirildi.

Bu üsulların ən mühümlərindən biri “qəfəs sistemlər” kimi tanınan sistemdir. Bu üsula əsasən, konstruksiyanı saxlayan dayaqlar tək hissəli deyil, bir-birinin içinə keçmiş, qəfəs formasındakı dirəklərdən ibarətdir. Kompyuterlərdə işlənən mürəkkəb hesablamalar sayəsində bu üsuldan istifadə edilərək tikilən böyük körpülər və sənaye obyektləri daha möhkəm və ucuz başa gəlir.

Sümüklərin daxili quruluşu da insanların binalarda və körpülərdə istifadə etdiyi qəfəs sisteminə əsasən qurulmuşdur. Bir sümüyü kəsib tədqiq etdikdə daxili quruluşunda olduqca maraqlı sistem görmək olar. Minlərlə kiçik çubuq iç-içə keçərək mürəkkəb sistem əmələ gətirir. Məhz bu forma sümüklərin içində qurulmuş qəfəs sistemidir. Bu sayədə sümüklər həm çox möhkəm, həm də insanın asanlıqla hərəkət etməsinə imkan verəcək qədər yüngüldürlər. Əgər bunun əksi olsaydı, yəni sümüklərin içi xarici kimi bərk və tamamilə dolu olsaydı, həm sümüklərin ağırlığından insan hərəkət edə bilməzdi, həm də sümüyün quruluşu bərk olduğundan ən kiçik zərbədən çatlayar və yaxud sınardı.

Müasir texnologiyanın təqlid etməyə çalışdığı insan skelet sisteminin təsadüfən meydana gəlməsi mümkün deyil, bu sistem üstün ağıl sahibi olan Allah tərəfindən yaradılmışdır.





# İSTİFADƏ EDƏ BİLƏCƏYİNİZ İNTERNET RESURSLARI

www.heyatingercekmenseyi.com

www.maddeninardindakisirr.net

www.qeder.com

www.tekamulinternasional.com

